Xalqın qəzeti!

# Xalq qəzeti

№ 60 (31029) 10 aprel 2026-cı il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Litva Azərbaycanın maraqlarına Avropa İttifaqında dəstək verən dost ölkədir

## *Azərbaycan Prezidenti İlham Əliyev Litvanın Baş naziri İnqa Ruqinieneni qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Litva Respublikasının Baş naziri İnqa Ruqinieneni qəbul edib.**

Dövlətimizin başçısı Litvanın Baş nazirinin ölkəmizə səfərinin səmərəli olacağına və ikitərəfli əlaqələrimizin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirdi.

Qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən İnqa Ruqiniene Azərbaycanla Litva arasında uzun illərdir yaxşı münasibətlərin olduğunu məmnunluqla vurğuladı.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi, enerji, investisiyalar, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparıldı, münasibətlərimizin genişləndirilməsi işində nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil olunmasının vacibliyi qeyd edildi.

Litvanın Baş naziri Azərbaycanla Ermənistan arasında sülhün bərqərar olması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işlərinin aparıldığını deyən Litvanın Baş naziri keçmiş məcburi köçkünlərin geri qaytarılması istiqamətində Azərbaycan dövləti tərəfindən genişmiqyaslı işlərin həyata keçirildiyini qeyd etdi.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev regionda sülhün və Azərbaycanla Ermənistan arasında ticarət münasibətlərinin qurulmasının təşəbbüskarının məhz ölkəmiz olduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, artıq 30 minə yaxın keçmiş məcburi köçkünün öz dədə-baba yurdlarına qaytarılması təmin olunub. Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə Azərbaycan tərəfindən şəhərlərin, kəndlərin salındığını, nəqliyyat və digər sosial infrastruktur layihələrinin icra olunduğunu dedi. Ancaq bununla belə dövlətimizin başçısı qeyd etdi ki, həmin ərazilərdə minalar problemi mövcuddur ki, bu da bərpa və quruculuq işlərinin aparılmasını ləngidir. Prezident İlham Əliyev Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizdə indiyədək 400-dən çox insanın mina partlayışlarında həlak olduğunu və ya yaralandığını bildirdi.

Görüşdə Azərbaycan–Litva əlaqələrinin ikitərəfli gündəliyi ilə yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu. Bu xüsusda Litvanın Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafına həmişə dəstək verdiyi vurğulandı.

Söhbət zamanı regional məsələlərə də dair fikir mübadiləsi aparıldı.

## Azərbaycanın pravoslav xristian icmasına

**Hörmətli həmvətənlər!**

Sizi – Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Azərbaycanda yüzillərdir hökm sürən tolerantlıq mühiti burada məskunlaşmış ayrı-ayrı xalqların, etiqad və inancların mənsubları arasında nümunəvi və harmonik ictimai münasibətlərin bərqərar olmasında müstəsna rol oynamışdır. Biz cəmiyyətimizdə tarixən formalaşmış etnik-mədəni müxtəlifliyi, milli-mənəvi dəyərləri və multikultural ənənələri müasir dövlətçiliyimizin unikal sərvəti kimi qiymətləndiririk.

Hazırda ölkəmizdə demokratik-hüquqi prinsiplərin təmin edilməsi, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər kəsə, o cümlədən xristian icmasına özünəməxsus adət-ənənələrini, dil və mədəniyyətini yaşatmaq üçün geniş imkanlar yaradır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, xristian həmvətənlərimiz ictimai-siyasi, sosial-mədəni həyatımızda fəal iştirak edir, müstəqil dövlətimizin hərtərəfli inkişafına layiqli töhfələr verirlər.

Əziz dostlar!

Dirçəlişin, yeniliyin, mərhəmət və şəfqət duyğularının rəmzi olan Pasxa bayramı hər il Azərbaycanda təntənə ilə qeyd olunur. Bir daha hər birinizə səmimi bayram təbriklərimi çatdırır, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 aprel 2026-cı il**

## Dünya Bankının ölkəmizdə yüksək iqtisadi artım gözləntisi



Səhifə ⇨ 7

## Məşğulluqda gender bərabərliyi



Səhifə ⇨ 9

## Azərbaycan "C6+1"ə keçid ərəfəsində



Səhifə ⇨ 4

## Gözlər İslamabada dikilib...



Səhifə ⇨ 11

## Yaxın Şərqdə münaqişə Azərbaycanın sülh məramına ziddir



Səhifə ⇨ 4

## Atəşkəsdən sülhə məchul yol



Səhifə ⇨ 11

## Rusiya–Ermənistan: "qaz dramatizmi" və...



Səhifə ⇨ 5

## Koçaryanın "məğlub siyasət"i diriltmək xülyası



Səhifə ⇨ 5

## Azərbaycanda gələcəyin telekommunikasiya sistemi qurulur

Səhifə 7

# Prezident İlham Əliyev Türkiyənin daxili işlər nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Türkiyə Respublikasının daxili işlər naziri Mustafa Çiftçini qəbul edib.**

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Mustafa Çiftçi Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Azərbaycan Prezidentinə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərin qardaşlıq və strateji müttəfiqlik prinsiplərinə əsaslandığı vurğulandı, bütün istiqamətlər üzrə əlaqələrin genişləndiyi bildirildi.

Ölkələrimizin müvafiq qurumları arasında səmərəli tərəfdaşlığın qurulduğu qeyd edildi, bu xüsusda Azərbaycanın və Türkiyənin Daxili İşlər nazirliklərinin də uğurlu əməkdaşlıq həyata keçirdikləri vurğulandı.

*AZƏRTAC*

# Azərbaycanın daxili işlər naziri türkiyəli həmkarı ilə görüşüb





**Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Türkiyə Respublikasının daxili işlər naziri Mustafa Çiftçi və onun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfərə gəlib.**



Aprelin 9-da nazir Mustafa Çiftçi və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Sonra qardaş ölkənin təmsilçiləri Şəhidlər xiyabanındakı "Əbədi məşəl" kompleksini və Türk Şəhidliyini ziyarət ediblər.

Həmin gün Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov türkiyəli həmkarı və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları salamlayan V.Eyvazov daxili işlər naziri vəzifəsinə təyin olunması münasibətilə M.Çiftçini təbrik edib, dəvətini qəbul edərək rəsmi səfərə gəldiyinə görə təşəkkürünü bildirib.

O, iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın yüksək səviyyədə olduğunu məmnunluqla vurğulayaraq rəhbərlik etdiyi Daxili İşlər Nazirliyinin qardaş ölkənin hüquq mühafizə orqanları ilə əlaqələrin, o cümlədən beynəlxalq əməkdaşlığın intensiv inkişafına daim önəm verdiyini qeyd edib. Bu əlaqələrin ilk növbədə qarşılıqlı hüquqi yardım, təcrübə mübadiləsi, dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə dövlətlərarası müqavilələr əsasında reallaşdığı nəzərə çatdırılıb.

Nazir Azərbaycan polisinin və DİN-in Daxili Qoşunlarının respublikada ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə əldə etdiyi müsbət nəticələri də diqqətə çatdıraraq fəaliyyətin təkmilləşdirilməsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin xüsusi rolunu və xidmətlərini məmnunluqla vurğulayıb, Mustafa Çiftçinin şəxsində Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə təşəkkür edib.

V.Eyvazov Mustafa Çiftçinin Azərbaycana ilk rəsmi səfərinin əlaqələrimizin inkişafına və dərinləşməsinə müsbət təsir göstərəcəyinə əmin olduğunu bildirib.

Səmimi qəbula, ətraflı məlumata və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Türkiyənin daxili işlər naziri respublikamıza səfərindən, dost və qardaş ölkələrimizin bölgədə əmin-amanlığa və sabitliyin yaradılmasına ciddi əngəl olan qlobal problemlərə, o cümlədən mütəşəkkil cinayətkarlığın bütün təzahürlərinə qarşı hər zaman vahid mövqedən və birgə səylərlə çıxış etmələrindən, Azərbaycanın sürətli inkişafından, ölkəmizdə yaradılmış sabitlikdən, Bakının dünyanın ən gözəl paytaxtlarından və təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu ifadə edib.

O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, əlaqələrin inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, belə əməkdaşlığın, təcrübə mübadiləsinin xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgün iştirak edib.

*XQ*

# Slovakiyanın ombudsmanı Konstitusiya Məhkəməsində



**Aprelin 9-da Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ölkəmizdə səfərdə olan Slovakiyanın ombudsmanı Robert Dobrovodskinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Azərbaycan və Slovakiya arasında qarşılıqlı anlaşma və dəstəyin mövcud olduğunu, münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edən Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin fəaliyyəti, ölkəmizdə məhkəmə-hüquq sahəsində aparılan islahatlar və yeniliklər barədə məlumat verərək, insan hüquqlarının təmin olunması sahəsində məhkəmələrin qarşısında duran vəzifələrin əhəmiyyətini vurğulayıb. Eyni zamanda, konstitusiya hüquqlarının təmin edilməsi sahəsində Konstitusiya Məhkəməsi ilə Ombudsman təsisatı arasında səmərəli əməkdaşlığı xüsusi qeyd edib.

Robert Dobrovodski ölkələrimiz arasında ikitərəfli əlaqələri yüksək qiymətləndirərək, digər sahələrdə olduğu kimi, məhkəmə-hüquq sahəsində də münasibətlərin inkişafının vacibliyini nəzərə çatdırıb. Eyni zamanda, ombudsman hər iki ölkənin insan hüquqlarının qorunması sahəsində qazandığı təcrübənin qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanlar açacağını vurğulayıb.

Sonra tərəflər arasında gələcək əlaqələrin perspektivləri, birgə layihələrin həyata keçirilməsinin mümkünlüyü müzakirə olunub, hüquqi məsələlər üzrə geniş fikir mübadiləsi aparılıb.

*XQ*

# Azərbaycan və Litva baş nazirlərinin görüşü

**Aprelin 9-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə rəsmi səfərdə olan Litva Respublikasının Baş naziri İnqa Ruqiniene ilə görüşüb.**



Nazirlər Kabinetindən bildiriblər ki, görüş zamanı Azərbaycan ilə Litva arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və digər sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər iki ölkə arasında münasibətlərin uğurla inkişaf etdiyini məmnunluqla qeyd edərək, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün əlverişli imkanların mövcud olduğunu vurğulayıblar.

İqtisadi sahədə əməkdaşlığın dərinləşdirilməsi, ticarət dövriyyəsinin artırılması və investisiya imkanlarının təşviqi məsələlərinə xüsusi diqqət yetirilib. Bu kontekstdə hökumətlərarası komissiyanın fəaliyyətinin əhəmiyyəti qeyd olunub.

Nəqliyyat və logistika sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilərək, Orta Dəhliz və digər beynəlxalq nəqliyyat marşrutları üzrə qarşılıqlı fəaliyyətin genişləndirilməsi imkanları nəzərdən keçirilib.

Enerji sahəsində əməkdaşlıq imkanları da diqqət mərkəzində olub.

Tərəflər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə edərək, Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin inkişafının önəmini diqqətə çatdırıblar.

*XQ*

# Litva Respublikasının Baş naziri Bakıda şəhidlərin xatirəsini anıb



**Azərbaycanda rəsmi səfərdə olan Litva Respublikasının Baş naziri İnqa Ruqiniene aprelin 9-da Şəhidlər xiyabanını ziyarət edib.**

Qonaq Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçərək şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramını bildirib, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyub.

Daha sonra Azərbaycan paytaxtının mənzərəsini seyr edən Baş nazirə Şəhidlər xiyabanının tarixi, bu məkanın xalqımızın yaddaşında tutduğu xüsusi yer və şəhərimizdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Litvanın Baş naziri Milli Xalça Muzeyində



**Litvanın Baş naziri İnqa Ruqiniene aprelin 9-da Azərbaycan Milli Xalça Muzeyi ilə tanış olub.**



Qonağa Azərbaycan xalçaçılıq sənəti haqqında məlumat verilib. Bildirilib ki, Azərbaycan bu sahədə dünyanın aparıcı ölkələrindən biridir. 2010-cu ildə Azərbaycanın ənənəvi xalçaçılıq sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Diqqətə çatdırılıb ki, tətbiqi sənətin nadir nümunələrinin toplandığı Azərbaycan Xalça Muzeyi ayrı-ayrı dövrlərdə müxtəlif ünvanlarda yerləşib. Ölkəmizin nadir incilərindən olan xalçaların daha geniş və səmərəli nümayişi məqsədilə Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən muzey üçün xüsusi bina tikilməsi qərara alınıb və 2008-ci il mayın 15-də Dənizkənarı Milli Parkın ərazisində binanın təməlqoyma mərasimi keçirilib.

Qeyd olunub ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın böyük zəhməti sayəsində milli xalçaçılıq sənəti 2010-cu il noyabrın 16-da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Qonaq, həmçinin muzeydə xalçatoxuma prosesi ilə yaxından tanış olub. Litvanın Baş naziri, həmçinin Azərbaycanın milli geyimləri və qədim kəlağayı sənəti haqqında məlumat verilib.

Qonağa burada nümayiş olunan “Zəfər” xalçası haqqında ətraflı məlumat verilib. Daha sonra qonaq muzeyin Qarabağ interyeri ilə tanış olub.

Sonda Litvanın Baş naziri muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

# Milli Məclis Sədrinin xarici qonaqlarla görüşləri





**Milli Məclisin Sədri Sahibə Qafarova aprelin 9-da ölkəmizdə rəsmi səfərdə olan Litva Respublikasının Baş naziri İnqa Ruqiniene ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Litva arasında mövcud dostluq münasibətlərinin və qarşılıqlı əməkdaşlığın inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

S.Qafarova ölkələr arasında imzalanmış sənədlərin əməkdaşlıq üçün möhkəm hüquqi baza yaratdığını qeyd edərək, müqavilə-hüquq bazasının daha da genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Humanitar sahədə əməkdaşlıqdan danışan Milli Məclisin Sədri təhsil və mədəniyyət sahəsində əlaqələrinin xalqlar arasında münasibətlərin dərinləşməsində mühüm rol oynadığını bildirib.

Görüşdə iki ölkə arasında parlamentlərarası əməkdaşlığın əhəmiyyətinə toxunulub. Qarşılıqlı səfərlərin və parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyətinin qanunverici orqanlar arasında dialoqun inkişafına töhfə verdiyi vurğulanıb.

Litvanın Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini deyən Baş nazir İnqa Ruqiniene mövcud geniş imkanları qeyd edərək iqtisadiyyat, humanitar, müdafiə və təhlükəsizlik sahələrində əməkdaşlığın vacibliyini diqqətə çatdırıb.

Litva parlamentində Azərbaycanla dostluq qrupunun üzvü olduğunu bildirən qonaq ikitərəfli münasibətlərin inkişafında parlamentlərin roluna toxunaraq, işçi qruplarının fəaliyyətinin genişləndirilməsinin və qarşılıqlı səfərlərin təşviq olunmasının əhəmiyyətini vurğulayıb.

*

**Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikası, Türkiyə Cümhuriyyəti və Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin dostluq qruplarının 3-cü görüşünün iştirakçıları ilə görüşüb.**



Sahibə Qafarova Prezident İlham Əliyevin "Bizim ailəmiz Türk dünyasıdır" fikrini xatırladaraq deyib ki, ölkələrimiz və xalqlarımız arasındakı münasibətlərin daha da gücləndirilməsinə yönələn addımlar da dövlətimizin başçısının bu fikrini əks etdirir.

Söhbət zamanı vurğulanıb ki, bu münasibətlər xalqlarımızın təmsilçiləri olaraq, parlamentlər səviyyəsində də uğurla davam etdirilir. Sahibə Qafarova qeyd edib ki, üçtərəfli format çərçivəsində iki gün ərzində Bakıda aparılacaq müzakirələr parlamentlərimiz arasında əməkdaşlığın daha da dərinləşməsinə töhfə verəcək.

Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri Ziya Öztürklər Azərbaycanın ŞKTC-yə göstərdiyi həmrəyliyə, dostluğa, qardaşlığa və dəstəyə görə təşəkkürlərini bildirib, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım dost və qardaş ölkələrimiz arasında münasibətlərin parlament müstəvisində də davam etdirilməsinin vacibliyini vurğulayıb.

***XQ***

# Azərbaycan, Türkiyə və Şimali Kipr parlamentlərinin dostluq qrupları Bakıda bir araya gəliblər



**Aprelin 9-da Azərbaycan Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi və Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin dostluq qrupları üzvlərinin 3-cü iclası keçirilib.**

Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Milli Məclisin komitə sədri Əhliman Əmiraslanov bildirib ki, ölkələrimiz arasında əlaqələr günbəgün genişlənir, inkişaf edir. O, bu əlaqələrin möhkəmlənməsində Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın müstəsna rolu olduğunu vurğulayıb. Əhliman Əmiraslanov Şimali Kiprlə də əlaqələrimizin genişləndiyini bildirərək, Milli Məclisdə Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradıldığını diqqətə çatdırıb.

Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin sədri, Şimali Kipr-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Ziya Öztürklər ŞKTC-nin Türk Dövlətləri Təşkilatında, habelə TÜRKPA-da təmsil olunmasının qurum ölkələri ilə daha səmərəli əlaqələrin qurulmasına imkan verəcəyini deyib. O, Şimali Kiprin Türkiyə və Azərbaycan parlamentləri ilə mövcud olan uğurlu əməkdaşlığının bütün türk dövlətləri parlamentləri ilə də inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Milli Məclisin Azərbaycan-Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev qrupun 2024-cü ildə yaradıldığını, ötən dövr ərzində parlamentlərimiz arasında sıx əlaqələrin olduğunu, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin baş tutduğunu bildirib.

Daha sonra tədbirdə TBMM-in Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Azərbaycan və Türkiyə parlamentləri arasında səmərəli əməkdaşlığın həm regional, həm də Türk dünyasında strateji əhəmiyyət daşıdığını qeyd edib.

***XQ***

# WUF13-ə hazırlıqla bağlı nəqliyyatın hərəkəti monitorinqi

**Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) çərçivəsində nəqliyyat axınının təhlükəsiz və səmərəli idarə olunmasını təmin etmək məqsədilə müəyyən olunmuş marşrutlar üzrə nəqliyyat vasitələrinin hərəkəti monitorinq ediləcək.**

Bununla əlaqədar, WUF13 Azərbaycan Əməliyyat Şirkəti və aidiyyəti qurumların birgə təşkilatçılığı ilə həyata keçiriləcək monitorinq çərçivəsində aprelin 11-dən 12-nə keçən gecə saat 01:30 – 03:30 aralığında Bakı şəhərinin bir sıra küçə və prospektlərində hərəkətin müvəqqəti məhdudlaşdırılması nəzərdə tutulur.

WUF13 Azərbaycan Əməliyyat Şirkətindən mediaya bildirilib ki, monitorinq Neftçilər prospekti, Yusif Səfərov küçəsi, qismən Heydər Əliyev prospekti (Sabunçu körpüsünə qədər), Mehdi Hüseyn küçəsi, Xocalı prospekti, Rixard Zorge küçəsi, Zərifə Əliyeva küçəsi, eləcə də tədbir məkanı olan Bakı Olimpiya Stadionu istiqamətlərini əhatə edəcək.

Sürücülərdən və digər yol hərəkəti iştirakçılarından göstərilən vaxtda hərəkətlərini əvvəlcədən planlaşdırmaq, həmin istiqamətlər üzrə mümkün sıxlığı nəzərə almaq və alternativ yollardan istifadə etmək xahiş olunur.

Heydər Əliyev Beynəlxalq Aeroportu ilə şəhər mərkəzi istiqamətlərində hərəkət edən ekspres avtobus marşrutu fəaliyyətinə normal qaydada, maneəsiz davam edəcək.



Qeyd edək ki, WUF13 öncəsi keçirilən nəqliyyat vasitələrinin hərəkətinin monitorinqi son 10 ildə Azərbaycanda keçirilən bir sıra qlobal tədbirlərə hazırlıq çərçivəsində də tətbiq olunub və uğurla həyata keçirilib.

***XQ***



# Şərqi Avropanın Cənubi Qafqaz strategiyası

## *Baltikyanı dövlətlərlə diplomatik münasibətlər inkişaf yolunda*

**Azərbaycan Respublikası ilə Litva Respublikası arasında 1995-ci il noyabrın 27-də əsası qoyulmuş diplomatik münasibətlər hazırda qarşılıqlı etimad, eləcə də institusional tərəfdaşlıq mexanizmləri vasitəsilə zirvəyə yüksəlib. Ötən illər ərzində tərəflər əsaslı, həmçinin dərin strateji xətt formalaşdırmağa nail olublar. Bu uğurların davamı qismində Litva Respublikasının Baş naziri İnqa Ruqinienenin Azərbaycana rəsmi səfəri xüsusi qeyd olunmalıdır.**

Azərbaycan Prezidenti İlham Əliyev Litvanın Baş naziri İnqa Ruqiniene ilə görüşündə iki region arasında mövcud inteqrasiya proseslərinin mərkəzində dayanan vacib məsələləri müzakirə edib. Şərqi Avropa ölkələri, xüsusən Litva rəsmi Bakının irəli sürdüyü qlobal təhlükəsizlik təşəbbüslərini tam mənada alqışlayır.

Avropa İttifaqının institutları ilə qarşılıqlı fəaliyyət gündəliyi rəsmi Bakının çoxşaxəli xarici siyasət strategiyasının mühüm sütunlarından sayılır. İnqa Ruqiniene bu məqamı vurğulayaraq Litva dövlətinin Avropa İttifaqı–Azərbaycan əlaqələrinin daha da yaxınlaşmasını təhlükəsizlik, həmçinin sabitlik məqsədilə daim dəstəklədiyini bəyan edib. Qitədə artan qeyri-sabitlik, habelə qonşu regionlarda davam edən hərbi münaqişələr fonunda dövlətlər arasında institusional əməkdaşlıq xüsusi xarakter daşıyır. Rəsmi Bakı Şərq–Qərb tranzit dəhlizlərinin idarə olunmasında aktiv qüvvə statusunu əldə etməklə Şərqi Avropanın təhlükəsizlik arxitekturasını daim qoruyur. Məsələyə Litva rəhbərliyinin yanaşması sübut edir ki, Qafqazın aparıcı güc mərkəzi olan respublikamızla inteqrasiya prosesləri yalnız xoşməramlı diplomatik addım yox, eyni zamanda, qlobal xaosun qarşısını almağa yönəlmiş mühüm strateji qərardır. Litva rəsmilərinin mütəmadi şəkildə dövlətimizə səfərlər etməsi respublikamızın beynəlxalq siyasətdəki güclü mövqeyini təsdiqləyir.

Qafqaz regionunda formalaşmış mühüm hərbi-siyasi reallıqlar tarixi sülh mexanizmlərinin yaradılması prosesinə təkan verir. 2020-ci ildə baş vermiş Vətən müharibəsində əldə edilən Zəfər, ardınca 2023-cü ildə həyata keçirilmiş antiterror əməliyyatları bölgədə tam fərqli nizamı rəsmiləşdirdi. Litvanın Baş naziri respublikamızla Ermənistan arasında sülhün bərqərar olması münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Cənubi Qafqazda onilliklər boyu mövcud olmuş mürəkkəb geosiyasi düyün artıq ədalət prinsipləri əsasında tam açılıb. Müvafiq proseslər, sadəcə, qarşılıqlı asılılıq yaratmaq məqsədi daşımır, eyni zamanda, regional qonşuluq mühitində siyasi davranışları çərçivəyə salaraq böhranlı vəziyyətin ağırlaşması risklərini zərərsizləşdirir. Münaqişə tərəfləri arasında əldə olunacaq hüquqi sənədlər beynəlxalq səviyyədə suverenliyin təntənəsidir. Əvvəlki dövrlərdə Qərb mərkəzlərində dolaşan əsassız tərəddüdlər hazırda tamamilə iflasa uğrayıb. Şərqi Avropa ölkələrinin rəsmi təmsilçiləri anlayırlar ki, Azərbaycan rəhbərliyinin diktə etdiyi nizam bölgəyə yalnız sabitlik, habelə mütləq inkişaf vəd edir. Ermənistanın keçmişdə atdığı destruktiv addımlar rəsmi Bakının dəmir iradəsi qarşısında mövcudluğunu itirib. Regional proseslər hazırda tam nəzarət altındadır.

Azad olunmuş ərazilərimizdə irimiqyaslı bərpa-quruculuq işlərinin aparıldığını deyən Litvanın Baş naziri keçmiş məcburi köçkünlərin geri qaytarılması istiqamətində dövlətimiz tərəfindən çoxşaxəli fəaliyyətin həyata keçirildiyini xüsusi qeyd edib. Prezident İlham Əliyev görüş zamanı artıq on minlərlə keçmiş məcburi köçkünün dədə-baba yurdlarına dönməsini mühüm nailiyyət qismində dəyərləndirib. Adıçəkilən demoqrafik köç mexanizmi sıradan sosial tədbir hesab edilməməlidir. Müvafiq addım ərazilər üzərində suveren hüquqların tam möhkəmləndirilməsi, habelə respublikamızın xəritəsində əbədi təhlükəsizliyin qorunması mənasını daşıyır. Eyni zamanda, dövlətimizin başçısı işğaldan azad edilmiş yurd yerlərində minalar təhlükəsi probleminə toxunaraq, həmin amilin bərpa sürətini ciddi şəkildə ləngitdiyini diqqətə çatdırdı. Mina sadəcə, humanitar təhdid sayılmır, həm də beynəlxalq hüququn kobud şəkildə pozulmasını ehtiva edən qlobal siyasi problemdir.

*

Geosiyasi xəttin Mərkəzi Avropadan Şərqə doğru meyillənməsi rəsmi Bakının qitəmiqyaslı əhəmiyyətini durmadan artırır. Litvanın Baş nazirinin qələbə reallıqlarını ehtiva edən təbrikləri xüsusi məzmuna malikdir. Azərbaycan 2026-cı ilin mürəkkəb qlobal güc balansında nümayiş etdirir ki, beynəlxalq ziddiyyətlər epoxasında qətiyyətli idarəçilik mexanizmləri vasitəsilə tamamilə fərqli geosiyasi hədəflərə çatmaq mümkündür. Baltikyanı dövlətlər vaxtilə formalaşdırılmış qeyri-obyektiv yanaşmalardan qəti şəkildə imtina edərək sırf praqmatizmə əsaslanan xarici siyasət kursunu seçirlər. Qafqazda təsdiqini tapmış nizam həm tranzit xətlərinin, həm regional əlaqələrin, həm də beynəlxalq miqyaslı təhlükəsizlik sazişlərinin fasiləsiz tətbiqinə zəmin yaradır. İnqa Ruqinienenin diqqət çəkdiyi ortaq inteqrasiya detalları Şərqi Avropa məkanı ilə Xəzər hövzəsi arasındakı vahid strateji xəttin aydın mənzərəsidir. Rəsmi dövlət rəhbərlərinin əsas hədəf olaraq sabitlik konseptinə diqqət ayırmaları gələcək onilliklərin sarsılmaz sülh epoxasına keçid aldığını aydın nümayiş etdirir.

Mövcud siyasi konfiqurasiya çərçivəsində tərəfdaş ölkələrin respublikamızla münasibətlərini ən yüksək səviyyəyə qaldırması tarixi qanunauyğunluqdur. Görüşün gedişatında xüsusi vurğulanan təhsil, eləcə də idarəetmə sferaları gələcək ortaq addımların əsas istiqamətlərini təşkil edir. Tərəflər nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin daha da aktivləşdirilməsi zərurətini bəyan ediblər. Keçmişdə haqsız, reallıqdan uzaq qərarların alınmasını dəstəkləyən xarici dairələr artıq birmənalı şəkildə qəbul edirlər ki, Cənubi Qafqazda yeganə həlledici mövqe dövlətimizə məxsusdur. Ədalətli beynəlxalq prinsipləri daim rəhbər tutan Litva kimi tərəfdaşların respublikamıza ardıcıl siyasi-diplomatik dəstək verməsi bilavasitə qitənin bütöv təhlükəsizlik halqasının güclənməsinə xidmət edir. Şərq-Qərb nəqliyyat marşrutlarında yaranan sarsılmaz geostrateji platformalar nəhəng güc mərkəzlərini mövcud sabitliyi qorumağa məcbur edir. Ən vacib detal ondan ibarətdir ki, respublikamızın atdığı strateji addımlar istənilən qlobal böhranı mütləq konstruktiv məcraya yönəltməyi bacarır.

Azərbaycan Prezidenti İlham Əliyevin Litvanın Baş naziri İnqa Ruqiniene ilə görüşdə səsləndirdiyi beynəlxalq platformalar səviyyəsində tərəfdaşlığın reallaşdırılması barədə fikirləri ciddi siyasi yükə malikdir. Bu cür təmasların qitənin yeni siyasi mənzərəsini formalaşdırdığını deyən Litvanın Baş naziri tərəfindən açıq mətnlə ifadə olunan müvafiq mövqe Şərqi Avropanın Cənubi Qafqazdakı real güc nizamına rasional yanaşmasını göstərir. Dövlətimizin müəyyənləşdirdiyi strateji yol xəritəsi respublikamızı qlobal təhlükəsizlik zəmanətçisi zirvəsinə qaldırıb.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Yaxın Şərqdə münaqişə Azərbaycanın sülh məramına ziddir

## *Rəsmi Bakı ədalətli dünya uğrunda siyasətinə sadiqdir*



**Cənub qonşumuz İran müharibə girdabındadır. Elan olunmuş atəşkəsin ömrünün iki həftədən az, yaxud çox çəkəcəyi böyük sual işarəsi altındadır. ABŞ/İsrail–İran münaqişəsi nə zaman sona çatacaq? Təkcə İranda 3 mindən çox insanın həyatına son qoymuş qanlı münaqişəyə bölgə ölkələrinin, Qərbin və dünyanın münasibəti necədir? Azərbaycanın bu ziddiyətli dönəmdə tutduğu mövqeyi münaqişə tərəflərində hansı reaksiyanı doğurur? Bu və digər suallarımızı Qərbi Kaspi Universitetinin professoru, Yaxın Şərq məsələləri üzrə tanınmış ekspert Fikrət Sadıxov cavablandırır.**

***– Fikrət müəllim, ABŞ/İsrail – İran hərbi qarşıdurması özünün fərqli cəhətləri ilə diqqəti cəlb edir. Müasir müharibə taktikasından istifadə olunan hərbi əməliyyatların xarakteri və miqyası qlobal böhranı şərtləndirir. Hərbi qarşıdurma davam edəcəyi təqdirdə, bu, bölgə və dünya üçün daha ciddi kataklizmlərə gətirib çıxara bilərmi?***

– Yaxın Şərq münaqişəsi artıq bir çox dövlətlərin iqtisadiyyatında mənfi təsir göstərib. Xüsusilə Avropa ölkələrində, elə ABŞ-ın özündə də müəyyən problemlər yaranıb, neft bahalaşıb. Digər tərəfdən, dünyanın neft-qaz idxalının 20 faizinin daşındığı Hörmüz boğazının iflic vəziyyətə düşməsi uzaq regionlarda da sıxıntlara səbəb olub. Vəziyyətin hansı səviyyəyə qədər mürəkkəbləşəcəyi isə heç kəsə məlum deyil. Əlbəttə ki, bu, hadisələrin hansı istiqamətdə cərəyan edəcəyi ilə birbaşa bağlıdır. Yəni atəşkəsə riayət olunub-olunmayacağı məsələsi də çox önəmlidir. Hazırda görünən mənzərə ondan ibarətdir ki, Tehran sərt mövqeyindən geri çəkilmir və Hörmüz boğazından neft tankerlərinin keçidi İranın iradəsi və nəzarəti altında reallaşacaq. Bu isə dünyanın yanacaq bazarının konkret istiqamətlərində böhran vəziyyəti yaratmağa qadirdir.

***– Sizcə, tərəflər arasında tam atəşkəsin alınmamasına mane olan nədir? ABŞ-ın hücumdan əvvəl açıqladığı məqsədlərinə çatmaması, yoxsa Hörmüz boğazından keçid problemi ilə bağlı dünyada yaranan enerji böhranı?***

– Atəşkəs rejiminin baş tutmasına bir sıra səbəblər mane olur. Birinci səbəb İranın nüvə proqramının tamamilə sıradan çıxarılmamasıdır. Bu, İsraildə qorxu yaradan, onun yuxusunu ərşə çəkən məsələdir. Onun müttəfiqi və himayədarı kimi ABŞ da, təbii ki, Təl-Əvivin bu əndişəsini paylaşır. Digər tərəfdən, İranın ballistik raketlərinin sayının azalmadığı üzə çıxıb. Yəni Tehranın İsraili də, Fars körfəzindəki ABŞ bazalarını da vurmaq üçün cəbbəxanasında kifayət qədər ehtiyatı mövcuddur. Son əməliyyatlarda onun hədəfləri sırasında mülki obyektlərin də yer aldığının şahidi olduq. Dediyimiz bu amillər atəşkəsin əldə olunmasına böyük maneələr yaradır. Onu da qeyd etməliyik ki, ABŞ və İsrail hərbi əməliyyatlara başlayanda bəlkə də Hörmüz boğazı barədə heç düşünməyiblər. Çünki onların əsas hədəfləri tamamilə başqa istiqamətdə idi. Eyni zamanda, İranın Yaxın Şərqdəki müttəfiqlərin proksi qüvvələrinə köməklik göstərməsi ABŞ və İsraildə ciddi narahtlıq yaradan məsələlərdir. İndiki vəziyyətdə danışıqların baş



tutması heç də o demək deyil ki, tərəflər elə ilk raundlarda hansısa məsələyə dair razılığa gələcəklər. Düşünürəm ki, danışıqlar, müzakirələr hələ uzun sürəcək, qarşılıqlı şərtlər, iddialar irəli sürüləcək. Məhz sadaladığımız səbəblər ucbatından atəşkəsin pozulması istisna edilmir.

***– Müşahidələr onu deməyə əsas verir ki, Vaşinqtonun münaqişəni tez bitirməyə, Tehranla dialoqa meyillənməsi Təl-Əvivi qane etmir. Onlar arasında birgə hərbi əməliyyatlara son qoymaqla bağlı fikir ayrılıqlarının səbəbini necə izah edərdiniz?***

– Vaşinqtonla Təl-Əvivin arasında müəyyən razılıq olsa da, mövqeləri üst-üstə düşsə də, bir sıra məsələlərə yanaşmada İsrail sərt mövqe sərgiləyir. Çünki Yaxın Şərq regionunda yerləşən İsrailin İranla münaqişənin mərhələləri hələ başa çatmayıb. Bu ölkələr bir-bini ittham edir, ərazilərinə havadan zərbələr endirirlər. ABŞ isə buradan uzaqda, okeanın o tayındadır. Yəni Birləşmiş Ştatların ərazisini nə hədəfə almaq, nə də hansısa obyekti vurmaq mümkündür. Amma indi Vaşinqtonda belə düşünürlər ki, onlar bu münaqişədə əsas məqsədlərinə çatdılar. Doğrudur, İrandakı məlum hədəflərin sıradan çıxarılması üçün keçirilən hava hücumlarını sonadək uğurlu hesab etmək olmaz. Əsas yanlışlıq ondan ibarətdir ki, ABŞ rəhbərliyi İranın ali rəhbərliyini fiziki cəhətdən aradan götürməklə daxildə rejim dəyişikliyinə nail olacağına əmin idi. Fəqət hakimiyyətin üst qatına gətirilən ikinci, üçüncü eşalon əvvəlki siyasəti davam etdirdi və mövqeyi də dəyişmədi, əksinə, daha radikal mövqe sərgilədi. Həm də bu səbəbdən münaqişənin heç də səngimədiyini müşahidə edirik. İran ordusunun İsrailə zərbələri daha da intensivləşdirməsi, Livanda Hizbullahı, Yəməndə Hüsiləri dəstəkləməsi yüksək səviyyədə davam etdirilir. Bu isə ABŞ–İsrail münasibətlərinə təsir göstərən amillərdən sayılmalıdır.

***– Beynəlxalq media Trampın Çinə planlaşdırılan səfərinin təxirə salınmasını Pekinə qalib kimi getmək istəyi kimi qələmə verdi. O cümlədən bu hərbi eskalasiyada "görünməyən tərəflərin" iştirakından bəhs edilir. Burada vurğu daha çox Çin amilinin üzəri yönəlir. Hətta Ağ Evin əsas hədəfinin İran deyil, Çin olduğu irəli sürülür. Bu versiyanı necə dəyərləndirərdiniz?***

– Bu münaqişədə Çin amilinin aparıcı rola malik olduğunu düşünmürəm. Digər reallığı da unutmaq olmaz ki, Pekin İrandan münasib qiymətə həm neft, həm də qaz alır. Hörmüz boğazında keçidin bağlanması, təbii olaraq, neftin Çinə daşınmasında müəyyən problemlər yaradır. Rəsmi Pekin son bir ay ərzində məhz bu səbəbdən bir neçə dəfə tərəflərə müraciət edib, onları əməliyyatları dayandırmağa çağırıb, danışıqlar masasına dəvət edib. O da məlumdur ki, Çin özünün anti-Qərb siyasətini açıq müstəvidə aparmasa da, Rusiya və İranla münasibətlərini daim ön planda tutub. Əlbəttə, Birləşmiş Ştatlar və İsrailin birgə İranı vurması Pekinin maraqları ilə heç də üst-üstə düşmür. Bunun real sübutu kimi onu deyə bilərik ki, BMT Təhlükəsizlik Şurasının bu yaxınlarda İrana qarşı qətnaməsi məhz Çinin və Rusiyanın vetosu sayəsində qəbul olunmadı.

***– Yaxın Şərqdə başlayan və ətraf coğrafiyanı da cənginə almış hərbi münaqişədə Azərbaycan bitərəf, ölçülü, dialoqa və sülhə yönəlik siyasət yürüdür. Maraqlıdır ki, ölkəmizin qonşu İrana humanitar yardım koridorunu açması, iki ölkənin rəsmiləri arasında davamlı telefon danışıqları anti-İran koalisiya tərəfindən sükutla qarşılanır...***

– Azərbaycanın bu münaqişədə tutduğu mövqeyi onun xarici siyasət prioritetlərinə uyğun şəkildə həyata keçirilir. Rəsmi Bakının bu münaqişəyə yanaşması özünün balanslı və çoxvektorlu xarici siyasətinin göstəricisidir. Təbii ki, cənub qonşumuza qarşı belə bir total müharibənin alovlanması Azərbaycanı narahat edir və biz bunu açıq şəkildə bildirmişik. Bəli, bu hərbi qarşıdurma Azərbaycanın maraqlarına cavab vermir. ABŞ ilə normal ikitərəfli, hətta strateji müttəfiqlik münasibətləri qurmağımıza, eyni zamanda, İranın Azərbaycan üçün yaratdığı bəzi problemlərə baxmayaraq, rəsmi Bakı xalqın bu savaşdan əziyyət çəkdiyini çox yaxşı başa düşür. İlk növbədə bu amili nəzərə alaraq, Azərbaycan İranla sərhədində humanitar dəhlizi açıq saxlayır və buradan həm özünün, həm də qonşu ölkələrin humanitar yüklərinin cənub qonşumuzun ərazisinə yola salınmasını təşkil edir. Bu, dövlətimizin başçısının, xalqımızın dara düşən qonşuya yardım missiyasına sadiqliyinin ifadəsidir. İran Prezidenti Məsud Pezeşkianın bununla bağlı İlham Əliyevə bir neçə dəfə telefon açması, göndərilən yardımlara görə minnətdarlığını bildirməsi Azərbaycanın bəşəri dəyərlərə həssas yanaşmasının, ən çətin situasiyalarda belə dürüst və halal davranmasının əyani nümayişi sayılmalıdır.

**P.S.** *ABŞ/İsrail–İran münaqişəsinin əsas sualı dəyişməyib: Tehran Vaşinqtonun "uranı sıfır zənginləşdirmə" tələbindən imtinaya və nüvə proqramını bərpa etmək cəhdlərinə davam etsə, nə baş verəcək? Tramp buna necə cavab verəcək? Bu sualların cavabı hələlik göydən asılı vəziyyətqə qalıb. Deməli, müharibənin yenidən alovlanması ehtimalı da realdır.*

**P.P.S.** *İranın Pakistandakı səfiri Reza Amiri Moghadam ABŞ-la danışıqlar üçün İran nümayəndə heyətinin İslamabada gəlməsini planlaşdırdığını bildirdiyi "tvit"ini silib. Diplomat daha əvvəl yazmışdı ki, İsrailin diplomatik təşəbbüslərə mane olmaq cəhdlərinə baxmayaraq, "Pakistanın baş naziri Şahbaz Şərifin dəvəti ilə bu gün axşam saatlarında İran nümayəndə heyəti İslamabada gəlir". Sonradan mesajın hansı səbəbdən silinməsinə aydınlıq gətirilməyib...*

***Söhbəti yazdı:***
***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan "C6+1"ə keçid ərəfəsində

## *Avrasiyada yeni geosiyasi və geoiqtisadi nizam formalaşır*

**Qırğızıstanın "The Times of Central Asia" nəşrində Vaşinqtondakı Hudson İnstitutunun baş elmi işçisi Ken Moriyasunun məqaləsi dərc olunub. Müəllif yazır ki, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq formatına inteqrasiyası, sadəcə, diplomatik hadisə deyil, genişmiqyaslı geosiyasi transformasiyanın tərkib hissəsidir. Bu proses yalnız "C5+1" platformasının coğrafi genişlənməsi deyil, bütövlükdə Avrasiya məkanında nəqliyyat, enerji və siyasi konfiqurasiyanın yenidən qurulmasıdır. Azərbaycanın bu prosesə daxil olması regionu dağınıq marşrutlar məcmusundan vahid və əlaqələndirilmiş geoiqtisadi sistemə keçidini təmin edən həlledici mərhələdir.**

Bu strateji xəttin yaxın perspektivdəki ən mühüm sınağı sentyabr ayında BMT Baş Assambleyası (UNGA) çərçivəsində keçirilməsi planlaşdırılan yüksək səviyyəli görüşdür. Ənənəvi olaraq Mərkəzi Asiyanın 5 dövləti ilə ABŞ arasında dialoq mexanizmi kimi fəaliyyət göstərən bu platformanın Azərbaycanın da iştirakı ilə "C6+1" modelinə çevrilməsi artıq regional siyasətdə yeni reallıq yaradır.

*(ardı 6-cı səhifədə)*




# BDAK-ın hesabatında erməni lobbisi izi

**ABŞ-ın Beynəlxalq Dini Azadlıqlar üzrə Komissiyası (BDAK) hər il dünyada dini azadlıqların vəziyyətini qiymətləndirən hesabat açıqlayır. "2026-cı il İllik Hesabatı" da təxminən 190-na yaxın ölkəni əhatə edir. Bu hesabatlarda ölkələr bir neçə kateqoriya üzrə təsnifatlaşdırılır: "Xüsusi narahatlıq doğuran ölkələr" (CPC), "Xüsusi müşahidə altına alınan ölkələr" (SWL) və "Dini azadlıqların vəziyyətinin nisbətən qənaətbəxş hesab edildiyi ölkələr". Builki hesabatda 15-ə yaxın ölkə CPC kateqoriyasında, 20-yə yaxın ölkə SWL kateqoriyasında yerləşdirilib. Digər ölkələr isə müsbət və orta kafi kimi qiymətləndirilib.**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

BDAK-ın illik hesabatlarında daimi olaraq müşahidə olunan "ikili standartlar" builki qiymətləndirmədən də yan keçməyib. Eyni xarakterli problemlərə görə ölkələrin bir qismi sərt tənqid olunduğu halda, digərləri bilərəkdən kənar tutulub: ya ümumiyyətlə adları çəkilməyib, ya da daha yumşaq formada tənqid ediliblər. Bəzi monoetnik, təkdinli ölkələr isə "dini dözümlülüyün yüksək olduğu ölkələr" qismində örnək olaraq göstəriliblər. Geosiyasi baxımdan mürəkkəb durumda olan ölkələrə qarşı isə daha sərt və tənqidi yanaşma sərgilənib. Bu yanaşma xüsusilə Yaxın Şərq, Cənubi Asiya və postsovet məkanına münasibətdə özünü büruzə verib.

Hesabatın hazırlanması üçün istifadə edilən metodologiya isə tamamilə qüsurludur. BDAK öz dəyərləndirməsində birmənalı olaraq qeyri-hökumət təşkilatlarının və ya siyasi motivli qrupların təqdim etdikləri məlumatlara istinad edib. Rəsmi statistikanın, alternativ mövqelərin nəzərə alınmaması hesabatın metodoloji əsaslarını sual altına qoyur. Bu metodla hazırlanmış hesabatda qeyri-peşəkarlıq və siyasi konyunktur özünü göstərir.

Azərbaycana yanaşma da bu kontekstdədir. Ölkəmizin adı "Xüsusi müşahidə altına alınan ölkələr" siyahısına daxil edilib. Yəni, neqativ fonda təqdim olunmasına təşəbbüs göstərilib. Nəzərə alınmayıb ki, ölkədə dini azadlıqların hüquqi və institusional təminatı genişdir. Azərbaycan Respublikasının Konstitusiyası din və vicdan azadlığını təmin edir. Dini ayrı-seçkiliyi yasaqlayır, bütün vətəndaşların hüquq bərabərliyinə təminat verir. Ölkədə 30-dan çox dini konfessiya sərbəst fəaliyyət göstərir; 900-dən artıq dini icma dövlət qeydiyyatından keçib. Bu icmalar arasında müsəlmanlarla yanaşı, pravoslavlar, katoliklər, yəhudilər, protestantlar və digər dini qruplar da mövcuddur. Bu fakt ölkədə dini plüralizmin real şəkildə təmin olunduğunu göstərir. Təsadüfi deyil ki, BDAK-ın qərəzli hesabatının açıqlanmasından dərhal sonra Azərbaycandakı Dini Konfessiya rəhbərləri bəyanat yayaraq, Beynəlxalq Dini Azadlıq Komissiyasının "2026-cı il İllik Hesabatı"nda Azərbaycanda dini vəziyyətin düzgün qiymətləndirilmədiyini qeyd ediblər. Onlar komissiyaya və hesabata kəskin ediraz ediblər. Hesabatdakı təzad bu qədər barizdir: 30-a yaxın dini konfessiya deyir ki, Azərbaycanda durumumuz yaxşıdır, BDAK isə deyir ki, "yox, vəziyyət xarabdır".

Qurum nəzərə almır ki, Bakı şəhərində məscidlərin, kilsələrin və sinaqoqların yanaşı fəaliyyət göstərməsi simvolik hal deyil, gündəlik həyat tərzidir. Qafqazın ən böyük sinaqoqlarından birinin Azərbaycanda yerləşməsi və yəhudi icmasının təhlükəsiz şəraitdə yaşaması beynəlxalq səviyyədə müsbət nümunə kimi qeyd olunur. Dövlət yalnız islam dini abidələrinin deyil, həm də digər dinlərə aid ibadət yerlərinin bərpasına xüsusi diqqət yetirir. Heydər Əliyev Fondu tərəfindən Vatikanın mədəni irs abidələrinin bərpasına verilən dəstək Azərbaycanın dini tolerantlıq siyasətinin beynəlxalq səviyyədə tanındığını təsdiqləyir. 2025-ci ildə "İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsi"nin Azərbaycanda ilk toplantı evinin açılması isə dini müxtəlifliyə yaradılan real imkanların daha bir göstəricisidir. BDAK isə bu faktların heç birini görmür, qeydə alıb qiymətləndirmir.

Hesabatda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dini irsin guya təhrif edilməsi ilə bağlı iddialar yer tutur. Halbuki, faktlar bunun əksini göstərir. Qarabağ və Şərqi Zəngəzur bölgələrində həm islam, həm də xristian abidələrinin bərpası paralel şəkildə həyata keçirilir. Bu proses peşəkar mütəxəssislərin və memarların iştirakı ilə, tarixi xüsusiyyətlər qorunmaqla icra olunur. Hansı ki, 30 ilə yaxın işğal dövründə yüzlərlə dini və mədəni abidə işğalçılar tərəfindən dağıdılıb və bu dağıntılar beynəlxalq təşkilatlar tərəfindən qeydə alınıb. BDAK isə hesabatında bu faktlara ümumiyyətlə yer ayrılmayıb.

Problemin nədən qaynaqlanması üzrə ehtimallar da bu məqamda görünür. Aydın şəkildə sezilir ki, hesabatın hazırlanmasında ABŞ-dakı erməni lobbi və maraq qruplarının təsiri vardır. Bu ehtimalı sübut etmək üçün bir faktı xatılatmaq kifayətdir. Belə ki, 2024-cü il yanvarın 30-31-də Amerika Birləşmiş Ştatlarında Beynəlxalq Dini Etiqad Azadlığı Sammiti keçirildi. Tədbir Beynəlxalq Dini Etiqad Azadlığı Komissiyası tərəfindən Senatın yardımı ilə təşkil olunmuşdu. Spiker qismində isə "Xankəndidən olan qaçqın jurnalist" kimi təqdim edilən Siranuyş Sarkisyanın üzərində dayanılmışdı. Siranuşla yanaşı, həmin konfransda digər 5 erməni məruzəçi dinlənildi. Amma Qarabağın Azərbaycanlı icmasından bircə nəfər də olsun konfransa dəvət edilmədi. Bu, deməyə əsas verir ki, BDAK islamofob siyasət yürüdür, hesabatını da bu kontekstdə hazırlayır. 2023-cü ilin antiterror tədbirlərindən sonra BDAK öz hesabatlarını kəskin anti-Azərbaycan ritorika sərgiləyir. Təkcə Azərbaycana deyil, ümimilikdə Cənubi Qafqaza qarşı yönəlmiş məkrli planlarda rol alır.

# Rusiya – Ermənistan: “qaz dramatizmi” və...

## Yaxud Zaxarovanın Simonyana cavabına sözardı

**Rusiya Prezidenti Vladimir Putin Ermənistanın baş naziri Nikol Paşinyanla ötən həftə Moskvada görüşü zamanı erməni həmkarına bir mətləbi xatırlatdı. Özü də çox dərinə getmədən. O bildirdi ki, Ermənistan rus qazını 177 dollara alır, Avropada isə onun qiyməti 600 dollardır. Əslində, V.Putin demək istəmişdi ki, Ermənistanın can atdığı Avropa İttifaqı ölkələrində vəziyyət “rusca”dır. Yeri gəlmişkən, eyni fikri digər Kreml təmsilçiləri də dilə gətiriblər. Amma yazımız bilavasitə bu haqda deyil.**

Hərçənd, mövzumuzun vurğuladığımız məqamla bağlılığı var. Şübhəsiz, qaz məsələsi adi sayılmamalıdır. Ermənistanda isə hesab edirlər ki, Rusiya ölkəyə heç nə edə bilməz. Görəsən niyə? Əlbəttə ki, hay rəsmiləri, ilk növbədə, pataloji xəstəlik halını almış erməni sevdasına ümid bəsləyirlər. Onlar yaxşı bilirlər ki, Rusiyada Ermənistana qucaq açmağa hazır olan ciddi kəsim var. O kəsim ki, həm ictimai sferada, həm də dövlət idarəçiliyində təmsil olunur. Digər tərəfdən, Rusiya Cənubi Qafqazda erməni amilinə söykənərək ayaqda qalıb: ermənilərin törətdikləri fitnə-fəsadlar rus imperializminin regionda apardığı ənənəvi “parçala və hökm sür” siyasətində başlıca tutacaq olub. Barəsində söz açdığımız erməni sevdasının kökü məhz bundadır. Yəni reallıq baş nazir Paşinyan iqtidarının nümayəndələrinə yaxşı bəllidir. Ona görə manevr edir, iqtidarda olduqları müddətdə Ermənistanın cəzalanmayacağını düşünürlər. İqtidardan getdikdə isə...

Bəli, məhz Rusiyadakı erməni sevdasına görədir ki, N.Paşinyan Moskvada Putinin qarşısında son dərəcə əndərəbadi bəyanat səsləndirir. Putin Ermənistanın eyni anda həm Avropa İttifaqında (Aİ), həm də Avrasiya İqtisadi İttifaqında (AİI) təmsilçiliyinin tamamilə yolverilməzliyini vurğulayır. Nikol isə buna cavab olaraq bildirir ki, ölkəsi hər iki istiqamət üzrə irəliləyəcək, ən axırda seçim edəcək. Bir sözlə, o, tipik erməni həyasızlığını işə salır. Görünür, Rusiyanın taleyinə bu sayaq həyasızlıqlara dözmək də yazılıb.

*

Deməli, Ermənistan parlamentinin sədri Alen Simonyanın qatı anti-Rusiya mövqeyi ilə seçildiyi məlumdur. O, qaz məsələsinə münasibətdə də deyib ki, əgər Rusiya Ermənistana ixrac olunan qazın qiymətini artırmaq qərarı versə, İrəvan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) və AİI-dən çıxış proseduruna başlayacaq. Belə bir misal var ki, dinsizin öhdəsindən imansız gələr. Bu



mənada, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın Simonyana cavabı maraqlıdır. Zaxarova fikrini iki kontekstdə izah edib. O, əvvəla, Simonyanın, ümumən erməni liderlərin peşəkar siyasətçiyə xas davranmadıqlarına eyham vurub, həmçinin, sərt reallıqları xatırladırıb. Birinci kontekstdən başlayaq.

Deməli, Zaxarova ənənəvi məsxərə tonunu və obrazlı ifadələrini işə salaraq, Simonyanın diqqətə çatdırdığımız fikrinə nəzərən bunları bildirib: “Bu bir az kirpiyə öz imkanlarını göstərməklə hədələmək haqqında məşhur hekayəni xatırladır. Bilirsiniz, emosional siyasətçilərin bəyanatlarını ciddi şəkildə şərh etmək istəmirəm. Xüsusən, onların bundan əvvəl, o cümlədən KTMT mövzusunda nə qədər ziddiyyətli fikirlər səsləndirdiyini nəzərə alsaq. Sadəcə xatırlatmaq istəyirəm: deyilirdi ki, guya Ermənistan KTMT-dən çıxmır və ya çıxmaya bilər, əksinə, KTMT Ermənistandan gedir. Bu prosesin artıq başa çatıb-çatmadığını bilmirəm. Ona görə məsələyə qayıtmağın və qiymət verməyin mənası yoxdur. Bir daha vurğulayıram: bunlar emosional bəyanatlardır”. Kirpidən söz düşmüşkən, Zaxarova “iynə” sancmağı da unutmayıb. O bildirib ki, Simonyan və digərlərinin emosional tərzdə səsləndirdikləri bəyanatları, ilk növbədə, Ermənistan vətəndaşları şərh etməlidirlər. “Çünki söhbət onların həyatını idarə edən, gələcəklərini formalaşdıran insanlardan gedir. Ona görə də belə bəyanatlara münasibəti məhz bu ölkənin vətəndaşlarından soruşmaq lazımdır”, - deyən Rusiya XİN rəsmisinin Ermənistanın daxilinə hesablanmış mövqe açıqladığı aşkardır. O, dolayısı ilə hazırkı erməni iqtidarının ölkəni fəlakətə sürüklədiyini deyir. Axı dedik ki, qaz məsələsi adi sayıla bilməz. Ən azından, qışda soyuqdan donmaq təhlükəsi var.

Qeyd edək ki, M.Zaxarova Simonyana cavab xarakterli açıqlamasında sərt reallıqları xatırladarkən də qaz məsələsi ilə zarafatlaşmağın yolverilməzliyini diqqətə çatdırıb: “Amma başqa bir məsələyə ciddi şəkildə toxunmaq istəyirəm. Qaz tədarükü mövzusu, bildiyiniz kimi, aprelin 1-də Moskvada Vladimir Putin və Nikol Paşinyan arasında keçirilən görüşdə müzakirə olunub. Konkret rəqəmlər səsləndirilib: Ermənistan rus qazını 177,5 dollara alır, Avropada isə qiymət 600 dollara qədər çatır. Bu artıq emosiyalar deyil, faktdır, obyektiv məlumatlarla təsdiqlənmiş rəqəmlərdir”.

M.Zaxarova əlavə edib ki, Ermənistan rəhbərliyinin işi ölkənin enerji təhlükəsizliyini təmin etməkdir. “Bu, hər bir dövlətin əsas vəzifələrindən biridir, xüsusən, Yaxın Şərqdə gərginliyin artması fonunda qaz bazarlarında yaranmış ciddi dalğalanmalar şəraitində. Hazırda bütün ölkələr və məsul siyasətçilər enerji bazarlarında müşahidə olunan bu ciddi qeyri-sabitliyin qurbanına çevrilməmək üçün çıxış yolları axtarırlar”, - deyən Rusiya rəsmisinin indiki şəraitdə erməni hakim dairələrinin düzgün yolda olmadığını bildirdiyi birmənalıdır. Amma... “Əmması” haqqında danışdığımız erməni sevdası və Rusiyanın Ermənistanı öz orbitinə qaytarmaqla bağlı bitib-tükənməyən ümididir. Bu ümid özündə “səni sevəcəyəm, sən sevməsən də” deyimindəki dramatizm yükünü daşıyır. Belə bir şəraitdə Zaxarovanın sonrakı xatırlatmaları bir o qədər təsirli görünməsə də, onun dedikləri fakt baxımından əhəmiyyətlidir. Məsələn, XİN təmsilçisi bildirib ki, Ermənistanın 2015-ci ildə AİI-yə qoşulması, erməni iqtisadçılarının da qeyd etdiyi kimi, ölkənin iqtisadi rifahının əsasını təşkil edir: “Son 10 ildə Ermənistanın ÜDM-i təxminən 3 dəfə artaraq 10,5 milyard dollardan 29,2 milyard dollara yüksəlib”.

Rusiya rəsmisinin qaz məsələsi kontekstində hazırkı erməni iqtidarının ölkəni fəlakətə sürüklədiyini vurğulamaq məntiqindən söz açdıq. Nəhayət, M.Zaxarovanın fikirlərinin kuliminasiyasına keçid alaq. O, Ermənistan–KTMT münasibətləri xüsusunda da təxminən eyni məqamı qabardıb. Amma mövzuya bir qədər rəng qatmağı unutmayıb. Xanım Zaxarovanın dediklərindən belə qənaət hasil olub ki, erməni iqtidarı ilə erməni xalqı arasında fərq var. Əslində, o, yenilik etməyib, son illər Rusiyada Ermənistanla bağlı formalaşmış stereotipi yada salıb. Bu stereotipdə isə zəif təskinlik əlaməti duyulur. Obrazlı desək, Rusiya ermənilərin onu sevmədiyinə inanmaq istəmir. Zaxarova da inanmır və deyir ki, Ermənistanın və qurumn digər üzvlərinin təhlükəsizliklərinin etibarlı təminatı məhz KTMT ilə bağlıdır: “Hazırda Ermənistanın təşkilatdakı üzvlüyü dondurulub. Lakin bu seçimi mövcud erməni hakimiyyəti edib”.

Yəni xanım Zaxarova demək istəyir ki, Ermənistanın KTMT-dəki üzvlüyünün dondurulması erməni xalqının deyil, iqtidarının seçimidir. O zaman sual olunur: erməni iqtidarını seçən kimdir? Əlbəttə, təkcə Zaxarova deyil, ümumən rus rəsmilərinin və ictimai fikir təmsilçilərinin düşüncəsi budur ki, Paşinyan hakimiyyətinin erməni xalqı ilə heç bir əlaqəsi yoxdur. Halbuki, bunun belə olmadığı artıq bir neçə dəfə sübuta yetirilib. Həm də ona görə sübuta yetirilib ki, hay cəmiyyətində Şimala baxış, yumşaq desək, yaxşı deyil. Sadə ermənilər Rusiyaya sabiq prezidentlər Serj Sarkisyan və Robert Koçaryan kimi quldurları, xalqın qanını içən korrupsioner dəstə liderlərini himayə edən ölkə qismində yanaşırlar. Bu yanaşma, kifayət qədər oturuşmuş mövqeyə sahibdir və Moskvaya münasibətdəki antipatiyanın məğzini təşkil edir. Əlbəttə, birmənalı şəkildə demək olmaz ki, erməni cəmiyyəti Azərbaycanla barışın timsalında ümumən Cənubi Qafqaz regionunda sülhlə əlaqəli aydın təsəvvürlərə malikdir. Qısa zaman ərzində belə bir təsəvvürün formalaşması mümkünsüzdür. Amma bu, o demək deyil ki, Ermənistan yenidən Azərbaycanla müharibəyə başlamalıdır. Məsələ isə ondadır ki, ölkədə Rusiya tərəfindən dəstəklənən qüvvələrin istəkləri məhz savaş, qisas və yenidən Qarabağ avantürasını dirçəltməkdir.

Bəli, Ermənistandakı revanşist və şovinist qüvvələr ölkədə bu il iyunun 7-də keçiriləcək parlament seçkilərində qələbə qazanmağa və Paşinyan hakimiyyətini devirməyə iddialıdırlar. Mövcud fonda təkcə Zaxarovanın deyil, ümumən digər Rusiya rəsmilərinin Ermənistana yönəlik fikirlərinin, o cümlədən siyasi və iqtisadi zəminli şantaj cəhdlərinin kökündə dayanan heç də Paşinyan iqtidarı təmsilçilərinin düşüncələrində dəyişiklik yaratmaq yox, erməni xalqının bu iqtidarı seçməməsi üçün şərait formalaşdırmaqdır.

A.Simonyanla yanaşı, hay hakim komandasının başqa üzvləri təsvir etdiyimiz durumun fərqindədirlər. Ona görə də onlar həm ənənəvi erməni sevdası üzərində oyun qurur, müvafiq olaraq, qeyri-ciddi təsir bağışlayan bəyanatlar sıralayır, həm də prinsipial davranış nümayiş etdirərək, Rusiyanın təzyiqləri qarşısında geri çəkilməyəcəklərini göstərmək istəyirlər. Geri çəkilməyəcəklər, çünki çəkilmək üçün yer yoxdur. Axı tam aydındır ki, Rusiya Ermənistanı bağışlasa da, Paşinyan iqtidarını əsla bağışlamaz.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Koçaryanın “məğlub siyasət”i diriltmək xülyası

## O, xalqı yeni fəlakətə sürükləməkdən çəkinmir

**Ermənistanın ikinci prezidenti, adı qanlı etnik təmizləmənin, korrupsiya və talançılığın, kriminalın simvolu olan Robert Koçaryan ölkədə qarışıqlıq yaratmaq, xaricdəki havadarlarına güvənərək siyasi hakimiyyəti ələ keçirmək istiqamətində cəhdlərini davam etdirir. Bu odioz fiqur yaxınlaşan parlament seçkiləri ərəfəsində daha da fəallaşıb. Koçaryan hazırda “Hayastan” blokunun baş nazirliyə namizədidir. Blokda Erməni İnqilabi Federasiyası – “Daşnaksütyun” və Eçmiədzin şəhərinin meri vəzifəsinə namizəd Sevak Xaçatryanın rəhbərlik etdiyi sağ mərkəzçi “İrəli” partiyası cəmləşib.**

Hələlik seçki kampaniyasının təbliğat-təşviqat mərhələsi başlamadığı üçün Koçaryanın siyasi fəaliyyətinin mühüm istiqamətlərindən birini müsahibə və açıqlamalar vermək təşkil edir. O, nəzarəti altında olan “5TV Channel”də “Böyük siyasət” podkastının dördüncü buraxılışında aprelin 1-də Kremldə Ermənistan Baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin arasında keçirilmiş görüşdə səslənən fikirləri şərh etməyə çalışıb. Xatırladaq ki, Rusiya Prezidenti sözügedən görüş zamanı demişdir: “…Biz çox istərdik ki, bütün siyasi partiyalar, siyasətçilər seçkilər zamanı daxili siyasi proseslərdə iştirak edə bilsinlər. Bəzilərinin azadlıqdan məhrumetmə yerlərində olduğunu bilirəm, baxmayaraq ki, onların Rusiya pasportu var. Bu sizin qərarınızdır, biz qarışmırıq, amma istərdik ki, onlar heç olmasa daxili siyasi prosesdə iştirak edə bilsinlər”.

R.Koçaryan isə Rusiya Prezidentinin seçkiqabağı proseslərlə bağlı sözlərini Ermənistanın daxili işlərinə qarışmaq kimi qiymətləndirmir: “Səbəb–nəticə əlaqəsini xatırlamaq lazımdır. Rusiya Prezidenti bu mövzunu qaldırmazdı, əgər Ararat Mirzoyanın Brüssel səfəri, hibrid müharibədən danışması və Avropa İttifaqı missiyasının gəlişi olmasaydı. Mövzunun gündəmə gətirilməsini təhrik edən bu hakimiyyətdir. Rusiyanın, necə deyərlər, gözləri önündə Moldova nümunəsi var. Ermənistan da bu yolla gedir və bunu gizlətmir”.

Keçmiş prezident əlavə edib ki, Ermənistan hakimiyyəti Rusiya ilə münasibətlərin möhkəmləndirilməsini istəyən qüvvələri neytrallaşdırmağa çalışır, Rusiya Prezidenti isə Ermənistan xalqına seçim etmək imkanı verilməsinin vacibliyindən danışırdı. O xatırladıb ki, Aİ-dən yardım istəmə təşəbbüsü məhz Ermənistan tərəfindən irəli sürülüb və avropalıların prosesə cəlb olunması avtomatik olaraq Rusiyanın da cəlb olunması deməkdir. Onun sözlərinə görə, əgər Aİ geri çəkilsə, Rusiya özü də geri çəkiləcək: “Qoy erməni xalqı qərar versin. Əgər qərar versə ki, Rusiya Federasiyası ilə münasibətlər önəmli deyil, qoy başqa yol seçsin”. Bununla belə, o əlavə edib ki, Paşinyan təxribatları (?) dayandırmayacaq: “Bu, onun həyat tərzidir, onun biokimiyasıdır. O, erməni xalqını rahat buraxmayacaq”.

Yada salaq ki, Paşinyan V.Putinin yuxarıda iqtibas gətirdiyimiz fikirlərinə cavab olaraq demişdir: “Bizim daxili siyasi proseslərə gəlincə, bildiyiniz kimi, Ermənistan demokratik dövlətdir və bizdə demək olar ki, siyasi proseslər daim mövcuddur. Bu, artıq bizim üçün adi haldır. Faktiki olaraq ildə iki dəfə bizdə yerli seçkilər keçirilir və bu seçkilər də çox siyasiləşib, çünki həyata keçirdiyimiz siyasi islahatlar nəticəsində insanlar orada da siyasi partiyalara lehinə və ya əleyhinə səs verirlər. Demək istəyirəm, bizdə elə vətəndaşlar var ki, onlar Ermənistanda demokratiyanın həddən artıq çox olduğunu hesab edirlər. Amma bu, bizim üçün prinsipial məsələdir. Məsələn, bizdə sosial şəbəkələr 100 faiz azaddır, ümumiyyətlə, heç bir məhdudiyyət yoxdur və bir çox vətəndaşlar düşünür ki, bu da həddindən artıqdır. Bütövlükdə, açıq şəkildə deyim ki, bizdə azadlıqdan məhrumetmə yerlərində siyasi proseslərin iştirakçıları yoxdur. Mən diqqətinizi bir məqama yönəltmək istərdim: məsələn, bizdə tezliklə parlament seçkiləri keçiriləcək. Bunlar deputat seçkiləridir və de-fakto həm də baş nazir seçkiləridir. Və mən diqqətinizi ona yönəltmək istəyirəm ki, bu seçkilərdə yalnız və yalnız Ermənistan pasportu olan vətəndaşlar iştirak edə bilərlər. Yəni hər birinə hörmətlə, amma Rusiya pasportu olan şəxslər Ermənistan Konstitusiyasına görə nə deputatlığa, nə də baş nazirliyə namizəd ola bilərlər”.

*



N.Paşinyanın seçkiqabağı vəziyyətlə bağlı Putinlə görüş zamanı verdiyi ətraflı izahatı dinlədikdən, yaxud oxuduqdan sonra Koçaryanın podkast zamanı ortaya çıxardığı iddialar bir daha göstərir ki, keçmiş prezidentin mövqeləri indiki reallıqla tam ziddiyyət təşkil edir. Ermənistan Baş naziri açıq şəkildə ölkədə demokratik mühitin genişləndiyini, siyasi proseslərin davamlı xarakter aldığını, azadlıqdan məhrumetmə yerlərində siyasi səbəblərlə saxlanılan şəxslərin olmadığını vurğulayır. Yəni o, hazırkı vəziyyəti faktlarla izah edir. Seçkilərdə yalnız Ermənistan pasportu olan şəxslərin iştirak edə bilməsi də Konstitusiya qaydasıdır və heç bir gizli mənası yoxdur. Məhz belə bir aydın mənzərə fonunda Koçaryanın vəziyyəti dramatikləşdirməyə çalışması diqqət çəkir. O, dövlətin xarici tərəfdaşlarla təmaslarını risk kimi təqdim edir, müxtəlif istiqamətlərə eyhamlar vurur və ölkənin hansısa sxem üzrə hərəkət etdiyini iddia edir. Bu çıxışlar daha çox seçkiqabağı özünü gündəmdə saxlamaq, Rusiyaya yarınmaq və reytinq toplamaq təsiri bağışlayır.

Onun cəmiyyətdə müəyyən qrupların baxışlarına söykənərək verdiyi açıqlamalar hədəfini dəqiq göstərir və hakimiyyətlə kəskin ziddiyyətdə olan qüvvələrin yanında dayanmağa, onlara “stavka” etməyə çalışır. Halbuki Paşinyanın söylədiyi əsas məqam budur ki, siyasi sistem açıqdır, sosial şəbəkələr azaddır, seçki mexanizmi hamı üçün əlçatandır və hər bir vətəndaş öz iradəsini sərbəst ifadə edə bilir. Bunu şübhə altına alan hər hansı çıxış sadəcə siyasi ritorikadan ibarət olur.

Onun son müsahibədəki emosional davranışı da xüsusilə nəzərə çarpır. Bu davranış elə emosional təsir yaratmağa yönəlib. Koçaryan ölkədə hansısa qeyri-adi təzyiq mühiti olduğunu iddia edir, halbuki real mənzərə bunu təsdiqləmir. Siyasi yarışın əsas qaydaları məlumdur və yaxınlaşan seçkilər bu qaydaların tətbiqini bir daha göstərəcək.

Bütövlükdə, keçmiş prezidentin hər dəfə efirə çıxanda cəmiyyətdə çaşqınlıq yaratmağa yönəlmiş iddialar səsləndirməsi artıq təsadüfi təsir bağışlamır. Bu davranışın məqsədinin konstruktiv siyasət olmadığı aydın görünür. Koçaryan özünü yenidən siyasi meydanda qorumaq üçün real faktlara əsaslanmaq əvəzinə qarışıqlıq yaratmağa çalışır, seçicilərin narahatlıqlarını körükləmək yolu ilə gündəmdə qalmağa can atır. Məhz buna görə onun çıxışları polemika mədəniyyətinin deyil, daxili auditoriyaya hesablanmış populist ritorikanın nümunəsinə çevrilib.

Koçaryanın tez-tez səsləndirdiyi fərziyyələr və əsassız paralellər siyasi proseslərə kölgə salmaqdan başqa heç bir rol oynamır. Bu cür davranış demokratik mühitin inkişafı üçün deyil, əksinə, cəmiyyətin yenidən köhnə qorxu və qarşıdurma psixologiyasına qaytarılması üçün vasitəyə çevrilir. O, seçkilərə normal siyasi rəqabət kimi deyil, şəxsi revanşizm layihəsi kimi yanaşır. Bu isə onun siyasətdəki əsas motivasiyasının siyasi ambisiyaları olduğunu üzə çıxarır. Paşinyanın seçki prosesləri, siyasi azadlıqlar və demokratik mühit barədə açıqlaması fonunda Koçaryanın iddiaları daha da zəif görünür. Çünki bir tərəfdə faktlara söykənən izah var, digər tərəfdə isə sistematik şəkildə şübhə oyatmaq cəhdi. Bu, heç bir halda cəmiyyəti irəli aparmır. Əksinə, seçki kampaniyasının sağlam gedişinə mane ola biləcək yanlış təsəvvürlər yaradır. Nəticə etibarilə, Koçaryanın bu cür çıxışları nə siyasi mədəniyyətə, nə demokratik prosesə töhfə verir. Sadəcə, keçmişin kölgəsində qalmış bir siyasətçinin özünü gündəmə gətirmək cəhdidir. Ermənistanda seçkilərin taleyini artıq belə köhnəlmiş metodlar deyil, real faktlar və seçicinin rasionallığı müəyyən edir.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan "C6+1"ə keçid ərəfəsində



*(əvvəli 4-cü səhifədə)*

Bunun nüvəsində Azərbaycanın strateji coğrafi mövqeyi dayanır. Avropa ilə Asiyanı birləşdirən əsas nəqliyyat və enerji arteriyalarının kəsişməsində yerləşən ölkəmiz artıq, sadəcə, regional tranzit nöqtəsi deyil, qlobal logistika zəncirinin əvəzedilməz strateji halqasıdır. Azərbaycanın iştirakı mövcud formata sırf "Mərkəzi Asiya daxili" çərçivədən çıxaraq real trans-Xəzər əməkdaşlıq mexanizmi statusu qazandırır. Bu isə Avrasiya inteqrasiyasının təsadüfi deyil, getdikcə daha koordinasiyalı, sistemli və davamlı xarakter aldığının göstəricisidir.

Xüsusi vurğulanan məqamlardan biri də Donald Trump administrasiyasının məsələyə strateji yanaşmasıdır. Azərbaycanın bu platformaya inteqrasiyası Trampın ikinci prezidentlik dövründə irəli sürdüyü təşəbbüslərin vahid geosiyasi çərçivədə birləşdirilməsidir. Bu təşəbbüs Trampın ikinci prezidentlik dövründə irəli sürülən geosiyasi təşəbbüslərin vahid çərçivədə birləşdirilməsi kimi qiymətləndirilir. Məhz bu kontekstdə TRIPP layihəsi strateji əhəmiyyət kəsb edir. Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirəcək tranzit marşrutu regionda kommunikasiya blokadasının aradan qaldırılması və yeni iqtisadi arteriyaların açılması baxımından həlledici rol oynayır. Burada ABŞ bir iştirakçı deyil, həm də prosesin əsas "memarı" qismində çıxış edir. Çünki Azərbaycanın bu prosesə cəlb edilməsi Vaşinqtona Avrasiyanın yeni ticarət və enerji xəritəsini formalaşdırmaqda rəqabət üstünlüyü qazandırır ki, bu da Rusiya və Çinin regiondakı təsirini balanslaşdırmaq üçün mühüm geosiyasi alətdir.

Eyni zamanda, Orta Dəhlizin strateji çəkisi getdikcə artmaqdadır. Mərkəzi Asiyadan başlayaraq, Xəzər dənizi, Azərbaycan və Türkiyə vasitəsilə Aralıq dənizinə çıxışı təmin edən bu marşrut alternativ yolların axtarıldığı indiki dövrdə həyati əhəmiyyət daşıyır. Bu dəhliz yalnız region dövlətləri üçün deyil, həm də ABŞ-ın Asiyadakı əsas müttəfiqləri olan Yaponiya və Cənubi Koreya üçün təhlükəsiz logistik zəncir vəd edir. Xüsusilə Hörmüz boğazından asılılığı azaltmaq cəhdləri fonunda Qazaxıstan və Türkmənistan kimi alternativ enerji təchizatçılarının rolu da aktuallaşır. Diplomatik müstəvidə isə formatın institusionallaşması ilə bağlı müxtəlif təşəbbüslər irəli sürülməkdədir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Səmərqənddə xüsusi sammit keçirmək təklifi regiondaxili inteqrasiyanı gücləndirməyə xidmət edir. Qazaxıstanın BMT-dəki daimi nümayəndəsi Magjan İlyasovun Astanada ilk "C6+1" (Mərkəzi Asiya beşliyi və Azərbaycan + ABŞ/Aİ) görüşünün təşkili ideyası isə formatın beynəlxalq statusunu rəsmiləşdirmək niyyətini nümayiş etdirir. Bu addımlar Azərbaycanın sözügedən konfiqurasiyada artıq ayrılmaz və strateji tərəfdaş kimi qəbul edildiyini təsdiqləyir.

Buna baxmayaraq, yaxın perspektivdə ən real və effektiv ssenari kimi BMT Baş Assambleyası (Nyu-York) çərçivəsində keçiriləcək yüksək səviyyəli görüşlər ön plana çıxır. Nyu-York platforması həm logistik çeviklik, həm də ABŞ, Aİ və Körfəz ölkələri kimi qlobal güclərlə eyni vaxtda siyasi koordinasiya qurmaq baxımından ən əlverişli və neytral diplomatik mühit hesab olunur.

BMT çərçivəsində keçiriləcək görüşlər formatın sadəcə regional deyil, qlobal gündəlikdəki yerini də möhkəmləndirir. Bu, Azərbaycan və Mərkəzi Asiya ölkələrinə kollektiv maraqlarını dünya liderlərinin diqqətinə çatdırmaq üçün "diplomatik pəncərə" açır. Beləliklə, Səmərqənd və Astana təklifləri formatın daxili strukturunu formalaşdırırsa, Nyu-York görüşləri yeni birliyin beynəlxalq arenada legitimliyini və xarici siyasətdə manevr imkanlarını genişləndirir.

Eyni zamanda, Qazaxıstan, Özbəkistan və Azərbaycanın Qəzzanın bərpası təşəbbüsdə iştirakı onların ABŞ-la daha geniş təhlükəsizlik və siyasi əməkdaşlığa açıq olduqlarını göstərir. Bu faktor "C6+1" formatını yalnız iqtisadi və nəqliyyat platforması deyil, həm də siyasi-strateji koordinasiya mexanizminə çevirə bilər.

Bütün bunların fonunda çıxarılan əsas nəticə ondan ibarətdir ki, Azərbaycanın "C5+1" formatına inteqrasiyası regional əməkdaşlıq mexanizmlərinin həm kəmiyyət baxımından böyüməsini, həm də keyfiyyətcə tamamilə yeni bir mərhələyə keçidini təşkil edir. Bu transformasiya iştirakçı dövlətlərin sayının artması ilə məhdudlaşmır, əksinə, regionun geosiyasi və geoiqtisadi arxitekturasında həlledici funksional dəyişiklik yaradır.

Azərbaycanın bu platformada fəal iştirakı ilə əvvəllər dənizə çıxışı olmayan və daha çox daxili quru yolları ilə məhdudlaşan Mərkəzi Asiya regionu öz qapalılığından xilas olur. Bu ittifaq Xəzər dənizi üzərindən Cənubi Qafqaza, oradan isə Türkiyə və Avropa bazarlarına açılan vahid, çoxşaxəli və kəsintisiz bir strateji dəhlizə çevrilir. Bu mənada, Azərbaycan "orta qapı" rolunu oynayaraq Şərqlə Qərb arasında yeni bir qlobal logistik düyün nöqtəsi funksiyasını öz üzərinə götürür.



Mövzu ilə bağlı **politoloq Cəsarət Hüseynzadə** XQ-yə bildirdi ki, Azərbaycanın regionda artan nüfuzu, Mərkəzi Asiya ölkələri və ABŞ ilə qurduğu etibarlı, qarşılıqlı faydalı münasibətlər yeni əməkdaşlıq modelinin region üçün geniş iqtisadi-siyasi imkanlar açdığını göstərir: "Artıq Azərbaycan, sadəcə, bir keçid nöqtəsi deyil, həm də infrastruktur investisiyalarını yönləndirən və strateji qərarların koordinasiya olunduğu həlledici qovşaqdır.

"C6+1" modeli yalnız diplomatik platforma deyil, həm də qlobal təchizat zəncirlərinin yenidən qurulduğu dövrdə yeni geoiqtisadi düzənin və uzunmüddətli regional sabitliyin təməlidir. Bu model region ölkələrinə ənənəvi güc mərkəzləri qarşısında daha balanslı və müstəqil mövqe tutmaq imkanı yaradır. Gələcəkdə daha geniş regional bloklaşmaların əsasını qoya biləcək bu format nəqliyyat, enerji və rəqəmsal layihələrin vahid çərçivədə idarə olunmasına şərait yaradır. Eyni zamanda, proses ölkələr arasındakı iqtisadi asılılığı dərinləşdirərək "inteqrasiya vasitəsilə sabitlik" prinsipini real müstəviyə keçirir və potensial münaqişə risklərini azaldır. Azərbaycan strateji, diplomatik və iqtisadi faydalar əldə edir, beynəlxalq mövqeyinin gücləndirir".

Beləliklə, Azərbaycanın "C5+1" formatına inteqrasiyası və bu modelin "C6+1"-ə çevrilməsi regionun gələcək inkişaf trayektoriyasını müəyyən edən əsas faktor kimi çıxış edir. Ölkəmiz strateji, diplomatik və iqtisadi dividendlər əldə etməklə yanaşı, beynəlxalq mövqeyini daha da gücləndirir. Bu model isə həm cəlbediciliyi, həm də strateji əhəmiyyəti ilə regionun yeni simasını formalaşdırır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# "Nizami Gəncəvi və Əlişir Nəvai paralelləri"

## *Özbəkistanda beynəlxalq konfrans*



**Daşkənddə Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi, Nizami adına Özbəkistan Milli Pedaqoji Universiteti və "Özbəkistan–Azərbaycan" Dostluq Cəmiyyətinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi və Əlişir Nəvai paralelləri" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Universitetin rektoru Hilola Umarova Nizami Gəncəvi və Əlişir Nəvai irsi qardaş xalqların ümumi sərvəti olduğunu bildirib. Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev öz çıxışında tədbirin əhəmiyyətindən danışıb.

Sonra Azərbaycan Milli Məclisinin sədr müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyinin direktoru, akademik Rafael Hüseynov "Şərq ədəbiyyatında "Xəmsə" ənənəsi və Nizami-Nəvai səsləşmələri" mövzusunda məruzə ilə ilə çıxış edib. O, Nizami Gəncəvinin yaratdığı xəmsəçilik məktəbindən bəhs edərək Nəvainin türkcə dahi gəncəlinin beşliyinə ilk bütöv cavab yazan şair olmasından söz açıb, iki qüdrətli şairin yaradıcılığındakı kəsişmə nöqtələri üzərində dayanıb.

Akademik Nizami Cəfərov çıxışında qeyd edib ki, həm Nizami Gəncəvi, həm də Əlişir Nəvai, türk mədəniyyəti məkanında yalnız mövcud olmamış, eyni zamanda, bu məkanı formalaşdırmış böyük şəxsiyyətlərdir. Milli Məclisin deputatı, filologiya elmləri doktoru Elnarə Akimova hər iki mütəfəkkirin yaradıcılığında insan, ədalət və mənəvi dəyərlərin əsas yer tutduğunu qeyd edib. Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli qeyd edib ki, Nizami Gəncəvi və Əlişir Nəvai kimi dahilərin irsinin birgə şəkildə araşdırılması Türk dünyasında ortaq dəyərlərin daha da möhkəmlənməsinə xidmət edir.



Konfrans çərçivəsində Özbəkistan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun bölmə müdiri, filologiya elmləri namizədi Salimaxon Eşonova, Özbəkistan Milli Pedaqoji Universitetinin professoru, filologiya elmləri doktoru İbrahim Yoldaşev, həmin universitetin dosenti, filologiya üzrə fəlsəfə doktoru Mubara Omonova müvafiq mövzularında məruzələrlə çıxış ediblər.

***

Konfrans çərçivəsində akademik Rafael Hüseynov Nizami adına Özbəkistan Milli Pedaqoji Universitetinin professor-müəllim heyəti və tələbələri qarşısında "Orta əsrlər Azərbaycan ədəbiyyatı və mədəniyyəti Mərkəzi Asiyanın kulturolji kontekstində" mövzusunda mühazirə oxuyub.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

**Daşkənd**

# Demokratiyanın kəmiyyət meyarı ilə məhdudlaşdırılması

**Demokratiya anlayışının ən geniş yayılmış və eyni zamanda ən təhlükəli təhriflərindən biri onun elementar səs çoxluğu mexanizmi ilə eyniləşdirilməsidir. Bu yanaşmada demokratiya hüquqi və institusional çərçivəyə malik məsuliyyətli qərarvermə prosesi kimi deyil, sadəcə arifmetik üstünlük mexanizmi kimi başa düşülür. Nəticədə "demokratik qərar" anlayışı qərarın məzmunu, nəticələri və hüquqi məsuliyyəti nəzərə alınmadan yalnız çoxluğun iradəsinin ifadəsi kimi təqdim olunur.**



Əslində isə səsvermə demokratiyanın məqsədi deyil, onun vasitəsidir. Səs çoxluğu legitimliyin yeganə mənbəyinə çevrildikdə demokratiya normativ məzmununu itirir və siyasi məsuliyyət mexanizmi olmaqdan çıxaraq kəmiyyət üstünlüyünün legitimləşdirilməsi aləti kimi əhəmiyyət daşıyır. Bu halda çoxluğun qərarı avtomatik olaraq "haqlı", azlığın mövqeyi isə mahiyyətindən asılı olmayaraq "səhv" kimi təqdim olunur.

Bu risk klassik siyasi fəlsəfədə hələ erkən mərhələdə qeyd olunmuşdur. Aristotel demokratiyanı sadəcə çoxluğun hakimiyyəti kimi deyil, qanunun aliliyinə tabe olan kollektiv idarəetmə forması kimi dəyərləndirirdi. O, çoxluğun məhdudiyyətsiz hökmranlığını demokratiyanın pozulmuş forması hesab edir və onu oxlokratiya ilə eyniləşdirirdi. Aristotel üçün səs çoxluğu yalnız hüquqi çərçivə daxilində məna kəsb edir; bu çərçivə aradan qalxdıqda demokratiya özünü inkar etməyə başlayır.

Platon isə daha da irəli gedərək səs çoxluğuna əsaslanan idarəetmənin bilik və məsuliyyətdən qopduğunu, emosional manipulyasiyaya açıq olduğunu göstərib belə sistemlərin demoqoqlar üçün münbit zəmin yaratdığını vurğulamışdır. Onun tənqidi demokratiyanın normativ inkarı kimi deyil, səs çoxluğunun mütləqləşdirilməsinin doğurduğu təhlükələrin analizi kimi oxunmalıdır.

Bu təhlükəni daha aydın şəkildə ifadə edən anlayış Aleksis de Tokvilin "çoxluğun tiraniyası" konsepsiyasıdır. Tokvil göstərirdi ki, səs çoxluğu hüquqi və institusional məhdudiyyətlərdən azad edildikdə azlıqların hüquqlarını tapdalayan, fərqli mövqeləri legitimlikdən məhrum edən siyasi gücə çevrilə bilər. Bu halda demokratiya azadlığın qoruyucusu deyil, onun üçün təhlükə mənbəyinə çevrilir.

Çoxluğun qərarlarının həmişə rasional nəticə vermədiyini göstərən maraqlı nümunələrdən biri fransız alimi markiz de Kondorsenin adı ilə tanınan Kondorse paradoksudur. Bu paradoks göstərir ki, seçicilərin üstünlük sıralaması məntiqi baxımdan ziddiyyətli kollektiv nəticələr yarada bilər. Məsələn, seçicilərin əksəriyyəti A variantını B-yə, B-ni C-yə üstün tuta bilər, lakin səsvermə nəticəsində C variantı A üzərində qalib gələ bilər. Beləliklə, fərdi seçimlər rasional olsa belə, onların cəmi ziddiyyətli kollektiv nəticə yarada bilir.

Bu problem XX əsrdə amerikalı iqtisadçı Kennet Arrouv tərəfindən ictimai seçim nəzəriyyəsi çərçivəsində daha sistemli şəkildə əsaslandırılmışdır. O, göstərmişdir ki, diktaturasızlıq, fərdi üstünlüklərə hörmət və ardıcıllıq kimi elementar ədalət prinsiplərini eyni vaxtda təmin edən universal kollektiv qərar mexanizmi mövcud deyil. Arrouvun nəticəsinin əhəmiyyəti yalnız riyazi sübutdan ibarət deyil. Bu nəticə göstərir ki, kollektiv qərarvermə prosesi fərdi seçimlərin sadə şəkildə toplanması kimi başa düşülə bilməz. Ayrı-ayrı seçicilər öz üstünlüklərini rasional və ardıcıl şəkildə müəyyən edə bilərlər, lakin bu üstünlüklərin səsvermə proseduru vasitəsilə birləşdirilməsi hər zaman sabit və məntiqi kollektiv nəticə yaratmır. Başqa sözlə, fərdi rasional seçimlər avtomatik olaraq rasional kollektiv qərar demək deyil. Məhz buna görə müasir siyasi sistemlərdə demokratiya yalnız səsvermə aktı ilə məhdudlaşmır: parlament prosedurları, konstitusiya məhdudiyyətləri və azlıqların hüquqlarının qorunması kimi institutlar kollektiv qərarvermənin bu zəif tərəflərini balanslaşdırmaq üçün formalaşmışdır.

Demokratik siyasətin paradokslarından biri də ondadır ki, siyasi lider çox vaxt mövcud çoxluğun fikrini ifadə etməyə məcbur olur. Uğur qazanan siyasətçi seçici səslərini qazanmaq üçün adətən artıq qəbul edilmiş düşüncə çərçivəsindən kənara çıxmır və mövcud ictimai rəyin sərhədləri daxilində hərəkət edir. Halbuki yeni ideyalar və yeniliklər çox vaxt əvvəlcə az sayda insan tərəfindən irəli sürülür və yalnız zaman keçdikcə geniş ictimai dəstək qazanaraq çoxluğun mövqeyinə çevrilir. Bu baxımdan demokratiyanın yalnız mövcud çoxluğun rəyini ifadə edən mexanizm kimi başa düşülməsi ictimai inkişafın məntiqi ilə həmişə üst-üstə düşmür.

Afina demokratiyasında mövcud olmuş ostrakizm institutu da çoxluq qərarının mürəkkəb nəticələrini göstərən maraqlı mexanizmlərdən biri idi. Vətəndaşlar səsvermə yolu ilə müəyyən şəxsi – potensial təhlükə hesab etdikləri siyasi fiquru on il müddətinə şəhərdən uzaqlaşdıra bilirdilər. Bu institut ilkin olaraq tiraniya təhlükəsinin qarşısını almaq məqsədi ilə yaradılmışdı. Lakin praktikada o, bəzən siyasi rəqabətin alətinə də çevrilirdi. Afina tarixinin ən məşhur sərkərdələrindən biri olan Femistokl də məhz belə qərarın qurbanına çevrilmişdi. Halbuki o, Salamis döyüşündə fars donanmasının məğlub edilməsində həlledici rol oynamış və Afina dövlətinin güclənməsinə böyük töhfə vermişdi. Buna baxmayaraq, sonradan siyasi rəqiblərinin təsiri altında keçirilən səsvermə nəticəsində şəhərdən sürgün edilmişdi. Bu hadisə göstərir ki, çoxluğun qərarı siyasi müdriklik və ya strateji baxışla üst-üstə düşməyə bilər.

Demokratiyanın sadə səs çoxluğu mexanizminə endirilməsinin yaratdığı problemlər müasir siyasi təcrübədə də müşahidə olunur. 2016-cı ildə Böyük Britaniyada keçirilmiş Avropa İttifaqından çıxmaq barədə referendum bu baxımdan diqqətəlayiq nümunədir. Referendumun nəticəsində seçicilərin təxminən 52 faizi ölkənin Avropa İttifaqından çıxmasının lehinə səs verdi. Formal baxımdan qərar demokratik prosedur çərçivəsində qəbul edilmişdi. Lakin nəticə Britaniya cəmiyyətində dərin siyasi və sosial parçalanma yaratdı və uzun illər davam edən mürəkkəb siyasi böhrana səbəb oldu.

Bu problem siyasi nəzəriyyədə bəzən ironik bir metafora ilə də ifadə olunur: demokratiya insanların həyat yoldaşını səs çoxluğu ilə seçməsi kimi təsəvvür edilə bilər, azadlıq isə insanın onu özünün seçə bilməsidir. Bu müqayisə sadə və bəzən paradoksal görünsə də, mühüm bir həqiqəti göstərir: çoxluğun qərarı hər zaman fərdi azadlıq və ya normativ baxımdan düzgün nəticə ilə üst-üstə düşmür. Səs çoxluğu qərarın qəbul edilməsinin texniki üsulu ola bilər, lakin bu üsul qərarın ədalətli və ya rasional olmasının zəmanəti deyil.

Hətta məşhur liberal nəzəriyyəçi və azadlıq ideyasının ardıcıl müdafiəçilərindən biri olan Fridrix Hayek də bu təhlükəyə diqqət çəkirdi. O qeyd edirdi ki, demokratiya özü-özlüyündə qeyri-məhdud prinsip kimi qəbul edilə bilməz; əks halda, o, azadlığın qorunması əvəzinə onun üçün təhlükə yarada bilər. Hayekin fikrincə, "demokratiyada hüquq çoxluğun belə qərar verdiyi norma kimi başa düşülməyə başlanarsa, demokratiya asanlıqla demaqogiyaya çevrilə bilər".

Əgər siyasi legitimlik yalnız arifmetik çoxluğa əsaslansaydı, o zaman dünya miqyasında daha böyük əhaliyə malik dövlətlərin mövqeyi daha haqlı hesab edilməli olardı. Bu isə açıq şəkildə göstərir ki, çoxluq prinsipi öz-özlüyündə normativ həqiqətin ölçüsü ola bilməz. Hayekin sözləri ilə desək, "Bütün səylərin çoxluğun fikrinə yönəldilməli olduğu və ya cəmiyyətdə daha böyük razılaşmanın yalnız çoxluğun meyarlarına əməl etməklə əldə olunduğu barədə təsəvvür əslində sivilizasiyanın inkişaf prinsipinə ziddir. Əgər bu prinsip hamı tərəfindən qəbul edilsəydi, bu, böyük ehtimalla durğunluğa, hətta sivilizasiyanın tənəzzülünə gətirib çıxarardı. Yeni baxışlar haradasa meydana çıxmalı və yalnız zaman keçdikcə çoxluğun mövqeyinə çevrilməlidir. Cəmiyyətin təcrübəsində elə bir yenilik yoxdur ki, əvvəlcə az sayda insanların təcrübəsi kimi ortaya çıxmamış olsun".

Beləliklə, demokratiyanın səs çoxluğu ilə eyniləşdirilməsi onu sadə arifmetik mexanizmə endirir. Çoxluğun iradəsi legitimliyin texniki şərti ola bilər, lakin o, qərarın ədalətli, rasional və ya strateji baxımdan doğru olduğunu avtomatik şəkildə təmin etmir. Demokratiya yalnız "neçə nəfər səs verdi?" sualı ilə ölçüldükdə onun normativ və institusional məzmunu zəifləyir və o, qorumağa çalışdığı dəyərləri risk altına qoya bilər.

***Mehdi ABDULLAYEV,***
***hüquq elmləri doktoru,***
***Dövlət İdarəçilik Akademiyası dövlət idarəçiliyinin hüquqi təminatı kafedrasının müdiri***

# Dünya Bankının ölkəmizdə yüksək iqtisadi artım gözləntisi

**Dünya Bankı 2026-cı ildə Azərbaycanda ÜDM-in 2 faiz, 2027-ci ildə isə 1,8 faiz artacağını gözləyir. Bu barədə Dünya Bankının Avropa və Mərkəzi Asiya regionunun iqtisadi perspektivlərinə dair hesabatının aprel buraxılışında deyilir.**

Yanvar qiymətləndirmələri ilə müqayisədə proqnoz göstəriciləri müvafiq olaraq 0,2 və 0,1 faiz bəndi artırılıb. Bank xatırladıb ki, 2025-ci ildə Azərbaycan iqtisadiyyatı 1,4 faiz artıb. Dünya Bankının proqnozlarına görə, 2026 və 2027-ci illərdə Cənubi Qafqaz dövlətlərinin ÜDM-nin ümumi artımı hər il 3,4 faizə çatacaq. Hesabatda vurğulanır ki, Azərbaycanda fiskal siyasətin sərtləşdirilməsi nəticəsində investisiya xərclərinin normallaşması, eləcə də neft hasilatı həcmlərinin əhəmiyyətli dərəcədə azalması 2025-ci ildə iqtisadi artım tempinin 1,4 faizə enməsinə səbəb olub, bu isə 2024-cü ilin göstəricisindən təxminən üç dəfə azdır.



Bankın hesabatında qeyd olunur: “Ötən il real kreditləşmənin artımı Mərkəzi Asiya və Cənubi Qafqazda sürətli genişlənmə templərinin zəifləməsi fonunda bir qədər yavaşlayıb. Bir sıra ölkələrdə, o cümlədən Azərbaycan və Gürcüstanda makroprudensial tədbirlərin sərtləşdirilməsi daha sərt pul-kredit siyasəti (Qazaxıstan və Rumıniyada olduğu kimi) ilə yanaşı, istehlak kreditləşməsini də məhdudlaşdırıb”.

Ekspertlər qeyd edirlər ki, Azərbaycanda büdcə profisiti karbohidrogen sektorundan daxilolmaların azalması nəticəsində nəzərəçarpacaq dərəcədə azalıb: “Son 20 il ərzində regionun əksər dövlətlərinin iqtisadiyyatı daha az şaxələnib və təbii ehtiyatlardan daha çox asılı hala gəlib. Xüsusilə, Azərbaycanda mədən sektorunun ÜDM strukturundakı xüsusi çəkisi 2020-ci ilə qədər faktiki olaraq dəyişməyib və təxminən 30 faiz təşkil edib ki, bu da 2000-ci illərin əvvəlindəki səviyyəyə uyğundur”.

*

Bu göstəricilər Azərbaycan iqtisadiyyatının hələ də neftdən asılı olduğunu ortaya qoyur. Buna görə də hökumət qeyri-neft sektorunun inkişafı və iqtisadi şaxələnməni təmin etmək üçün bir sıra strateji addımlar atır. Ölkədə iqtisadiyyatın neftdən asılılığını azaltmaq məqsədilə son illərdə bir neçə paralel xətt üzrə tədbirlər həyata keçirilir.

Bu prosesin institusional koordinasiyası əsasən İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən aparılır. İlk istiqamət sənayeləşmə və istehsalın genişləndirilməsidir. Bu çərçivədə Sumqayıt Sənaye Parkı, Mingəçevir Sənaye Parkı və digər sənaye zonalarında qeyri-neft məhsullarının istehsalı artırılır. Bu parklarda kimya, metallurgiya, tekstil və tikinti materialları kimi sahələr inkişaf etdirilir və ixracyönümlü istehsal təşviq olunur.

Yeri gəlmişkən, 2025-ci ildə Sumqayıt Sənaye Parkında 2,2 milyard manatlıq məhsul satışı həyata keçirilib. İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, bunun 1,1 milyard manatı ixracın payına düşür. Sənaye parkının ərazisində neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir.

Parkda ümumi investisiyaların həcmi təqribən 6,6 milyard manatdan artıq olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,6 milyard manatdan çox investisiya yatırılıb. Cənubi Qafqazın ən böyük sənaye parkında 6097 daimi iş yeri yaradılıb.

İkinci istiqamət kənd təsərrüfatının və aqrar ixracın inkişafıdır. Dövlət subsidiyalar, güzəştli kreditlər və logistika dəstəyi vasitəsilə kənd təsərrüfatını genişləndirməyə çalışır. Məqsəd həm daxili ərzaq təhlükəsizliyini təmin etmək, həm də qeyri-neft ixracını artırmaqdır. Bu ilin yanvar-mart aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 11,7 faiz artaraq 862 milyon ABŞ dolları təşkil edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi xəbər verib ki, bu dövrdə yeyinti məhsulları üzrə ixrac 25,1 faiz artaraq 281 milyon ABŞ dollarına bərabər olub. Hesabat dövründə ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4,5 dəfə, pambıq iplik 2 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 68,4 faiz, pambıq lifi 43,5 faiz, meyvə-tərəvəz 22,1 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 20,4 faiz, çay 15,1 faiz, spirtli və spirtsiz içkilər isə 4,3 faiz artıb.

Əlavə olaraq, I rübdə aqrar məhsullar üzrə ixrac 26,6 faiz artaraq 215,6 milyon ABŞ dolları, aqrar-sənaye məhsulları üzrə ixrac 27,4 faiz artaraq 88 milyon ABŞ dolları təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 26,8 faiz artaraq 303,7 milyon ABŞ dollarına bərabər olub.

Üçüncü mühüm sahə nəqliyyat və logistika potensialının gücləndirilməsidir. Azərbaycan coğrafi mövqeyindən istifadə edərək tranzit ölkəyə çevrilməyə çalışır. Bu kontekstdə Orta Dəhliz layihəsi və regionlararası ticarət marşrutları xüsusi əhəmiyyət kəsb edir. Digər bir istiqamət “yaşıl enerji” və alternativ mənbələrin inkişafıdır.

Ölkə günəş və külək enerjisi layihələrinə investisiyaları artırır və uzunmüddətli perspektivdə enerji ixracının strukturunu dəyişdirməyi hədəfləyir. Bundan əlavə, dövlət büdcə siyasətində də dəyişikliklər edilir. Neft gəlirlərinin birbaşa xərclənməsi əvəzinə, onların bir hissəsi Azərbaycan Dövlət Neft Fondu vasitəsilə idarə olunur və daha dayanıqlı maliyyə modeli qurulmağa çalışılır.

*Musa BAĞIRLI*
*XQ*

**Azərbaycanın yeni “genişzolaqlı xəritələndirmə” sistemi telekommunikasiya şəbəkələrinin hərtərəfli rəqəmsallaşması məqsədilə yaradılacaq. Bu sistem telekommunikasiya xidmət təchizatçılarının şəbəkə xətləri barədə məlumatları vahid məkanda toplamaq üçün telekommunikasiya infrastruktur məlumat bazasını və coğrafi informasiya platformasını əhatə edəcək. Nəticədə şəbəkə avadanlıqları, fiber-optik xətlər, vertikal mövqelər və digər infrastrukturlar vahid çevrəyə yığılacaq, məlumatların analizi və idarə edilməsi asanlaşacaq.**

# Azərbaycanda gələcəyin telekommunikasiya sistemi qurulur




Layihə 2026-cı ilin sonunadək Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və İKT Agentliyi tərəfindən icra olunacaq. Bununla telekommunikasiya sektorunda məlumatların toplanmasında şəffaflığın gücləndirilməsi, mövcud resurslardan daha səmərəli istifadə və gələcək infrastruktur layihələrinin planlaşdırılmasının sadələşdirilməsi gözlənilir.

Məlumatların vahid bazada toplanması yeni platformanın əsas üstünlüyü hesab olunur. Bu, dövlət qurumlarının və özəl şirkətlərin telekommunikasiya infrastrukturu barədə aydın təsəvvür formalaşdırmasına şərait yaradacaq. Sistem vasitəsilə toplanan ətraflı məlumat investisiya boşluqlarını aşkarlamağa, yüksək texnologiyalı şəbəkə tələb olunan əraziləri müəyyən etməyə və potensial “ağıllı şəhər” və sənaye avtomatlaşdırılması layihələrini düzgün planlaşdırmağa imkan verəcək.

Qeyd edək ki, Avropada bu cür genişzolaqlı xəritələnmə layihələri 2020-ci ildən intensiv şəkildə həyata keçirilir. Məsələn, Avropa Komissiyası bütün ölkələr üzrə sabit və mobil internet keyfiyyətinin xəritələndirilməsini təşviq edir və nəticələr investisiya qərarlarının verilməsində əsas mənbə rolunu oynayır.

Yeri gəlmişkən, Azərbaycanla Qazaxıstan arasında Transxəzər Fiber-Optik Kabel Xəttinin istismara verilməsi 2026-cı ilin III rübündə planlaşdırılır. Bu barədə Qazaxıstan Baş nazirinin müavini - Süni intellekt və rəqəmsal inkişaf naziri Jaslan Madiev bildirib. Ümumiyyətlə, Transxəzər Fiber-Optik Kabel Xətti müxtəlif ölkələr, o cümlədən Azərbaycan, Gürcüstan, Türkiyə, Qazaxıstan və Türkmənistan ərazilərindən keçəcək rəqəmsal telekommunikasiya dəhlizi olan “Rəqəmsal İpək Yolu” layihəsinin önəmli hissəsidir.

Bu rəqəmsal infrastruktur məlumatların ötürülməsində yüksək zolaq genişliyi və minimal gecikməni təmin edən ən optimal və qısa marşrut olmaqla ölkələr arasında regional əməkdaşlığa və dayanıqlı inkişafa təkan verəcək.

### 5G tezlik zolaqları və lisenziya yenilənmələri

Azərbaycanda 5G texnologiyasına keçid üçün uyğun radiotezlik zolaqları müəyyənləşdirilib və həmin zolaqların digər xidmətlərdən boşaldılması planlaşdırılır. Buna görə də ilk növbədə mobil operatorlara 5G şəbəkəsi üçün tezlik resursları ayrılacaq. Bunun üçün konkret olaraq 5G üçün ən çox istifadə olunan zolaqlar nəzərdən keçiriləcək. Sonra həmin tezliklər cari televiziya və radio yayımından azad ediləcək və operativ şəkildə 5G şəbəkəsinə uyğunlaşan operatorlara veriləcək.

Əlavə olaraq, 5G tezlik zolaqlarının qonşu dövlətlərlə koordinasiyası diqqətdə saxlanılır. 5G xidmətləri üçün Lisenziya Müqaviləsinə müvafiq əlavələr hazırlanacaq və mövcud operatorlarla bağlanacaq lisenziyaların şərtləri 5G-nin tətbiqinə uyğunlaşdırılacaq. Beləliklə, Azərbaycanın 5G spektr idarəçiliyi beynəlxalq standartlarla (ITU, ECC və s.) uyğunlaşdırılacaq və tezlik bölgüsü beynəlxalq təcrübələrə uyğun tənzimlənəcək.

Bu işlər telefon operatorları üçün yeni iqtisadi fürsətlər açacaq. Hazırda dünyanın bir sıra ölkələrində, o cümlədən qonşu Türkiyədə 5G-nin geniş tətbiqi nəzərdə tutulmuşdur. Azərbaycanda da 5G şəbəkəsinin qurulması mobil rabitə sektorunu müasir texnologiyalara uyğunlaşdıracaq və sürətli interneti, sənaye internetini təşviq edəcək.

Ümumiyyətlə, 5G, “beşinci nəsil” simsiz texnologiyanın qısaldılmış adıdır və əvvəlki nəsillərdən daha yüksək sürət, daha az gecikmə və daha geniş cihaz bağlantısı təqdim edir. Bu texnologiya simsiz rabitədə inqilab yaratmaqla yanaşı, bir çox sahədə yeniliklərə qapı açır. Əgər 4G texnologiyası bizə mobil videoizləmə və bulud tətbiqlərindən istifadəetmə imkanı verirdisə, 5G bunun çox daha irəlisindədir. O, smart şəhərlərdən tutmuş, avtomatik idarə olunan nəqliyyat vasitələrinə qədər bir çox sektorda istifadəyə hazırdır. 5G texnologiyası əvvəlki şəbəkələrlə müqayisədə daha çox məlumat ötürmə qabiliyyətinə malikdir.

Qlobal miqyasda 5G şəbəkələri həm müştərilərə yüksək sürətli internet, həm də sənayedə sürətli, etibarlı avadanlıq əlaqəsi (URLLC) və milyardlarla IoT cihazının əlaqəsi (mMTC) üçün nəzərdə tutulmuşdur. Azərbaycanda 5G-yə keçid üzrə hazırlıqlar gedir: Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) 2026-cı ilin sonuna qədər telekommunikasiya infrastrukturunun geniş xəritələnməsini təmin edən məlumat bazası yaratmağı, 5G üçün tezlik zolaqlarını müəyyən edib azad etməyi və lisenziyalaşdırma qaydalarını yenidən tənzimləməyi planlaşdırır

5G infrastrukturu bahalı investisiyalar tələb edir və kənd rayonlarında xərc/xidmət balansını poza bilər. Şəbəkənin mürəkkəbliyi artdıqca, kibertəhlükəsizlik və gizlilik məsələləri genişlənə bilər. Yeni cihazlar və şəbəkə dilimləri hücum səthini genişləndirə bilər. Bu riskləri azaltmaq üçün sıfır etibarsızlıq modelləri, şifrələmə və təkmil autentifikasiya tədbirləri tətbiq olunmalıdır. Eyni zamanda, rəqabət və tənzimləmə mühitinin zəifliyi bazarda dominantlıq riskini artırır və istehlakçı haqlarını təhdid edir.

*N.ABDALOV*
*XQ*

# 3 ayda 32 milyard manat milli yatırım

**2026-cı il martın 1-nə Azərbaycan iqtisadiyyatına cəmi kredit qoyuluşunun (bank və qeyri-bank birlikdə) həcmi 32 milyard 2 milyon manat təşkil edib. Bu barədə Mərkəzi Bank məlumat yayıb.**

Bildirilib ki, banklar və qeyri-banklar tərəfindən ölkə iqtisadiyyatına kredit qoyuluşunun həcmi bir ay əvvələ nisbətən 138,8 milyon manat və ya 0,4 faiz, 2025-ci il martın 1-nə nisbətən isə 2,6 milyard manat və ya 8,8 faiz artıb. Hesabat dövründə kredit qoyuluşunun 7 milyard 887 milyon manatı dövlət banklarının payına düşüb ki, bu da aylıq müqayisədə 50 milyon manat və ya 0,6 faiz, illik müqayisədə isə 677,2 milyon manat və ya 9,4 faiz artım deməkdir.



Cari ilin ilk rübündə iqtisadiyyata kredit qoyuluşlarının 22 milyard 231 milyon manatı özəl bankların payına düşüb. Bu isə bir ay əvvələ olan göstərici ilə müqayisədə 88,8 milyon manat və ya 0,4 faiz, ötən illin martın 1-nə olan göstəriciyə nisbətən isə 1,8 milyard manat və ya 9,1 faiz çoxdur. Bundan əlavə, martın 1-nə ölkə iqtisadiyyatına kredit qoyuluşlarının qeyri-bank kredit təşkilatlarına düşən payı 1 milyard 884 milyon manat olub ki, bu da aylıq müqayisədə eyni səviyyədə qalsa da, ötən ilin eyni dövrü ilə müqayisədə isə 73,1 milyon manat və ya 4 faiz artıb.

Qeyd edək ki, hesabat dövründə dövlət bankları tərəfindən kredit qoyuluşu ümumi kredit qoyuluşunun 24,6 faizini, özəl banklar tərəfindən kredit qoyuluşu ümumi kredit qoyuluşunun 69,5 faizni, bank olmayan kredit təşkilatları tərəfindən qoyulan kredit qoyuluşu ümumi kredit qoyuluşunun 5,9 faizini təşkil edib.

*XQ*

# Aqrar sərgilərə hazırlıq



**Gələn ay Azərbaycanda kənd təsərrüfatı və qida sənayesi üzrə regionun ən böyük sərgiləri ilə keçiriləcək. Bununla da ölkədə beynəlxalq sərgilər mövsümünə start veriləcək.**

Sərgilərin təşkilatçıları olan “Caspian Event Organisers” şirkətindən verilən məlumata əsasən, mayın 5-8-də Bakı Ekspo Mərkəzində artıq milli brendə çevrilmiş “Caspian Agro Week” - 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu, “InterFood Azerbaijan” - 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi, eləcə də “Horeca Caspian” - 14-cü Xəzər Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar Sərgisi keçiriləcək.

Kənd Təsərrüfatı Nazirliyinin təşkilati dəstəyi ilə keçirilən sərgilərə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi, İqtisadiyyat Nazirliyinin tabeliyindəki Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi, Azərbaycan Sahibkarlar Konfederasiyası, Azərbaycan Qida və İçki Sənayeçiləri Assosiasiyası, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası da yaxından iştirak edəcəklər.

Builki sərgilərin bir sıra yeniliklərlə əlamətdar olacağı gözlənilir. Belə ki, “Caspian Agro” adı ilə tanınan sərgi 2026-cı ildən etibarən yeni brend – “Caspian Agro Week” adı ilə təşkil edilərək Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgi və Forumu kimi təqdim olunacaq. Təşkilatçılar hesab edirlər ki, yenilənmiş və genişlənmiş konsepsiya sərgiyə yeni təkan verəcək, həm iştirakçılar, həm də ziyarətçilər üçün daha geniş netvörkinq, sektorlararası əməkdaşlıq və effektiv biznes dialoqu üçün şərait yaradacaq. Hazırda sərgilərə hazırlıq prosesi fəal şəkildə davam edir. İndiyədək sərgilərdə iştirakını dünyanın 30-dan çox ölkəsindən 300-dən artıq şirkət təsdiq edib.

Sərgilər çərçivəsində Africa-Azerbaijan Cooperation (AFAZ), Almaniya, Belarus, Braziliya, Gürcüstan, İtaliya, Koreya, Niderland, İndoneziya və Şimali Kipr milli qruplar formatında öz kənd təsərrüfatı və qida sənayesi məhsullarını təqdim edəcəklər. Yeri gəlmişkən, AFAZ, Braziliya və Şimali Kipr bu sərgilərə ilk dəfə qatılır.

Bu il ilk dəfə olaraq “InterFood Azerbaijan” sərgisinin vahid məkanda – Bakı Ekspo Mərkəzinin 4-cü pavilyonunda cəmləşməsi də mühüm yenilik kimi diqqət çəkir. Beləliklə, qida sənayesini təmsil edən bütün yerli və xarici şirkətlər öz məhsullarını məhz bu pavilyonda ziyarətçilərə təqdim edəcəklər. Bu yanaşma ziyarətçilərin sərgi daxilində vaxtına qənaət etməsinə və qida sektoruna aid bütün yenilikləri vahid bir məkanda, daha rahat şəkildə izləməsinə imkan yaradır.

Xarici ölkə nümayəndələri və yerli şirkətlərlə yanaşı, bu il sərgidə Azərbaycanın bölgələri də fəal şəkildə təmsil olunacaq. Ziyarətçilər sərgilər çərçivəsində bölgələrin aqrar və qida sahəsindəki imkanları ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər.

*XQ*

# Elektrik şəbəkəsinə qoşulmada yenilik

**Ölkəmizin enerji sektorunda tənzimləmələrin təkmilləşdirilməsi və xidmətlərin daha effektiv təşkili məqsədilə bir sıra normativ-hüquqi dəyişikliklərin hazırlanması nəzərdə tutulur. Bu məqsədlə tikinti obyektlərinin yüksək gərginlikli elektrik şəbəkəsinə qoşulma haqqının müəyyən edilməsi ilə bağlı təkliflər hazırlanaraq aidiyyəti qurumlara təqdim olunacaq.**

Bu istiqamətdə işləri “Azərişıq” ASC, Energetika Nazirliyi yanında Enerji Məsələlərini Tənzimləmə Agentliyi və “Azərenerji” ASC həyata keçirəcək. Eyni zamanda, beynəlxalq təcrübə nəzərə alınmaqla elektrik doldurma məntəqələrində yanğın təhlükəsizliyi tələblərinin təkmilləşdirilməsi və bu sahədə normativ-hüquqi bazanın gücləndirilməsi istiqamətində də təkliflərin hazırlanması planlaşdırılır. Bu prosesdə Energetika Nazirliyi ilə yanaşı, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Fövqəladə Hallar Nazirliyi və



“Azərişıq” ASC iştirak edəcək.

Qeyri-məişət kateqoriyası üzrə elektrik şəbəkəsinə qoşulmaq istəyənlər üçün isə yalnız elektron müraciət mexanizminin tətbiqi ilə bağlı normativ-hüquqi bazanın gücləndirilməsi nəzərdə tutulur. Bu tədbiri Energetika Nazirliyi və “Azərişıq” ASC tərəfindən icra edilməsi planlaşdırılır. Sözügedən tədbirlərin müxtəlif mərhələlər üzrə cari ilin iyun, noyabr və dekabr aylarına qədər həyata keçirilməsi nəzərdə tutulur.

*XQ*

*Yazdıqlarımıza qayıdırıq*

# Ət bazarının qorxunc gizlinləri

## *Mənşəyi məlum olmayan məhsulların çeşidi də, həcmi də artır*



**Bu gün ölkə mediasında daha çox müzakirə mövzusuna çevrilən məsələlərdən biri bazarlarda mənşəyi məlum olmayan ət məhsullarının satılması halları ilə bağlıdır. Bu, xüsusilə paytaxt Bakının bəzi satış məntəqələrində at ətinin mal əti kimi təklif edilməsi barədə yayılan məlumatların həm istehlakçılar arasında narahatlıq yaratmasından, həm də qida təhlükəsizliyi sisteminin gerçək vəziyyəti ilə əlaqədar ciddi suallar doğurmasından irəli gəlir.**

Bu məsələnin təhlükəli tərəfi ondan ibarətdir ki, problem yalnız etik və istehlakçı hüquqları müstəvisində qalmır. Eyni zamanda, mənşəyi bilinməyən ətin satışa çıxarılması baytarlıq nəzarətinin zəifləməsi, xəstəlik ehtimalının artması, qanunsuz kəsimlərin genişlənməsi və dövlətin qida təhlükəsizliyi mexanizmlərinin səmərəliyini sınağa çəkir.

Ət məhsulları qida bazarında ən yüksək riskli məhsul qruplarından biridir. Çünki düzgün nəzarətin olmaması insan sağlamlığı üçün təhlükəli olan zoonoz xəstəliklərin (heyvandan insana keçən xəstəliklərin) yayılmasını, toksiki zəhərlənmələr və sanitariya normalarının pozulmasını şərtləndirir. Bu məsələdə bir sıra hallarda təsadüf edilən at ətinin satılması ilə bağlı narahatlıqlar da diqqət çəkir. Mütəxəssislər tərəfindən belə bir ticarət “aldadıcı satış və sənədsiz dövriyyə problemi” kimi də qiymətləndirilir.

Mövzu müzakirə edilərkən at ətinin satılması ciddi narahatlıq doğurur və məsələ “at əti yemək olar, ya olmaz?” mübahisəsinə çevrilir. Ekspertlər tərəfindən isə problemin kökünün təhlilinə üstünlük verilir, bu zaman at əti mənşəyinin bilinməməsi, kəsimin nəzarətsiz reallaşdırılması, baytarlıq-sanitariya müayinəsindən keçirilməməsi və məhsulun istehlakçıya yanlış təqdim olunmasına daha çox diqqət yetirilir.

**Qida eksperti Həsən Rüstəmovun** sözlərinə görə, at əti ayrı-ayrı ölkələrdə gündəlik qida məhsulu hesab edilir. Lakin Azərbaycan cəmiyyətində bunun qida mədəniyyətinə uyğun gəlmədiyi bildirilir. Buna baxmayaraq, qanunvericilik baxımından at ətinin satışı da qadağan olunmur. Qadağan edilən əsas məsələ məhsulun başqa ət növü adı ilə satılmasıdır ki, bu da artıq istehlakçının aldadılması və qanunsuz kommersiya dövriyyəsi deməkdir. Belə hallarda qanun yalnız “etik qaydanı” yox, ictimai təhlükəsizliyi qoruyur. Çünki sənədsiz dövriyyədə olan ətin hansı şəraitdə saxlanıldığı, hansı xəstəliyi daşıdığı və insan sağlamlığı üçün hansı risk səviyyəsində olduğu bilinmir.

### Kimdir cavabdeh?

Azərbaycan qanunvericiliyi, əslində, ət dövriyyəsini kifayət qədər sərt şəkildə tənzimləyir. Bu sahədə iki əsas hüquqi baza xüsusi rol oynayır. “Baytarlıq təbabəti haqqında” Qanuna əsasən, ətin istehlaka yararlılığı yalnız baytarlıq və sanitariya yoxlamalarının nəticələri əsasında müəyyən edilir. Başqa sözlə, baytarlıq yoxlanılmasından keçməyən məhsulların satışa çıxarılması qadağan olunur. Bu o deməkdir ki, kəsim prosesi nəzarət altında aparılmalı, heyvanın sağlamlığı qiymətləndirilməli, cəmdək və məhsullar baytarlıq ekspertizasından keçirilməlidir. Yalnız bundan sonra satışa icazə verilməlidir.

“Qida təhlükəsizliyi haqqında” Qanun isə daha geniş çərçivədə istehsaldan satışa qədər bütün mərhələlərdə təhlükəsizlik nəzarətini tələb edir. Belə ki, istənilən heyvan məhsulu (at əti daxil olmaqla) yalnız təhlükəsizlik təsdiq edildikdən sonra dövriyyəyə buraxılır. Eyni zamanda, bu qanun dövlətə bir sıra öhdəliklər də verir. Həmin öhdəliklər sırasında istehsal zəncirinin izlənilməsi, sənədləşmə sisteminin qurulması və məhsulun mənşəyinin müəyyənləşdirilməsi kimi məsələlər xüsusi yer tutur.

### Baytarlıq nəyə möhür vurur?

Baş nazir Əli Əsədovun ötən ilin sentyabrında imzaladığı qərarla ətin, cəmdəklərin, eləcə də digər heyvan məhsullarının baytarlıq damğası və ştamp ilə nişanlanması məcburi xarakter alıb. Ekspertlər tərəfindən bu addım mühüm islahat kimi qiymətləndirilərək damğalanma sisteminin məhsulun ekspertizadan keçməsinə, bazarda nəzarət mexanizminin asanlaşmasına və sənədsiz dövriyyənin müəyyənləşməsinə imkan verdiyi vurğulanıb. Lakin burada əsas məsələ yenə də icra ilə bağlıdır. Çünki damğanın məcburi olması qanunsuz satışı dərhal aradan qaldırmır. Belə ki, əgər nəzarət zəifdirsə, damğasız məhsul yenə bazara daxil olur və satılırsa, deməli problem “yerində sayır”.

Onu da qeyd edək ki, ölkə bazarlarında mənşəyi bilinməyən ət dövriyyəsinin artması təsadüfi deyil. Bu problem bir neçə amilin üst-üstə düşməsi nəticəsində genişlənir. Məsələn, bəzi hallarda heyvanlar rəsmi kəsim məntəqələrində deyil, kəndlərdə və ya qeyri-qanuni yerlərdə kəsilir. Belə kəsimlərdə baytarlıq yoxlaması keçirilmir, sanitariya şəraiti tələblərə cavab vermir və xəstə heyvanların satışa çıxarılma ehtimalı artır. Bu isə “kölgə ət bazarı”nın formalaşmasına gətirib çıxarır.

Mövzunun iqtisadi maraq və ucuz gəlir mexanizmi tərəfinə gəldikdə isə, deyə bilərik ki, məsələn, at ətinin mal əti adı ilə təqdim olunması çox zaman daha ucuz məhsulun daha bahalı qiymətə satılması kimi bir məqsədə xidmət edir. Bu isə sadə dələduzluq kimi görünsə də, əslində, bazarda qiymət manipulyasiyası yaradır. Belə hallarda dürüst satıcılar rəqabətdə uduzur, bazar mexanizmi pozulur, istehlakçı etibarı azalır.

### Bəs istehlakçı hüquqları?

**Qida eksperti Şamil Cəbrayılov** bildirir ki, at ətinin mal əti adı ilə satılması inzibati məsuliyyət olmaqla yanaşı, həm də müəyyən hallarda cinayət məsuliyyəti yaradan hərəkət hesab edilir. Çünki bu, əslində, istehlakçının aldadılması və saxtakarlıqdır, eyni zamanda, bir çox hallarda ictimai təhlükəli nəticələr doğura bilir. Əgər belə məhsul zəhərlənməyə və ya insan sağlamlığına ciddi zərər vurmağa gətirib çıxararsa, məsuliyyət daha da ağır olur.

Bu baxımdan məsələ təkcə baytarlıq xidmətlərinin işi ilə kifayətlənmir. Yaranan vəziyyət hüquq-mühafizə orqanları, istehlak bazarına nəzarət strukturları və məhkəmə-hüquq sisteminin də rolunu artırır. Sistemli həll yolu nədən ibarət olmalıdır sualına gəldikdə isə cavab mütəxəssislərin tez-tez səsləndirdikləri “sistemli yanaşma” çağırışına əsaslanır. Digər tərəfdən, bu məsələdə narahatlıq doğuran çətinliyin epizodik reydlərlə aradan qaldırılmasının mümkün olmamasıdır. Çünki reydlər qısamüddətli səmərə verir, “kölgə bazarı” isə bundan az sonra yenidən formalaşır.

Sistemli yanaşmanın əsas elementləri sırasında kəsim məntəqələrinin tam nəzarətə götürülməsi xüsusi yer tutur. Çünki ət dövriyyəsi kəsim mərhələsindən başlayır. Əgər kəsim nəzarətsizdirsə, bazarda bununla bağlı özbaşınalıq hökm sürür.

### Ət bazarlarına nəzarət varmı?

Azərbaycanın ənənəvi bazar sistemi geniş pərakəndə şəbəkəyə malikdir. Bazarlarda çox sayda kiçik satıcı fəaliyyət göstərir və onların hər birinin gündəlik yoxlanılması çətindir. Nəticədə yoxlamalar selektiv (seçmə) xarakter alır, bəzi satıcılar nəzarətdən yayınır, riskli məhsullar dövriyyəyə daxil olur. Etiketləmə və izləmə sisteminin tam formalaşmaması da vəziyyəti çətinləşdirir. Belə ki, inkişaf etmiş ölkələrdə ət məhsullarının hər partiyası izlənilə bilir. Bu, məhsulun hansı fermadan çıxması, harada kəsilməsi, hansı nəqliyyatla daşınması, hansı soyuducudan keçməsi anlamına gəlir. Azərbaycanda isə bu sistem hələ tam oturuşmadığı üçün bazarda mənşəyi bilinməyən məhsulların aşkarlanması çətinləşir.



Mütəxəssislərin sözlərinə görə, mənşəyi məlum olmayan ət məhsullarının satışında əsas təhlükə insan sağlamlığı üçün yaranan narahatlıqdır. Bu, bir neçə istiqamətdə, daha çox isə yoluxucu xəstəliklərin yayılması ehtimalı, parazitlərin insana keçməsi, düzgün saxlanılmayan ətin qida zəhərlənməsinə səbəb olması, qeyri-qanuni kəsim zamanı gigiyenik qaydaların pozulması, eləcə də antibiotik və hormonal maddələrin normadan artıq olması kimi hallarda özünü göstərir. Düzdür, belə vəziyyət bəzən vətəndaş üçün “ət təzə görünür” düşüncəsi ilə fərq etməyə bilər. Lakin təhlükə irəlicədən müşahidə edilmir, mikrobioloji səviyyədə olur. Bununla da həmin məhsul ən təhlükə ehtimalı olan qida kateqoriyalarından birinə çevrilir.

Buna görə də qeyri-qanuni kəsimlərə qarşı cərimələr sərtləşdirilməli, rəsmi kəsim məntəqələrinin sayı artırılmalı, kəndlərdə mobil baytarlıq nəzarəti genişləndirilməlidir.

Şamil Cəbrayılov qeyd edir ki, bu məsələdə məhsulun izlənilməsi üçün elektron sistemin yaradılmasına da ciddi ehtiyac duyulur. Çünki ət bazarında “fermadan süfrəyə qədər” izləmə mexanizminin qurulması “sistemli yanaşma” çağırışında mühüm yer alır. Başqa sözlə, bu zaman elektron qeydiyyat sistemi vasitəsilə heyvanın qeydiyyatı, peyvəndlənmə tarixi, kəsim yeri və laborator analiz nəticələri vahid platformada görünməsi reallaşır.

Bazarlarda müasir cihazlarla təmin olunan laboratoriyaların genişləndirilməsinə də zəruri ehtiyac var. Çünki vizual yoxlama bəzən kifayət etmir. Satıcıların məsuliyyəti də sərtləşdirilməlidir. Ona görə ki, satıcı qanunsuz ət satdığı halda yalnız “kiçik cərimə” ödəyir, bu isə riskli ticarətin davam etməsi deməkdir. Amma onun təkrar pozuntuya görə ticarət hüququndan məhrumetmə, obyektin bağlanması, məhsulun müsadirəsi kimi tədbirlərlə cəzalandırılması kəsim məntəqələrində fəaliyyətin səmərəliliyini artırır.

“Sistemli yanaşma” çağırışında istehlakçı maarifləndirilməsi məsələsi də mühüm əhəmiyyət daşıyır. Belə bir halda vətəndaş damğasız ət almaqdan çəkinir, eyni zamanda, sənəd tələb etmək hüququnu bilir və şübhəli məqamları aidiyyəti qurumlara vaxtında çatdırır.

### Xarici ölkə bazarlarında durum

Bəzən cəmiyyətdə belə fikir formalaşır ki, mənşəyi məlum olmayan ət məhsullarının satılması halları yalnız bizdə olur. Əslində isə bu problem dünyanın bir çox ölkəsində yaşanır. Sadəcə fərq ondadır ki, inkişaf etmiş ölkələrdə bu hallar daha tez aşkarlanır və təqsirkar daha sərt şəkildə cəzalandırılır. Məsələn, Avropa İttifaqında (Aİ) ət məhsulları üçün ən sərt qida təhlükəsizliyi standartları tətbiq olunur. Burada əsas prinsip “izlənilmədir”, yəni məhsulun haradan gətirildiyi, hansı fermada yetişdirildiyi və hansı müəssisədə emal edildiyinin sistemdə görünməsidir. Bununla belə, Aİ ölkələrində də saxtakarlıq halları müşahidə olunur. Məsələn, mal əti adı altında at ətinin satılması, donuz ətinin başqa adla təqdim edilməsi və ucuz ətin bahalı məhsul kimi qablaşdırılması kimi vəziyyətlə rastlaşılır. Bu cür hallar üzə çıxanda dövlət strukturları tərəfindən genişmiqyaslı araşdırma aparılır, məhsullar geri qaytarılır və şirkətlər milyonlarla avro həcmində cərimələnir. Bir çox hallarda isə məsul şəxslər cinayət məsuliyyətinə cəlb edilir.

Onu da xatırladaq ki, ABŞ-da məhsulun mənşəyini gizlətmək və ya yanlış təqdim etmək qida saxtakarlığı kimi qiymətləndirilir və ağır hüquqi nəticələrə səbəb olur. Bu ölkədə nəzarət mexanizmi əsasən sertifikatlaşdırma, laborator analizlər, müəssisələrin daimi yoxlanılması və istehlakçı şikayət mexanizmləri əsasında qurulur. Mənşəyi məlum olmayan məhsul aşkar edildikdə, həmin partiya dərhal bazardan çıxarılır və şirkət məhkəməyə cəlb olunur. Yaponiyada isə qida təhlükəsizliyi dövlət üçün milli etibar məsələsi sayılır. Burada qida məhsulunun mənşəyini gizlətmək iqtisadi cinayət olmaqla bərabər, istehlakçıya qarşı ağır etibarsızlıq aktı kimi qiymətləndirilir.

Bir sözlə, inkişaf etmiş ölkələrdə mənşəyi məlum olmayan ət satışı hallarının aşkarlanma mexanizmi daha güclüdür, başqa sözlə, cəzalar daha sərtdir, saxta məhsullar bazardan dərhal yığışdırılır, reputasiya və hüquqi risk çox yüksək olduğu üçün bu hallar sistemli şəkildə azaldılır. Azərbaycanda isə yuxarıda vurğulandığı kimi, qanun var, amma “qoruyucu mexanizm” zəifdir. Bu fikri bir qədər də konkretləşdirib qeyd edək ki, respublikamızda qanunvericilik kifayət qədər mövcuddur. Problem isə daha çox icra mexanizminin davamlılığında və bazarda nəzarətin zəif olmasındadır.

Əgər bazarda sertifikatsız məhsul satılırsa, damğasız cəmdək açıq şəkildə nümayiş etdirilirsə, istehlakçı “bu ət haradandır?” sualına cavab ala bilmirsə, deməli, nəzarət mexanizmi real təsir gücünə malik deyil. Burada əsas məsələ təkcə cərimələr deyil, qida təhlükəsizliyi sistemində narahatlıqların öncədən qarşısını alan mexanizmlərin qurulmamasıdır.

Beləliklə, əgər ölkəmiz qida təhlükəsizliyi sahəsində daha etibarlı və müasir sistem qurmaq istəyirsə, epizodik yoxlamalara son deyilməli, uzunmüddətli və texnoloji əsaslı dövlət nəzarəti modeli yaradılmalıdır. Çünki qida təhlükəsizliyi təkcə bazara getmək deyil, bu həm də ölkənin sağlamlıq, iqtisadiyyat və sosial sabitlik təhlükəsizliyidir.

***Vaqif BAYRAMOV***
***XQ***

---

*Ekspert rəyi*



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

Bu gün çox az miqdarda ət məhsulunda tələb olunan məlumatlar yer alır. Əksər hallarda isə istehlakçı nə ətin haradan gəldiyini, nə də hansı təsərrüfata məxsus olduğunu bilmir. Bu vəziyyət istehlakçı hüquqlarının ciddi şəkildə pozulmasına səbəb olur.

Qida Təhlükəsizliyi Agentliyindən isə bildirilir ki, heyvanların identifikasiyası sistemi tam şəkildə tətbiq olunmayana qədər ətin mənşəyinin izlənməsi mümkün deyil. Bu layihə gerçəkləşdirildikdən sonra heyvanın hansı fermer təsərrüfatında doğulduğu, harada saxlanıldığı və kəsildikdən sonra ətin hansı istiqamətdə paylanıldığı müəyyən ediləcək. Hazırda isə belə bir izlənmə mexanizmi mövcud olmadığından məhsulların üzərində mənşə məlumatları qeyd edilmir.

Təkcə ət məhsulları deyil, bazarda satılan bütün ərzaq malları etiketlənmiş şəkildə təqdim olunmalıdır. Mövcud vəziyyət isə istehlakçıların keyfiyyətli və təhlükəsiz məhsul seçimi imkanlarını məhdudlaşdırır.

Qanunsuz heyvan kəsimi ilə mübarizənin səmərəliliyini artırmaq üçün bir daha qeyd edirəm ki, bu, yalnız inzibati yollarla, yəni yerli polis orqanları, icra hakimiyyətləri və Qida Təhlükəsizliyi Agentliyi vasitəsilə mümkün deyil. Kəsim yerlərini, necə deyərlər, ifşa etməklə iş bitmir. Əsas məsələ istehlakçıları maarifləndirmək və elə bir ictimai mühit yaratmaqdır ki, insanlar bu cür hallardan çəkinsin, istehlakçılar isə küçə kəsimindən imtina etsinlər. Bu istiqamətdə maarifləndirmə işi geniş şəkildə aparılmalıdır.

Təəssüf ki, ictimaiyyətin bu sahədə dövlət orqanlarına dəstəyi də zəifdir. Çünki xəstəlikdən ölmüş və ya murdar olmuş heyvanlar, o cümlədən at və eşşək ətləri bəzən bələdiyyələrin, sahə müvəkkillərinin və ziyalıların tanıdığı məhəllələrdə, qonşuluqlarda satılır. Lakin onlar çox zaman dövlət orqanlarının səmərəli fəaliyyət göstərmədiyini görərək susmağa üstünlük verirlər.

*Ailə xalqın gələcəyidir*

# Erkən evliliklərə “qırmızı işıq”!

## *Qanunda dəyişikliklər ictimai maarifləndirmə ilə tamamlanmalıdır*



**Son dövrlərin ən ağrılı və aktual problemlərindən biri də erkən nikahların yaratdığı fəsadlarıdır. Təəssüf ki, baş verən talesizliklərə laqeyd yanaşan və illərdir ki, bu “ənənə”ni yaşadan ailələrə hələ də rast gəlinir. Beynəlxalq konvensiyalara və milli qanunvericiliyə əsasən, 18 yaşdan aşağı şəxs azyaşlı hesab edilir və onların nikaha daxil olması uşaq hüquqlarının kobud şəkildə pozulması deməkdir. Lakin bir çox hallarda bəzi valideynlər mövcud qanunvericiliyin tələblərindən yayınaraq gizli dini kəbin mərasimləri vasitəsilə övladlarını nikaha cəlb edirlər.**

Bu, həm də gənc nəslin təhsilinə, fiziki və psixoloji sağlamlığına qarşı yönəlmiş təhdiddir. Yetkinlik yaşına çatmayan şəxslərin üzərinə vaxtından əvvəl fiziki və mənəvi öhdəliklərin, ağır məsuliyyətlərin qoyulması bir fərdin bədbəxtliyi olmaqla yanaşı, həm də dövlətin gələcəyinə vurulan ağır zərbədir. Təhsil və inkişaf imkanlarından məhrum edilən hər bir gənc qızın yarımçıq qalan arzuları, əslində, sağlam bir nəslin və işıqlı gələcəyin itirilməsi deməkdir.

Erkən evliliklər bu gün dünyada geniş yayılmış və aradan qaldırılması çətinləşən universal problemə çevrilib. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatlarına əsasən, bir neçə il əvvəl dünyada hər gün 25 min, ildə isə 10 milyondan çox erkən evlilik faktı qeydə alınırdısa, aparılan son qiymətləndirmələr göstərir ki, hər gün 39 mindən çox, ildə 14,2 milyon nəfər 18 yaşına çatmamış qız nikaha daxil olur.

Belə evliliklərə daha çox Afrika, Cənubi Asiya ölkələrində rast gəlinsə də, bu cür hallar inkişaf etmiş Avropa və Amerika ölkələrində də gizli və ya açıq şəkildə mövcuddur. BMT Uşaq Fondunun (UNICEF) hesabatlarında qeyd olunur ki, dünyada erkən nikahların sayına görə birinci yeri 76 faizlə Niger Respublikası tutur. Sonrakı sıralarda isə 60 faizdən yuxarı göstəricilərlə Mərkəzi Afrika Respublikası və Çad qərarlaşıb. Asiya qitəsində isə Banqladeş 51 faizlə erkən nikahların geniş yayıldığı ölkə hesab olunur.

Qonşu ölkələrdə də vəziyyət ürəkaçan deyil. Son illər qanunvericilik sərtləşsə də, Türkiyədə hər il təxminən 11 mindən çox qız uşağı erkən yaşda nikaha məcbur edilir. Rusiyada isə rəsmi nikah yaşı 18 olsa da, bəzi regionlarda (xüsusən Şimali Qafqazda) bu göstərici ümumi statistikaya mənfi təsir göstərməkdədir. Ölkə üzrə hər il 4 min 500-dən çox yetkinlik yaşına çatmayan şəxs rəsmi nikaha daxil olur.

İran və Əfqanıstanda isə vəziyyət daha kəskindir. İqtisadi və siyasi böhranlar səbəbindən belə nikahların sayı artmağa başlayıb. İranda hər il qızların 17, Əfqanıstanda isə 28 faizdən çoxu 18 yaşına çatmadan evləndirilir. Bəs ölkəmizdə vəziyyət necədir və bu problemin qarşısını almaq üçün hansı tədbirlər görülür?

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ailə məsələləri şöbəsinin müdir müavini Kamila Əliyeva bildirdi ki, əvvəlki illərlə müqayisədə ölkəmizdə erkən nikahların statistikasında azalma müşahidə edilir:**



–Statistik göstəricilər əvvəlki illərlə müqayisədə həm erkən evliliklərin, həm də 18 yaşadək analar tərəfindən dünyaya gətirilən uşaqların sayında nəzərəçarpacaq azalma olduğunu təsdiqləyir. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, ölkə üzrə 2022-ci ildə 2011, 2023-cü ildə 1742, 2024-cü ildə isə daha da azalaraq 1279 erkən nikah qeydə alınıb.

Müsbət dinamikaya baxmayaraq, təəssüf ki, cəmiyyətdə hələ də belə hallara rast gəlinir. Demokratik prinsiplərə söykənən ölkəmizdə uşaqların erkən nikahlara məcbur edilməsi gender əsaslı zorakılığın ən ağır formalarından biri hesab olunur. Dövlətin bu istiqamətdəki qətiyyətli addımlarına rəğmən, bəzi ailələrdə kök salmış ənənəvi stereotiplər və patriarxal düşüncə tərzi erkən nikahlara zəmin yaradır. Mövcud vəziyyət göstərir ki, talesizliklərin qarşısını almaq üçün yalnız inzibati müdaxilələr yetərli deyil, cəmiyyətin hər bir üzvü bu mübarizədə ortaq güc nümayiş etdirməlidir.

Erkən evliliklərdə məsuliyyət, ilk növbədə, valideynlərin üzərinə düşsə də, bununla mübarizə kompleks xarakter daşımalıdır. Bu halların qarşısının alınması üçün xüsusilə müəllimlər təhsildən yayınan hər bir şagirdlə bağlı dərhal ərazi üzrə aidiyyəti qurumları məlumatlandırmalıdırlar. Bir sözlə, sağlam gələcək naminə ictimai fəalların və hər bir vətəndaşın prosesdə yaxından iştirakı mütləqdir.

**Müsahibimiz qeyd etdi ki, erkən nikahların qarşısını almaq, azyaşlıların hüquqi müdafiəsini təmin etmək məqsədilə qanunvericilik bazası təkmilləşdirilib, daha sərt qaydalar və inzibati mexanizmlər tətbiq olunur:**

–Erkən evliliklərin qarşısının alınması istiqamətində dövlət tərəfindən mütəmadi olaraq tədbirlər görülür, qanunvericilikdə dəyişikliklər edilir. Ailə Məcəlləsində qızların nikah yaşı oğlanlarla bərabərləşdirilərək 18 yaşa dəyişdirilmişdir. Cinayət Məcəlləsində nikah yaşına çatmayan şəxsi evliliyə məcbur etməyə görə cəza, on altı yaşına çatmayanlarla cinsi əlaqə və ya digər seksual xarakterli əməllərə görə isə ciddi məsuliyyət tədbirləri müəyyənləşdirilmişdir.

2024-cü ildə erkən evliliklərin qarşısının alınması istiqamətində qanunvericiliyə bir sıra dəyişikliklər olunub. Qanuna əsasən Ailə Məcəlləsində nikah yaşının istisna hallarda 1 il azaldılması ilə bağlı icazələrin verilməsi ləğv edilib. Cinayət Məcəlləsində on altı yaşına çatmayan şəxslərin erkən nikahının təşkilinə, İnzibati Xətalar Məcəlləsində isə bu yaşda olan şəxslərlə bağlı evlilik sövdələşmələrinə daxil olmağa, habelə erkən nikah və dini kəbinkəsmə mərasimlərinin keçirilməsinə görə cəza tədbirlərində dəyişikliklər edilib. Qanun 2025-ci il iyulun 1-dən qüvvəyə minib.

Bununla yanaşı, ölkəmizdə mütəmadi olaraq əhali arasında maarifləndirmə işləri aparılır. 2020-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə “Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohum evliliklərinin mənfi nəticələrinə dair maarifləndirmə Qaydası” təsdiq edilib. Qaydanın icrası 14 aidiyyəti quruma və yerli icra hakimiyyəti orqanlarına tapşırılıb. Komitə hər il bu Qaydanın icrası üzrə ölkədə görülmüş işlərlə bağlı hesabat hazırlayır və rəsmi saytına yerləşdirilir.

Komitə, eləcə də onun tabeliyində olan Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən yeniyetmə və gənclərin erkən nikah, qohum evliliklərin mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsinin artırılmasına dair mütəmadi olaraq təhsil müəssisələrində, icmalarda maarifləndirici görüşlər təşkil edilir. Komitənin dəstəyi ilə Uşaq hüquqlarının müdafiəsi üçün “116111” qaynar xətt yaradılıb. Bununla yanaşı, qaynar xəttə və ya Komitəyə uşaq evliliyi ilə bağlı məlumat daxil olduqda dərhal Uşaq və Ailələrə Dəstək mərkəzlərinin, yerli icra hakimiyyəti yanında uşaq hüquqlarının müdafiəsi üzrə komissiyanın və polis nümayəndəsinin iştirakı ilə ailələrə bu cür nikahlara görə qanunvericilikdə nəzərdə tutulan məsuliyyət izah olunur, belə halların qarşısının alınması istiqamətində müvafiq tədbirlər görülür. Təhsildən yayınma və sosial təhlükəli vəziyyətlə bağlı fərdi profilaktik işlər aparılır.

**Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri, psixoloq Elnur Rüstəmov isə söylədi ki, belə nikahlar təkcə sosial problem deyil, eyni zamanda, ağır psixoloji nəticələr doğuran mürəkkəb hadisədir:**

–Erkən yaşda ailə qurmağa məcbur edilən qız uşaqları seçim hüququnun əlindən alınması və həyatlarına nəzarətin itirilməsi ilə üzləşirlər. Bu isə onların psixikasında travmatik izlər buraxır. Belə hallarda ən çox xroniki stress, qorxu hissi, özünəinamın azalması, depressiv əlamətlər



müşahidə olunur. Uşaq yaşında fərdi inkişaf mərhələlərini tam keçmədən üzərinə ailə və məsuliyyət yükü götürmək məcburiyyətində qalmaq, onların emosional tənzimləmə bacarıqlarını zəiflədir və daxili konfliktlər yaradır. Onlar çox vaxt öz ehtiyaclarını ifadə etməkdə çətinlik çəkir, passiv davranışa meylli olurlar.

Vaxtından əvvəl böyümək məcburiyyəti insanın şəxsiyyət kimi formalaşmasına, inkişafına birbaşa təsir göstərir. Yeniyetməlik çağı identikliyin qurulduğu, qərarvermə bacarıqlarının inkişaf etdiyi həssas dövrdür. Bu mərhələnin zorla kəsilməsi və ya təhrif olunması nəticəsində insanın gələcəkdə müstəqil qərarvermə qabiliyyəti zəifləyə bilər. Belə şəxslər ya həddindən artıq asılı, ya da əksinə, sərt davranış modelləri nümayiş etdirirlər. Onların sosial münasibətlər qurmaq bacarığı da zəifləyə bilər. Bu isə həm ailə daxilində, həm də cəmiyyət içində adaptasiya problemlərinə gətirib çıxarır.

**İnstitut rəhbəri vurğuladı ki, uşaq yaşda travma yaşamış və psixoloji baxımdan tam formalaşmamış insanın gələcəkdə sağlam övlad böyütməsi çox həssas mövzudur və fərdi yanaşma tələb edir:**

–Burada əsas məsələ travma deyil, onun necə işlənməsi və insanın psixoloji dəstək alıb-almamasıdır. Əgər insan yaşadığı travmanı dərk edib və bu məqamda psixoloji dəstək alıbsa, o zaman gələcəkdə sağlam valideyn olmaq mümkündür. Lakin travma sağalmadıqda valideyn yaşadığı emosional çatışmazlıqları qeyri-ixtiyari şəkildə övladına ötürür. Bu, uşağın emosional təhlükəsizlik hissinin zəifləməsinə, bağlılıq və davranış problemlərinə səbəb ola bilər.

Bu baxımdan, erkən nikahların qarşısını almaq üçün hüquqi və sosial addımlarla bərabər, maarifləndirmə işləri genişləndirilməli, psixoloji dəstək mexanizmləri gücləndirilməli və ailə institutu sağlam təməllər üzərində qurulmalıdır. Cəmiyyət olaraq əsas hədəfimiz uşaqlara uşaqlıqlarını yaşama imkanı vermək, onların psixoloji və emosional inkişafını qorumaq olmalıdır. Bu, gələcək sağlam cəmiyyətin formalaşmasının ən vacib şərtlərindən biridir.

Ekspert rəyləri və mövcud reallıq bir daha təsdiqləyir ki, problemin köklü həlli üçün yalnız inzibati mexanizmlər kifayət deyil. Yeniyetmələrin təhsil və inkişaf hüququnu qorumaq, sağlam və intellektual gələcəyin təməlini qoymaq gərəkdir. Dövlət qurumlarının, təhsil ocaqlarının və ailələrin müştərək fəaliyyəti problemin aradan qaldırılmasında həlledici rol oynayır. Xüsusilə kütləvi informasiya vasitələrində və bölgələrdə aparılan ardıcıl təbliğat işləri, valideyn məsuliyyətinin artırılması, onların maarifləndirilməsi bu mübarizənin əsas istiqamətidir.

Hər bir yeniyetmənin təhsil almaq, peşə sahibi olmaq və gələcəyini azad şəkildə müəyyən etmək hüququ toxunulmazdır. Unutmayaq ki, qarşısı alınan hər erkən nikah – bir gəncin xilas edilmiş gələcəyi, bütövlükdə isə sağlam cəmiyyətin təminatıdır.

***Elenora HƏSƏNOVA***
***XQ***

*Sosial gündəm*

# Məşğulluqda gender bərabərliyi

**Azərbaycanda gender bərabərliyinin təmin olunması istiqamətində mühüm addımlar atılır. Ölkəmiz bu sahədə bir sıra beynəlxalq konvensiya və sənədlərə qoşulub, qabaqcıl beynəlxalq təcrübəyə uyğun normativ-hüquqi baza formalaşdırılıb, institusional mexanizm yaradılıb. Əmək münasibətlərinin hüquqi tənzimlənməsində gender bərabərliyinin təmin olunması qadınların əmək bazarında iştirak səviyyəsinin artması ilə müşayiət olunur.**



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İctimai Şuranın üzvü Sahib Məmmədov** bildirdi ki, Konstitusiyamızın 25-ci maddəsi hüquq və azadlıqların bərabərliyini təmin edir. Eyni zamanda, ölkəmiz BMT Baş Assambleyası tərəfindən 1979-cu ildə qəbul olunmuş “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında”, Beynəlxalq Əmək Təşkilatının (BƏT) “Bərabər dəyərli əməyə görə kişilərə və qadınlara bərabər haqq verilməsi haqqında” , BƏT-in “Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında”, BƏT-in “Analığın mühafizəsi haqqında” 1952-ci il Konvensiyasına (yenidən baxılmış) yenidən baxılması haqqında", BƏT-in “Kişi və qadın işçilər – ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında” konvensiyaları ratifikasiya edib. Bundan başqa, ötən





il Azərbaycan BƏT və BMT-nin Qadınlar Təşkilatı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının rəhbərlik etdiyi Bərabər Əməkhaqqı üzrə Beynəlxalq Koalisiyaya (EPIC) üzv qəbul edilib. EPIC qadınlar və kişilər arasında bərabər dəyərə malik iş üçün bərabər əməkhaqqı ödənişi prinsipinin qlobal səviyyədə təbliği və təşviqini həyata keçirir.

Ölkəmizdə gender bərabərliyinin təmin edilməsi istiqamətində həmin konvensiyalara, mütərəqqi beynəlxalq yanaşmalara uyğun siyasət aparıldığını və milli qanunvericiliyin həmin sənədlərə uyğun təkmilləşdirildiyini vurğulayan Sahib Məmmədov qeyd etdi ki, ölkəmizdə əmək qanunvericiliyində, əmək münasibətlərində cinsinə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi qadağan edilir, qadınlar və kişilərə əmək münasibətlərində, habelə, sosial təminat hüququnun həyata keçirilməsində bərabər şərtlər və imkanlar nəzərdə tutulur. Əmək qanunvericiliyinə əsasən işə qəbul, əmək şəraiti, əməkhaqqı və vəzifədə irəli çəkilmə məsələlərində qadın və kişilər üçün bərabər hüquqlar təmin olunur.

Qadınların məşğulluq imkanlarının artırılması, əmək bazarında iştirakının genişləndirilməsi və gender stereotiplərinin aradan qaldırılması istiqamətində son illər qanunvericilikdə yeni mühüm dəyişikliklər edilib. Qadın əməyi ilə bağlı aparılan islahatlar Dünya Bankı Qrupunun və Beynəlxalq Valyuta Fondunun 2025-ci il Yaz İclasında nümunə kimi göstərilib. Bu islahatların müsbət nəticəsi kimi, Dünya Bankının Qadın, Biznes və Hüquq üzrə 2024-cü il nəşrindəki hesabat-reytinqdə Azərbaycan öz indeksini 78,8-dən 85-ə çatdırıb və 35 pillə irəliləyərək 190 ölkə arasında 104-cü pillədən 69-cu pilləyə yüksəlib.

Ölkəmizin əmək qanunvericiliyində qadınlar, o cümlədən ailə vəzifələri olan qadınlar üçün mühüm təminatlar, güzəşt və imtiyazlar da yer alır. Belə ki, əmək müqaviləsi bağlanarkən hamilə və üç yaşına çatmamış uşağı olan qadınlara sınaq müddəti müəyyən edilmir, hamilə qadınlar və uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra bir ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınların attestasiyası keçirilmir.

İşəgötürənin hamilə, habelə, üç yaşınadək uşağı olan qadınların, müəssisənin ləğvi və əmək müqaviləsinin müddətinin bitməsi əsasları istisna olmaqla, əmək müqaviləsini ləğv etməsi qadağandır. Hamilə və yaşyarımadək uşağı olan qadınlar və 3 yaşınadək uşağını təkbaşına böyüdən valideynlər üçün 36 saatlıq qısaldılmış iş vaxtı müəyyən edilir. Onlar qısaldılmış iş vaxtı şəraitində çalışsalar da, əməkhaqları tam məbləğdə ödənilir. Hamilə, 14 yaşınadək uşağı olan, həmçinin əlil uşağı olan qadınlar yalnız öz razılıqları olduğu halda gecə, iş vaxtından artıq işlərə, istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilə, ezamiyyətə göndərilə bilərlər.

Eyni zamanda, əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq, 14 yaşınadək iki uşağı olan qadınlara 2 təqvim günü, bu yaşda üç və daha çox uşağı olan, həmçinin əlil uşağı olan qadınlara isə 5 təqvim günü müddətində əlavə məzuniyyət verilir. İki aylığadək yaşında uşağı övladlığa götürən, yaxud övladlığa götürmədən böyüdən qadınlar doğuşdan sonra müəyyən edilmiş 56 günlük sosial məzuniyyətdən, həmçinin əlavə və qismən ödənişli məzuniyyətlərdən istifadə hüququna malikdirlər. Qanunvericilikdə edilmiş son dəyişikliklərə əsasən isə hamiləliyə və doğuşa görə məzuniyyətlə bağlı müddəalar da beynəlxalq standartlara uyğun təkmilləşdirilib. Belə ki, məzuniyyətin doğuşdan əvvəlki hissəsi doğuş gözlənilən tarixdən uşağın faktiki doğulduğu günədək ödənişli olaraq uzadılır və bu halda doğuşdan sonrakı hissə qısaldılmır.

Onu da qeyd edək ki, qadınların əmək bazarına çıxışı və məşğulluq imkanlarının artırılması dövlət məşğulluq siyasətinin əsas istiqamətlərindəndir. Təsadüfi deyil ki, ölkəmizdə qadınların məşğulluq səviyyəsi getdikcə yüksəlir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin məlumatına görə, 2025-ci ildə 69,5 min qadın münasib işlə təmin edilib. Mühüm sosial-iqtisadi əhəmiyyətə malik özünüməşğulluq proqramı nəticəsində işsiz və işaxtaran qadınların kiçik sahibkarlığa çıxış imkanları yaranıb. Ötən il 6,5 mindən çox qadına özünüməşğulluq proqramı çərçivəsində aktivlər verilməklə onlar üçün kiçik ailə təsərrüfatları yaradılıb.

Qadınların məşğulluğunun təminatında önəmli aktiv məşğulluq proqramlarından biri də onlar üçün peşə hazırlığının təşkilidir. Peşə hazırlığının təşkili nəticəsində onlar əmək bazarının tələblərinə uyğun ixtisas və bacarıqlara yiyələnirlər. Ötən il Dövlət Məşğulluq Agentliyi tərəfindən peşə hazırlığı kurslarına cəlb olunan 18,4 min işsiz və işaxtaran şəxsdən 11,8 min nəfərini qadınlar təşkil edib. Qeyd edək ki, peşə hazırlığının yekununda kursu uğurla başa vuran şəxslərin işlə təminatına da Agentlik tərəfindən dəstək göstərilir.

Bütün bunlar əmək münasibətlərində gender prinsiplərinin gücləndirilməsinə xidmət edir və qadınlara əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsi ayrı-seçkilik hesab olunmur.

***Mustafa KAMAL***
***XQ***

*Ustadlarımız*

# Nəsir İmanquliyevin jurnalistika dərsləri

**Ölkənin media və ictimaiyyəti Azərbaycan milli jurnalistikasının inkişafında çoxillik səmərəli xidmətləri olmuş, ictimai-siyasi xadim, publisist, Əməkdar jurnalist, professor Nəsir İmanquliyevin anadan olmasının 115 illiyinə hazırlıq işləri aparır.**




Uzun illər Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin müəllimi kimi fəaliyyət göstərən Nəsir İmanquliyevin jurnalistika məktəbi bu gün də önəmini saxlayır. Nəsir müəllimin işıqlı xatirəsini anmaq və onu gənc nəslə daha yaxından tanıtmaq üçün bu ali təhsil müəssisəsində yubilyarın həyatı və yaradıcılığına həsr olunmuş "Professor Nəsir İmanquliyev dərsləri" layihəsinə başlanılıb.







Həftədə bir dəfə 90 dəqiqəlik mühazirələr təşkil edilərək keçirilən dərslər çərçivəsində tələbələr onun publisistik yaradıcılığı, pedaqoji fəaliyyəti və milli mətbuatın inkişafına verdiyi töhfələr haqqında geniş məlumat əldə edəcəklər. Bununla yanaşı, layihə tələbə jurnalistlərin nəzəri biliklərini praktiki vərdişlərlə zənginləşdirməyə, onların analitik düşünmə, tədqiqat aparma və yazı bacarıqlarını inkişaf etdirməyə şərait yaradacaq.

"Professor Nəsir İmanquliyev dərsləri" layihəsi milli jurnalistika ənənələrinin qorunması və davamlılığının təmin edilməsi baxımından da əhəmiyyətlidir. BDU jurnalistika fakültəsi tələbə həmkarlar təşkilatının sədri Nurlan Cəbrayılzadə XQ-yə bildirdi ki, may ayında yekunlaşacaq layihə çərçivəsində 100 nəfərə yaxın tələbə Nəsir İmanquliyevin yaradıcılığı və jurnalistikada nəzəri aspektləri ilə bağlı təqdimatlar edəcək, mühazirələr oxunacaq, praktiki dərslər keçiriləcək.

"Professor Nəsir İmanquliyev dərsləri" layihəsinin açılış mərasimində çıxış edən Milli mətbuat tarixi kafedrasının müdiri, professor Cahangir Məmmədli bildirdi ki, Nəsir İmanquliyev Azərbaycanda peşəkar jurnalistlər nəslinin müəllimi, ötən əsrin ikinci yarısında ölkə mətbuatında xüsusi tipoloji xarakter daşımış "Bakı" və "Baku" qəzetlərinin yaradıcısı və redaktoru olub:

– Azərbaycan jurnalistikasında tətbiq olunan müasir xəbər tipləri Nəsir İmanquliyevin adı ilə bağlıdır. Nəsir İmanquliyev 51 il jurnalistika fakültəsində jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında çalışıb. Bu gün Yeni media və kommunikasiya nəzəriyyəsi adlanan həmin kafedranın önündə onun barelyefi var. Gələcəyin jurnalistləri müəllimlərinin xatirələrindən və əsərlərindən tanıdıqları bu böyük insanın barelyefi önündən keçəndə onu ehtiramla yad edirlər.

Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının professoru Akif Rüstəmov isə ömrünü universitetin, milli mətbuatımızın inkişafına, jurnalist kadrların hazırlanmasına həsr etmiş Nəsir İmanquliyevin Azərbaycanın ictimai-mədəni mühitində dərin iz qoyduğunu dedi. Nəsir müəllimin klassik ənənələrimizə söykənən maarifçilik fəaliyyətinin bəhrələri Azərbaycan jurnalistikasında yaratdığı yeni məktəb və onun yetirmələridir. Tale Nəsir İmanquliyevə heç də hamar ömür yolu qismət etməyib, amma heç vaxt əqidəsindən dönməyib.

BDU-nun jurnalistika fakültəsinin dekanı, professor Vüqar Əliyev, multimedia və elektron kommunikasiya kafedrasının müdiri, professor Qulu Məhərrəmli, yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının müdiri, dosent Xatirə Hüseynova, milli mətbuat tarixi kafedrasının professoru Qərənfil Quliyeva Nəsir İmanquliyevlə bağlı xatirələrini bölüşüblər, özündən sonra məktəb yaradan müəllimlərin ənənələrinin daim yaşayacağını bildiriblər.

Sonda Nəsir İmanquliyevin həyat və yaradıcılığından bəhs edən qısametrajlı film nümayiş etdirildi.

Qeyd edək ki, yekunda layihə iştirakçılarının professor Nəsir İmanquliyevlə bağlı mediada dərc olunan yazıları üzrə "Professor Nəsir İmanquliyev dərsləri – yazı müsabiqəsi" keçiriləcək və qaliblər təltif ediləcək.

Xatırladaq ki, Nəsir İmanquliyev "Xalq qəzeti"ndə redaktor müavini olub, Azərbaycan radiosuna rəhbərlik edib, "Bakı" və "Baku" paytaxt qəzetinin yaradıcısı olaraq 30 il bu nəşrin baş redaktoru olub, burada peşəkar jurnalistlər dəstəsi formalaşdırıb. Professor Nəsir İmanquliyev qəzetçilik anlayışına yeni yanaşma gətirərək mətbuatın əsas missiyasını cəmiyyətin operativ və obyektiv informasiya ilə təmin olunmasını ön plana çəkirdi. "Bakı" və "Baku" qəzetləri dövrün ictimai-siyasi, sosial və mədəni həyatını, zamanın ruhunu, ictimai dinamika və insan amilini əks etdirirdi.

Redaktor kimi Nəsir müəllim xəbər janrını qəzetin əsas sütunlarından biri hesab edirdi. Bu, həmin dövr üçün kifayət qədər yenilikçi idi. Çünki o zamanlar publisistik və ideoloji materiallar daha üstün mövqedə dayanırdı. Bu baxımdan professor xəbərin gücünü, onun oxucu ilə birbaşa əlaqə yaradan təsir imkanlarını düzgün qiymətləndirirdi. Məhz buna görə də rəhbərlik etdiyi qəzetlərdə operativ, maraqlı və rəngarəng xəbərlərə geniş yer ayrılırdı. Bu isə qəzetlərin oxucu auditoriyasını genişləndirir, onların nüfuzunu artırırdı.

***Ləman TƏHMƏZ***
***XQ***

# Qərbi Azərbaycanın tarixi-siyasi mədəni irsi və qayıdış hərəkatı

**Qərbi Azərbaycan İcmasının Paşalı rayon təşkilatının təşəbbüsü və BDU-nun beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin təşkilatçılığı ilə "Qərbi Azərbaycanın tarixi-siyasi mədəni irsi" mövzusunda dəyirmi masa keçirilib.**



BDU Qərbi Azərbaycan Araşdırmaları Mərkəzinin direktoru, siyasi elmlər doktoru Xalid Niyazovun moderatorluğu ilə davam edən məclisdə AMEA Tarix və Etnologiya İnstitutu Qərbi Azərbaycan tarixi şöbəsinin aparıcı elmi işçisi, dosent Bəxtiyar Həsənov məruzə ilə çıxış edərək Qərbi Azərbaycanın tarixi-siyasi mədəni irsi mövzunun aktuallığını elmi dəlillərlə əsaslandırmış, məsələnin tarixi-siyasi mahiyyətini və milli maraqlar baxımından önəmini ətraflı şərh edib.

Dəyirmi masa müzakirəsində Paşalı rayon təşkilatının sədri, QAİ İdarə Heyətinin üzvü, dosent Faiq Xudayev, fəlsəfə doktoru, etnoloq Nazir Əhməd, QAİ Keşkənd rayon təşkilatının sədr müavini Məhəmməd Rəsuloğlu, İstisu təşkilatının sədri filoloq Alı Alıyev Qərbi Azərbaycan torpaqlarının tarixi türk torpaqları olması barədə elmi dəlilləri, milli toponimləri və digər hüquqi sənədləri gündəmə gətiriblər. Onlar Qərbi Azərbaycanda yaradılmış tarixi-mədəni irsin doğma yurd yerlərinə qayıdış hərəkatına önəmli mənəvi dəstək olduğunu vurğulayıblar.

BDU-nun diplomatiya və müasir inteqrasiya prosesləri kafedrasının baş müəllimi, fəlsəfə doktoru, Paşalı icması qadınlar şurasının sədri, fəlsəfə doktoru Xatirə Mehdiyeva, kafedranın baş müəllimi, fəlsəfə doktoru Gülgün Quliyeva da mövzu ilə bağlı mülahizələrini söyləyiblər, gənclərin bu istiqamətdə maarifləndirilməsinin milli maraqların qorunması baxımından mühüm rol oynadığını qeyd ediblər.

Sonda tələbələrin marağına səbəb olan mövzulara əlavə aydınlıq gətirilib, çoxsaylı suallar cavablandırılıb. Bildirilib ki, BDU Araşdırmalar Mərkəzi Qərbi Azərbaycana Qayıdış hərəkatı ilə bağlı silsilə dəyirmi masalar keçirməyi nəzərdə tutur.

***T.RÜSTƏMLİ***
***XQ***

*Yaşar Qarayev – 90*

**Ötən yüzilliyin son yarısında elmi prinsiplərin mübarizələrdə saflaşıb büllurlaşdığı, tənqidi mübahisələrdən nəzəri yekunlar, qənaətlər mərhələsinə keçidin baş verdiyi bir dövrdə həm ayrı-ayrı klassiklərin, həm də klassik bədii mərhələlərin, ədəbi metod, təmayül və cərəyanların canlı, dinamik, monoqrafik portretini göz önünə gətirən əsərlər meydana çıxdı. Bu sahədəki tədqiqlərin orijinal istiqamətinin yaradıcısı – çoxcildlik "Azərbaycan ədəbiyyatı tarixi"nin baş redaktoru və əsas müəlliflərindən biri, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Yaşar Qarayev idi...**

# Milli ədəbiyyatşünaslıq xadimi







Yaşar Qarayevin ilk və son kitablarına nəzər salanda tədqiqatçının dünyagörüşünün təkamülünü izləmək mümkündür. Əvvəla, bu dünyagörüşü Azərbaycan mütəfəkkirlərinin (xüsusilə Mirzə Fətəli Axundzadənin və Cəlil Məmmədquluzadənin), eləcə də ədəbi tənqid və nəzəriyyəmizin təcrübəsi və onu yaxın dövrdə təmsil edən alimlərimizin – Məmməd Arifin, Məmməd Cəfərin, Cəfər Cəfərovun irsi zəminində formalaşıb. Heç təsadüfi deyil ki, Yaşar Qarayev o mütəfəkkirlərin ən yaxşı tədqiqatçılarından sayılır və özünəqədərki tənqidçi nəslinin bu 3 nümayəndəsi haqqında çox qiymətli portret-oçerklər yazmışdır.

Sonralar sınaqdan uğurla çıxan orijinal, bənzərsiz məntiqi və obrazlı təhlilin təməli hələ "Faciə və qəhrəman" monoqrafiyası ilə qoyulur.

Problemin özəyinə varan, onu bütün qatları ilə göstərən bir təhlil yolu tənqidçinin yaradıcılığında tədricən formalaşmış, mərhələ-mərhələ fundamental tədqiqat metoduna yiyələnmişdir. Son fikri dərin, analitik miqyaslı araşdırmalardan sonra bəyan etmək müdrikliyini isə ağsaqqal sələflərindən mənimsəmişdir.

Yaşar Qarayevin istedadı ictimai-ədəbi fikrimizin inkişafının elə bir çağında yetişdi ki, bu dövrdə Azərbaycan mədəniyyətinin daha dərindən, hərtərəfli öyrənilməsi prosesində bir mərhələ başlayırdı. Bu, alimin dünyagörüşündə və elmi yaradıcılığında da baş verdi. Tənqidçi milli ədəbiyyatın öyrənilmiş və öyrənilməmiş qatlarının yenidən tədqiqinə başladı.

Kifayət qədər dərindən araşdırılmamış, yaxud yanlış şərh edilmiş məsələlərin həllinə cəsarətlə, müasir estetikanın, ədəbiyyatşünaslığın yüksək nailiyyətləri baxımından yanaşdı. O, nəzəriyyə ilə silahlandıqca nəzəriyyəsizliyi, tənqid prinsipiallığını, qələminin publisist kəsərini artırdıqca üzdəngetmənin karagəlməzliyini görür, üslubu zənginləşir, fərdiləşir, dilimizin bütün imkanlarını tənqidi fikrin kəsəri xidmətinə səfərbər edirdi.

Yaşar Qarayev təhlil etdiyi sənət əsərinin bədii, fəlsəfi mahiyyətinə varır, tarixi-müqayisəli, analitik təhlillə daxilində paradoksal təhlilin vəhdətinə nail olduğu üçün onun gözlənilməz tutuşdurmaları təbii səslənir .

Tənqidçi alimin yaradıcılığında güclü pafos, ehtizazlı patetika var, ancaq bu pafosun vətəndaşlıq məğzi, bu patetikanın sənətkarlıq əsası da var. "Tənqid – ədəbiyyata məhəbbətin adıdır" – müəllifin özünün tənqid barədə belə anlayışının – sənətə və sənətkar həqiqətinə güzəştsiz tənqidçi məhəbbətinin əyani təsdiqini onun həm ayrılıqda hər məqaləsində, həm də bütünlükdə tənqidi düşüncəsinin tərzində, üsulunda hiss etməmək mümkün deyil.

Yaşar Qarayevin elmi axtarışlarının başlıca istiqaməti Azərbaycan realizminin tarixini öyrənməyə yönəldilmişdi: bunun barı-bəhrəsi "Realizm: sənət və həqiqət" kimi siqlətli monoqrafiya oldu.

Bu əsərdən sonra klassiklərin bədii metodlarına daha dərindən bələd olduq, bədii fikrimizin ümumi inkişaf ahəngini aydınlığı ilə görə və qavraya bildik. Yaşar Qarayev göstərdi ki, indiki dövrdə nəinki klassikləri yeni tərzdə şərh etmək, hətta klassikaya münasibətdə tamamilə yeni baxış ifadə edən ədəbi-estetik mövqeyi irəli sürmək mümkündür və mütləq lazımdır. Bunsuz ədəbiyyat da, onun məhvərindəki nəzəriyyə də donuqlaşar və ehkamlaşar.

70-ci illərin ortalarında Yaşar Qarayev milli teatr problemləri ilə ardıcıl məşğul olurdu. Sonralar da Azərbaycan dramaturgiyasına verdiyi təhlillər elə dərin əsasa malikdir ki, rejissorlar o əsərləri tamaşaya qoyarkən bu təhlillərsiz keçinə bilməzlər.

Nizami, Nəsimi, Füzuli, Vaqif, Sabir, Vurğun kimi poetik və fəlsəfi fikrin böyük dühaları Yaşar Qarayevi gəncliyindən düşündürüb. Onun tədqiqatçı idrakının bənzərsizliyi, xüsusən, Cavid yaradıcılığının problemlərinə həsr etdiyi əsərlərdə aydın duyulur, mütəfəkkir sənətkarın romantik poeziya düşüncələrində fəlsəfi qat qabarıqlaşır.

Müasir Azərbaycan tənqidi fikrinin inkişafı həmkarları ilə yanaşı, həm də Yaşar Qarayevin adı ilə bağlıdır. Pənah Xəlilov, Bəkir Nəbiyev, Şamil Salmanov, Akif Hüseynov kimi tənqidçilərimiz arasında o, öz fərdi ədəbi üslubu ilə seçilir.

Yaşar Qarayev miniatür tənqidi araşdırmalarından tutmuş monumental tədqiqatlarınadək bütün təhlillərində ədəbi-estetik fikrin ən sabit, cilalı anlayış və ölçülərini ədəbiyyatın, sənət dünyasının qaynar zəminində yenidən sınaqdan keçirir və hələ də nəzəri cəlb etməmiş xassələrini üzə çıxarır.

Görkəmli alimin yaradıcılığı ictimai-mədəni-ədəbi fikrimizdə qırılmaz mənəvi irsiliyi ifadə edən nümunədir: o, nəinki bu günlə yaxın keçmişin, həm də gələcəyin – sabahkı ədəbi prosesin arasındakı möhkəm varisliyi təsəvvür etməyə imkan verir.

Professor Yaşar Qarayev Bəxtiyar Vahabzadə, Ziya Bünyadov, Xəlil Rza Ulutürk, Məmməd Araz, Anar, Elçin, Aydın Məmmədov, Sabir Rüstəmxanlı, Nizami Cəfərov, Yaqub Mahmudov, Kamal Abdulla, Rafael Hüseynov ilə bir sırada müstəqillik dövrü mənəviyyatının yaradıcılarından olmuşdur. Alimin elmi yaradıcılığının baş "qəhrəmanı" həyatda və sənətdə Azərbaycan mayasından yoğrulan milli şəxsiyyətdir. İctimai-siyasi münasibətlərdə milli şəxsiyyətin formalaşması, etik-psixoloji yetkinləşməsi, cəmiyyətin üst qatına çıxaraq hakim elitaya çevrilməsi onun ağrılı və ziddiyyətli təkamülünün mərhələləridir.

Yaşar Qarayev Azərbaycan mədəniyyətinin fundamental şəkildə və universal humanitar əsaslarda araşdırılmasının elmi təməlini qoyanlardan biridir. Onun tədqiqatlarında Azərbaycan mədəniyyəti orqanik bütövlüyündə götürülür, etnik yaddaş, folklor, dulusçuluq və Şəki lətifəsindən tutmuş tragikomediyalaradək çeşidli mədəniyyət fenomenləri milli ruhun ayrı-ayrı zaman laylarında araşdırılır.

Ötən zamanların və xüsusilə son yüz ilin Azərbaycan mədəniyyətində əks olunan əsas izləri Yaşar Qarayevin poeziya qədər duyarlı elmi tədqiqatlarında sistemli-konseptual təhlilini tapıb. Bundan sonra Azərbaycan mədəniyyətini ayrılıqda və onu bəşər mədəniyyətinin tərkib hissəsi kimi tədqiq etmək istəyən araşdırmaçı üçün Yaşar Qarayevin əsərləri tutarlı mənbədir.

Yaşar Qarayev ömrünün sonunadək tənqidçi olaraq qaldı – ədəbiyyatdan mədəniyyətin bütün budaqlarına təfəkkür enerjisi axıdan, bədii sözü və ideyanı tam harmoniyasında aydınladan, estetik-fəlsəfi düşüncənin Azərbaycan türkcəsində ən dəqiq, dolğun və sərrast ifadəsinin misilsiz sənətkarlığını yaradan, Azərbaycan mənəviyyatını parçalanmaz və bütöv görən və təqdim edən düşünər…

Yaşar Qarayevin son kitabına – "Min ilin sonu"na daxil edilən əsərləri – "XXI əsr: qlobal sivilizasiya və Şərq dəyərləri", "Milli "Mən" şüuru və etnik yaddaş – Azərbaycançılıq", "Ədəbiyyat tarixi milli (etnik) kimlik və mentalitet tarixi kimi", "Məsləkim tərcümeyi-halımdır", "Həpimiz bir günəşin zərrəsiyiz", "İntellektin bədii yaddaşı" elmi, fəlsəfi, bədii, estetik, həm də qlobal siyasi düşüncənin, planetar narahatlığın küll enerjisi ilə ortaya qoyulmuş klassik nümunələrdir. Bu əsərlərində Yaşar Qarayev Azərbaycanın milli kimlik və mentalitet dəyərləri, bütöv (tarixi və çağdaş) mədəniyyət kompleksi ilə dünyada özgür qərar tutmasının fəlsəfi-ideoloji platformasını irəli sürmüşdür.

Alimin "Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər" əsərinin son sözü – "Ədəbiyyat üçüncü minilin astanasında" – ötən tarixlə Yeni Çağ mədəniyyətinin genetik vəhdətini təyin edən strateji baxış və nəzəriyyənin orijinal təsbitidir. O, əsrləri və minillikləri qovuşduran onillik dönəmi bu vəhdətin qaynaq mərhələsi kimi şərh edir: "Son dövrü – 1990-2000-ci illər arasındakı zaman zolağını həm ədəbiyyatda, həm də tənqiddə bugünkü tarixi finala gətirib çıxaran qanunauyğunluq və məntiqdən kənarda hesab etmək olmaz: siyasətdə də, ideologiyada da bilavasitə bugünkü mərhələnin astanası məhz bu dövrün sosial, ictimai və ədəbi hadisələri idi". Əgər "XXI əsrin dünyasını sintez sivilizasiyası kimi yaratmaqdan söhbət gedirsə", deməli, bu prosesdə iştirak etməli olan Şərq, eləcə də Azərbaycan da öz klassik dəyərlər panteonu üzərində qurulmalı və yüksəlməlidir.

Bütün yüksək elmi nailiyyətlərinə baxmayaraq, görkəmli alim dünyadan köçdüyü ildə (2002) Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Bununla bağlı, Yaşar Qarayevin övladı, hazırda Böyük Britaniyada yaşayan dr. Lalə Yaşarqızı yazır: "80-ci illərin sonunda akademikliyə seçkilər zamanı ona qarşı edilən, sözün həqiqi mənasında, misilsiz haqsızlıq zamanı da susdu... Sonrakı illər heç namizədliyinin irəli sürülməsini də istəmirdi. 1998-ci ildə ona yenidən veriləcək Akademiyaya müxbir üzvlük adından yazılı şəkildə imtina etmişdi. Yaşar Qarayev üçün xalqının istedadlı oğlu kimi tanınmaq, bir alim kimi vətəninin etimadını qazanmaq ona veriləcək və əslində, keçmiş sovet ölkələri sərhədindən kənarda mövcud olmayan bir addan dəfələrlə üstün idi" .

Azərbaycan mədəniyyətinin yetirməsi Yaşar Qarayev özünəməxsus əxlaqi siması, həzinliyində təlatümləri eşitdirən nitqi, örnək davranışı ilə saf, uca mənəviyyat daşıyıcısı idi. Uzun illər Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutuna rəhbərlik etmiş Yaşar Qarayevin kabinetindəki masanın üzərində kiçicik bir lövhə vardı: "Vaxt – sərvətdir". Bu yazı incə bir işarə ilə anladır, eyham vururdu ki, Ədəbiyyat İnstitutu – kargüzarlıqla və ya mətləbdən uzaq söhbətlərlə baş qatılası bir yer deyil, yaradıcı məkan, elm məbədidir. Onun heyrətamiz dərəcədə həssaslığı, zərifliyi ilə əqidə dönməzliyi arasındakı tarazlığı xarakterindən əsərlərinə, əsərlərindən xarakterinə dalğa-dalğa nüfuz edirdi. Yüksək əqidə sahibliyi və dürüstlüyü, Azərbaycan intellektinə inamı ilə ali məktəbdə imtahan komissiyalarına rəhbərlik edərkən, alim böyük bir "qazanc da güdürdü": istedadlı tələbələri elə o vaxtdan "gözaltı" edir, Akademiyaya – Ədəbiyyat İnstitutuna gətirirdi.

Yaşar Qarayev mənim təkcə elmi rəhbərim deyil, həm də ustadımdır. Qürur duyuram ki, o böyük alimin 70-ci illərdən ömrünün sonunadək yazdığı bütün kitabları sanki hər hərfinə məna verdiyi kalliqrafik avtoqrafları ilə mənim sərvətimdir. Yaşar Qarayevin parlaq ideyaları mədəniyyətimizin bütün inkişaf mərhələlərini bir-birinə bağlayan və onu gələcəyə bütövlüyündə, yaradıcı enerjisində daşıyan qaynaq kimi hər zaman millətimizin və elmimizin qərəyi olacaq.

***Rahid ULUSEL,***
***AMEA-nın Ədəbiyyat İnstitutunun baş elmi işçisi, fəlsəfə elmləri doktoru, professor***

# Gözlər İslamabada dikilib...



## Siyasi dialoq hərbi əməliyyatları dayandıra biləcəkmi?

**İlk baxışdan Yaxın Şərqdə əldə olunan iki həftəlik atəşkəsin gərginliyi azaldacağı düşünülürdü. Amma buna baxmayaraq, İsrailin Livana endirdiyi zərbələr razılaşmanın şərtləri ilə bağlı tərəflər arasında ciddi fikir ayrılıqları olduğunu üzə çıxardı. Bu kontekstdə beynəlxalq medianın gündəmi yenidən hərbi toqquşma xəbərləri ilə müşayiət olunur.**

**"Mehr":** "Hizbullah" İsrailin bu ölkəyə endirdiyi zərbələrə cavab olaraq hərəkətə keçib. Bununla bağlı "Hizbullah" bəyanat yayıb. Qrupun atəşkəsə sadiq qaldığı diqqətə çatdırılan bəyanatda "Livanı və xalqını müdafiə etmək üçün", həmçinin düşmənin atəşkəs razılaşmasını pozmasına cavab olaraq Əl-Manara qəsəbəsinin raket atəşinə tutulduğu bildirilib. "Bu cavab tədbirləri İsrail-Amerika təcavüzü ölkəmizə və xalqımıza qarşı dayandırılana qədər davam edəcək", - bəyanatda qeyd edilib.

**"CNN":** Pakistanın ABŞ-dakı səfiri Rizvan Səid Şeyx rəsmi olaraq təsdiqləyib ki, Livan ABŞ, İran və əlaqədar tərəflər arasındakı atəşkəs razılaşmasının bir hissəsidir: "Əldə edilmiş razılaşmalara və Pakistanın vasitəçilik roluna əsasən, Livan açıq şəkildə atəşkəs razılaşması çərçivəsinə daxil edilib. Bu məsələni tərəflər razılaşdırılıb və bu barədə heç bir qeyri-müəyyənlik yoxdur". O, əlavə edib ki, İslamabad son danışıqlar zamanı atəşkəsin əhatəli olmasının zəruriliyini vurğulayıb və bura Livanda hərbi əməliyyatların dayandırılması da daxildir.

**"The Wall Street Journal":** ABŞ-ın Vitse-prezidenti Ceyms Devid Vens bildirib ki, əgər Tehran Hörmüz boğazını açmasa, Vaşinqton atəşkəs şərtlərinə əməl etmək niyyətində deyil: "Biz hesab edirik ki, boğazın açılmasına dair əlamətlər var. ABŞ Prezidenti Donald Tramp aydın şəkildə bildirdi ki, biz atəşkəs və danışıqlar barədə razılığa gəlmişik. Biz buna hazırıq, onlar isə, öz növbəsində, boğazı açmalıdırlar. Əgər bu baş verməsə, əgər İran razılaşmanın özünə aid hissəsinə əməl etməsə, ABŞ da razılaşmanın özünə aid hissəsinə əməl etməyəcək".

**"IRNA":** İsrailin Beyrut və digər şəhərləri bombalaması nəticəsində 254 vətəndaşın ölümü ilə əlaqədar aprelin 9-u Livanda milli matəm elan edilib. Bu barədə Livanın Baş naziri Nəvaf Salam qərar qəbul edib. O, İsrailin ölkəsinə qarşı həyata keçirdiyi genişmiqyaslı və təcavüzkar hücumlar nəticəsində həlak olanların xatirəsini anmaq üçün aprelin 9-nu ümummilli matəm günü elan edib.

**"BBC":** ABŞ Prezidenti Donald Tramp bəyan edib ki, Vaşinqton və Tehran İranın nüvə proqramı məsələləri, habelə Hörmüz boğazından sərbəst keçidin təmin olunması üzrə razılıq əldə edib: "Artıq bütün yalan ritorikaya rəğmən, razılaşma var – nüvə silahı olmayacaq, Hörmüz boğazı isə açıq və təhlükəsiz olacaq". Agentliyin yaydığı digər məlumatda ikitərəfli danışıqların ilk raundunun aprelin 11-də İslamabadda baş tutacağı gözlənilir.

**"Times of Israel":** İsrail Müdafiə Ordusu "Hizbullah" qruplaşmasına lazım olan hər yerdə zərbələr endirməyə davam edəcək. Bu barədə İsrailin Baş naziri Benyamin Netanyahu "X" sosial şəbəkəsindəki hesabında yazıb: "Mesajımız aydındır: İsrailin mülki vətəndaşlarına qarşı hərəkət edən hər kəs hədəf olacaq. Sakinlərin tam təhlükəsizliyini bərpa edənə qədər biz lazım olan hər yerdə "Hizbullah"a zərbələr endirməyə davam edəcəyik".

**"Politico":** Böyük Britaniyanın xarici işlər naziri İvet Kuper İranın Hörmüz boğazından keçən gəmilərdən ödəniş tələb etmək təşəbbüsünü rədd edib. Baş diplomat bildirib ki, bu mühüm su yolu beynəlxalq gəmiçilik və tranzit marşrutudur və buna görə də naviqasiya azadlığı prinsipləri burada tətbiq olunur: "Ölkələr bu cür beynəlxalq tranzit marşrutlarını, sadəcə, ələ keçirib birtərəfli qaydada ödəniş tətbiq edə bilməzlər. Onlar bunu dəniz hüququ və Birləşmiş Millətlər Təkilatı çərçivəsində qəbul edilmiş qaydalar baxımından edə bilməzlər".

*Hazırladı:*
***N.BEYDİYEVA***
***XQ***

# Atəşkəsdən sülhə məchul yol

## Hələlik hər tərəf özünü "qalib" sayır



**Yaxın Şərqin və dünyanın şahidlik etdiyi ən qanlı, gərgin hərbi qarşıdurmalarından biri olan ABŞ–İran münaqişəsi tərəflərin aprelin 8-nə keçən gecə iki həftəlik müvəqqəti atəşkəs barədə razılığa gəlməsi ilə yeni, həmçinin daha mürəkkəb mərhələyə qədəm qoyub. Birləşmiş Ştatların Prezidenti Donald Trampın İrana saat 20:00-a qədər təyin etdiyi vaxt bitdikdən dərhal sonra əldə olunan razılaşma regionun böyük bir müharibənin astanasından döndüyünə dair ümidləri artırsa da, gərginlik hələ də kritik həddə qalmaqda davam edir.**

Pakistanın vasitəçiliyi ilə ABŞ/İsrail koalisiyası və İran arasında 14 günlük atəşkəs elan olunub. Daha sonra tərəflər öz şərtlərini irəli sürüblər. Vaşinqton İrana 15 maddəlik plan təqdim edib. Burada əsas diqqət İranın nüvə fəaliyyətlərinin dondurulmasına və Natanz, İsfahan, Fordo kimi strateji obyektlərin fəaliyyətinin dayandırılmasına yönəlib. Bunun müqabilində isə ABŞ sanksiyaların ləğvi və mülki nüvə layihələrinə dəstək vəd edib. İranın Ali Milli Təhlükəsizlik Şurası isə, öz növbəsində, 10 bəndlik tələblər paketi ilə çıxış edib. Tehranın şərtləri arasında uranın zənginləşdirilməsi hüququnun tanınması, dondurulmuş aktivlərin bərpası və ABŞ ordusunun regiondakı bazalardan çıxarılması kimi fundamental məsələlər yer alıb. İran, həmçinin Livan cəbhəsi daxil olmaqla, bütün regional müttəfiq qruplara qarşı hərbi əməliyyatların tam dayandırılmasını tələblərdən biri kimi irəli sürüb.

Elan olunmuş atəşkəsə rəğmən, tərəflərin mövqeləri arasında kəskin ziddiyyətlər mövcuddur. Çünki Tehran Vaşinqtonun şərtlərini rədd edir, Ağ Evin İranın tələblərini qəbul etməsi elə də real görünmür. ABŞ-ın Vitse-prezidenti Ceyms Devid Vens İranın göndərdiyi ilk təkliflər paketinin süni intellekt ilə yazıldığını bildirərək Vaşinqtonun onu zibil qutusuna atdığını açıqlayıb. Daha sonra Tehran ABŞ-a ikinci təkliflər paketi göndərib. Vaşinqton tərəfi bu paketi qəbul edib və bildirib ki, bunun üzərində danışıqlar aparacaq. İran tərəfi yenidən – üçüncü, on bəndlik təklif hazırlayaraq bunu mətbuatda yayıb. Ekspertlər hələlik tərəflərin bütün bəndlər üzrə tam razılaşması ehtimalının aşağı olduğunu deyirlər. Xüsusilə nüvə proqramının taleyi, balliktik raket arsenalı və ABŞ-ın bölgədəki hərbi mövcudluğu məsələlərində tərəflərin bir-birinə diametral əks tələblər irəli sürməsi danışıqlar prosesinin kifayət qədər mürəkkəb keçəcəyindən xəbər verir.

Nüvə məsələsində Vaşinqton Tehrana güzəştə getmək niyyətində deyil. Donald Tramp "Truth Social" platformasında bildirib ki, İran artıq uranın zənginləşdirilməsi ilə məşğul olmayacaq. ABŞ prezidenti, həmçinin Tehranın B-2 bombardmançılarının zərbələri ilə dağıdılmış yeraltı nüvə obyektlərinin qalıqlarının təmizlənməsində ölkəsinin İranla əməkdaşlıq edəcəyini də vurğulayıb. Hazırda peyk müşahidəsi altında olan bu obyektlər və sanksiyaların yumşaldılması üzrə müzakirə edilən 15 bəndlik plan Ağ Evin İranı hərbi güclə nüvəsizləşdirmə yoluna salmaq niyyətini göstərir. Vaşinqton tərəfindən irəli sürülən tariflərin ləğvi və iqtisadi güzəştlər müqabilində nüvə ambisiyalarından birdəfəlik imtina tələbi Tehranın qarşısında qalan yeganə çıxış yolu kimi görünür.

***

Buna baxmayaraq, atəşkəsin coğrafi və siyasi əhatə dairəsi ilə bağlı yaranan ziddiyyətlər sazişin dayanıqlılığını ciddi sual altına qoyur. ABŞ və İran arasında hərbi əməliyyatların dayandırılmasından bir neçə saat sonra İsrail tərəfi Tehranın ABŞ-a təqdim etdiyi 10 bəndlik planı pozub. Tel-Əviv mövcud atəşkəs qərarının Livana şamil edilmədiyini əsas gətirərək, bu ölkəyə zərbələr endirib. Nəticədə Livanda 254 nəfər insan həlak olub. Livan hökuməti və Baş nazir Nəvaf Salam aprelin 9-nu ümummilli matəm günü elan edib. İsrailin Livana hücumundan dərhal sonra ABŞ Prezidenti Donald Tramp "PBS" telekanalına müsahibəsində Livanın bu razılaşmaya daxil edilmədiyini və "Hizbullah"ın atəşkəs çərçivəsindən kənarda qaldığını vurğulayıb. Ağ Evin şimal cəbhəsində əməliyyatlarını davam etdirməsinə "yaşıl işıq" yandırması gərginliyin alovlanmasına təkan verib.

İran tərəfi isə İsrailin Livana hücumunu razılaşmanın açıq şəkildə pozulması kimi qiymətləndirib. Ölkə parlamentinin spikeri Məhəmmədbaqir Qalibaf "X" platformasında yazıb edib ki, ABŞ ilə gələcək sülh sazişi üzrə danışıqlar üçün əsas götürülən İran planının 10 bəndindən 3-ü pozulub: "Pakistanın Baş naziri Şahbaz Şərif də bu öhdəliyi birbaşa qeyd edib və bildirib ki, Livan və digərləri daxil olmaqla, bütün regionlarda təcili atəşkəs dərhal başlamalıdır". Pakistanın ABŞ-dakı səfiri Rizvan Səid Şeyxin "CNN" efirində atəşkəsin Livanı da əhatə etdiyini rəsmən təsdiqləməsi isə vasitəçilərin tərəflər arasında hələ də razılaşma mətni üzərində tam razılığa gələ bilmədiklərini göstərir. Mövcud qeyri-müəyyənlik diplomatik qələbə kimi təqdim olunan atəşkəsin hər an pozulma riskini özündə daşıyır. Hər iki tərəfin yekunda özünü qalib elan etməsi isə müvəqqəti atəşkəsin olduqca kövrək olduğundan xəbər verir.

Tərəflər sabah danışıqların ilk raundu üçün Pakistanın paytaxtı İslamabada gedəcəklər. Danışıqlarda Vaşinqtonu ABŞ Vitse-prezident Ceyms Devid Vens, ABŞ Prezidenti Donald Trampın xüsusi elçisi Stiv Uitkoff və Cared Kuşner təmsil edəcək. İran tərəfinə isə spiker Məhəmmədbaqir Qalibaf başçılıq edəcək, xarici işlər naziri Abbas Əraqçi də İslamabad danışıqlarına qatılacaq.

Yekun olaraq qeyd etmək olar ki, aprelin 8-də başlayan iki həftəlik atəşkəs ya Yaxın Şərqdə yeni bir nizamın başlanğıcı, ya da daha böyük regional fırtınadan öncəki sakitlik kimi tarixdə qalacaq.

***Tacir SADIQOV***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

öz gəmilərinə müxtəlif rezinlər, paranitlər, qayışlar və kipləşdirici kəndirlərin satın alınması məqsədilə

AÇIQ TENDER ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2026-cı il aprelin 24-ü saat 14:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.

Ünvan: Bakı, Mikayıl Useynov küçəsi 2.

"Bakı Toxucu" QSC səhmdarlarının nəzərinə!

24 may 2026-cı il saat 12:00-da "Bakı Toxucu" QSC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. "Bakı Toxucu" QSC-nin 2025-ci ilin maliyyə hesabatının müzakirəsi.
2. Dividendlərin bölüşdürülməsi.
3. Səhmlərin alqı-satqısı.
4. İcarədə olan sahələrdən daha effektli istifadə üçün təmir-tikinti, həmçinin yenidənqurma işlərinin aparılması və bu məqsədlə maliyyə mənbəyinin müəyyənləşdirilməsi.

Telefon: 012-458-14-21.

Ünvan: Bakı şəhəri, Bülbülə qəsəbəsi, S.Bəhlulzadə küçəsi 47.

*"Bakı-Toxucu" QSC-nin sədri F.Ə.Məmmədov*

"Səyyarmextikinti" ASC səhmdarlarının nəzərinə!

22 may 2026-cı il saat 12:00-da, Bakı şəhəri, Qaradağ rayonu, Salyan şosesi 2 nömrəli ünvanda "Səyyarmextikinti" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı ("Səyyarmextikinti" ASC-nin inzibati binasında) keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. "Səyyarmextikinti" ASC-nin kreditor borclarının ödənilməsi məqsədilə onun nizamnaməsinin 4.1.7 bəndinə əsasən xüsusi əhəmiyyətli əqd olduğu nəzərə alınaraq mülkiyyətindəki Bakı şəhəri, Qaradağ rayonu, Salyan şosesi, 2 nömrəli ünvanda yerləşən əmlakının satışı ilə bağlı məsələnin müzakirəsi.

Səhmdarların və ya etibarnamə üzrə nümayəndələrin həmin yığıncaqda iştirakı zəruridir.

*"Səyyarmextikinti" ASC-nin idarə heyəti*

"Astara-nəqliyyat" ASC səhmdarlarının nəzərinə!

19 may 2026-cı il saat 11:00-da "Astara-nəqliyyat" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Səhmdar cəmiyyətinin idarəetmə orqanlarının 2025-ci il üzrə maliyyə-təsərrüfat fəaliyyəti barədə hesabatı.
2. Ləğv edilmiş səhmdar cəmiyyətinin bərpa olunmasının müzakirəsi.
3. Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Telefon: 022 -25-5-18-92.

Ünvan: Astara şəhəri, Nizami küçəsi 35.

*"Astara-nəqliyyat" ASC-nin idarə heyəti*

BİLDİRİŞ

"Bakı Toxucu" QSC-nin 2025-ci il üzrə maliyyə hesabatlarının auditini Azərbaycan Respublikası Auditorlar Palatasının 22 dekabr 2021-ci il tarixli SA/065 saylı icazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov aparmışdır. Audit nəticəsində maliyyə hesabatı 2026-cı il aprelin 2-də müsbət audit rəyi ilə rəsmiləşdirilmişdir.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 60 (31029) 10 aprel 2026-cı il, cümə

## İDMAN

### Cüdo millimiz Avropa çempionatına hazırlaşır



**Avropa çempionatına hazırlığı davam etdirən cüdo üzrə Azərbaycan yığmasının ötən gün media üçün açıq məşqi keçirilib. Milli üzvləri ilə birgə Bəhreyn, Mərakeş və İsraildən olan cüdoçular da hazırlıq keçirlər.**

Cüdo Federasiyasından verilən məlumata görə, ölkəmizi Avropa çempionatında təmsil edəcək ilkin heyət artıq müəyyənləşib. İlkin siyahıya 9 kişi və 6 qadın olmaqla ümumilikdə 15 cüdoçu daxil edilib. Azərbaycan yığmasının yekun heyəti isə yarışa az qalmış açıqlanacaq.

Milli komandaların ilkin heyətində Balabəy Ağayev, Əhməd Yusifov (hər ikisi 60 kq), Turan Bayramov (66 kq), Hidayət Heydərov (73 kq), Zelim Tçkayev, Ömər Rəcəbli (hər ikisi 81 kq), Murad Fətiyev (90 kq), Zelim Kotsoyev (100 kq), Kənan Nəsibov (+100 kq), Könül Əliyeva, Şəfəq Həmidova (hər ikisi 48 kq), Leyla Əliyeva, Gültac Məmmədəliyeva (hər ikisi 52 kq), Südabə Ağayeva (70 kq), Madina Kaisinova (+78 kq) yer alıblar.

Qeyd edək ki, cüdo üzrə böyüklər arasında Avropa çempionatı aprelin 16–19-da Gürcüstanın paytaxtı Tbilisidə keçiriləcək. Qitə birinciliyində 46 ölkədən 409 cüdoçu 14 dəst medal uğrunda mübarizə aparacaq.

### Dövlət qurumları əməkdaşlarının şahmat yarışı



**Aprelin 8-də Gənclər və İdman Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə dövlət qurumlarının əməkdaşları arasında şahmat yarışı keçirilib.**

Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, Respublika Şahmat Mərkəzində təşkil olunan tədbirdə 19 dövlət qurumundan 49 əməkdaş iştirak edib.

Qadınlar arasında Afaq Xudaverdiyeva (Mərkəzi Bank) birinci olub. Qəndab Əzizova ("Azərbaycan Dəmir Yolları" QSC) yarışı ikinci, Fizzə İsmayılova (Dövlət Gömrük Komitəsi) üçüncü pillədə başa vurublar.

Kişilər arasında Sənan Quliyev ("Azərbaycan Dəmir Yolları" QSC) birinci, Murad Quliyev (Mərkəzi Bank) ikinci, Ədalət Umudov (Fövqəladə Hallar Nazirliyi) isə üçüncü yeri tutublar.

### UEFA Çempionlar Liqasında 1/4 final



**UEFA Çempionlar Liqasında 1/4 final mərhələsinin ilk oyunları çərçivəsində daha iki qarşılaşma başa çatıb. Parisdə yerli PSJ İngiltərənin "Liverpul" klubunu qəbul edib. Oyun meydan sahiblərinin qələbəsi ilə başa çatıb–2:0.**

Digər matçda isə İspaniya təmsilçiləri "Barselona" və Madrid "Atletiko"su üz-üzə gəlib. Madridlilər daha yaxşı oynayaraq 2:0 hesabı ilə qalib gəlib.

Qeyd edək ki, 1/4 final mərhələsinin cavab qarşılaşmaları aprelin 14-15-də keçiriləcək. Daha əvvəl "Bavariya" (Almaniya) Madriddə "Real"a 2:1, "Arsenal" (İngiltərə) isə Lissabonda "Sportinq"ə 1:0 hesabı ilə qalib gəlib.

*Qabil YUSİFOĞLU*
*XQ*

### ALLAH RƏHMƏT ELƏSİN!

Ağcabədi rayonundan Rafil Hüseynov Masallı rayon sakini

**MİRKƏRİM AĞANIN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

*Təqvim yada salır*

# Xalqın qəlbində yaşayan pəhləvan

**Bakının 8-ci mikrorayonundan keçən və Azadlıq prospektinə paralel olan küçə Əməkdar idman ustası, dəfələrlə SSRİ çempionu İbrahimpaşa Dadaşovun adını daşıyır. Bəlkə gənclər bilməz, amma məşhur pəhləvan yaşlı nəslin yaddaşında həmişəlik iz salanlardandır. Çünki İbrahimpaşa Dadaşov ötən əsrin 50-ci illərində yeniyetmə və gənclərin əsl kumiri olub.**

…Evimizin yaxınlığında bir çəkməçi köşkü vardı. Hər səhər dərsə gedəndə orada ayaq saxlayır, pəhləvanın içəridə asılmış şəklinə baxırdım. Köhnə bir afişanın ağ-qara surəti idi. Bir dəfə çəkməçi İsa kişi məni saxlayıb soruşdu: "A bala, nə istəyirsən?" "Heç", - deyib getmək istədim. "Dayan, - dedi. – Zəndlə baxdığın bu igid əfsanəvi güləşçi İbrahimpaşadır. Moskvadan belə çoxlarının kürəyini yerə vurub, qızıl medallar alıb. Sən də onun kimi güclü olmaq istəyirsənsə, get, güləşə yazıl".

Sonralar Sumqayıtdakı alüminium zavodunun idman zalında, Əməkdar məşqçi Firdovsi Ömərovun sərbəst güləş bölməsinə yazılıb məşqlərə başladım. Onun da otağında İbrahimpaşanın trikolu şəkli vardı. Amma mən ona bənzəyə bilmədim. Çünki jurnalistikaya həvəsim daha güclü olduğuna görə güləşi çox tez tərk etdim və pəhləvan olmadım…

Bir-iki gün əvvəl internetdə XX əsrin əfsanəvi pəhləvanının 100 yaşının tamam olması barədə xəbərə rast gələndə uşaqlıq yaddaşımdan bu xatirələr boy göstərdi. İsa kişinin çəkməçi köşkündəki afişada gördüyüm həmin şəklin digər bir variantını da axtarıb tapdım.

Düz 100 il əvvəl – 1926-cı il aprelin 10-da Bakıda dünyaya göz açan İbrahimpaşa Dadaşov erkən yaşlarından pəhləvanlığa həvəs göstərib. Amma uşaqlığı müharibə dövrünə düşdüyü üçün güləşə bir qədər gec gəlib. 20 yaşında ikən "Dinamo" idman cəmiyyətinə üz tutub. O vaxtın tanınmış məşqçisi David Maxaradze onu sınayıcı nəzərlərlə süzərək, "yaşın ötüb" desə də, geri qaytarmayıb. İbrahimpaşa da, öz növbəsində, güləş fəndlərini ağlasığmaz sürətlə öyrənərək, məşqdən-məşqə, yarışdan-yarışa bərkiməyə başlayıb. Tezliklə yarımyüngül çəki dərəcəsində Azərbaycan çempionu adını qazanan gənc pəhləvan az sonra daha mötəbər turnirdə - "Dinamo"nun mərkəzi şurasının birinciliyində qalib gəlib. Həmin yarışı güləşçilər həm də SSRİ-nin kiçik çempionatı adlandırırdılar.

SSRİ birinciliklərinə gəlincə isə, İbrahimpaşa 1949-1956-cı illərdə 4 dəfə həmin yarışlarda fəxri kürsünün ən yüksək pilləsinə ucalıb. Dediyinə görə, ilk dəfə daha çox həyəcan keçirib. Axı, həmin çempionat Bakıda keçirilirdi, "doğma divarlar" arasında uduzsaydı, ruhdan düşə bilərdi. Yaxşı ki, xalça üzərinə çıxanda həyəcanını gizlədə bilib. O, əvvəlcə ermənistanlı Xoren Çeviçyanı, daha sonra gürcüstanlı Andrey Çelidzeni və nəhayət, rusiyalı Yuri Denikovu məğlub etməklə qızıl medala yiyələnib. Növbəti çempionatlarda da tale əzmkarlığı ilə seçilən Dadaşovun üzünə gülüb. Dostları, eləcə də rəqibləri ona böyük ehtiramla "Paşa pəhləvan" deyə müraciət etməyə başlayıblar.

"Köhnə qvardiya" yaxşı bilir ki, o zamanlar hər hansı bir azərbaycanlı idmançı üçün ümumittifaq yarışlarda qalib gəlmək, bəlkə də, Avropa və dünya sınaqlarından daha çətin idi. Çünki güclü ayrı-seçkilik vardı və qeyri-slavyan millətlərin təmsilçilərinin irəli çıxmasına süni maneələr yaradılırdı. Görün, İbrahimpaşa necə əzmkar və qətiyyətli güləşçi olub ki, "obyektiv" hakimlər də onun qarşısına sədd çəkə bilməyiblər.

Son anadək mübarizə aparan, həlledici fənd üçün ən əlverişli məqamı tuta bilən, ağır vəziyyətlərdən məharətlə sivişib çıxan həmyerlimizin güləş üslubunu yeni məktəb sayanlar da vardı. Təsadüfi deyil ki, Paşa pəhləvan 1952-ci ildə Finlandiyanın paytaxtı Helsinkidə keçirilən Yay Olimpiya Oyunlarına da vəsiqə qazana bilib və ilk 7-liyə düşüb.

Gənc həmkarım Mərahim Nəsib yazır ki, düz 70 il əvvəl Moskvada SSRİ Xalqlarının 1-ci Spartakiadası Paşa pəhləvan üçün vida turniri olub. Orada da bütün rəqiblərinin kürəyini yerə vuraraq çempionluq tituluna yiyələnib. Özü də həmin yarışda soydaşımız güclü gürcüstanlı rəqibi Sergey Qavarayevə, rusiyalı dünya çempionu Olembek Bestayevə və dünya kubokunun sahibi, ukraynalı Vladimir Simyarskiyə qalib gəlib. Onu da deyək ki, özünün son mövsümündə iştirak etdiyi yarışlarda



İbrahimpaşa digər dünya çempionları – Canahbaxış Tövfiqi (İran) və Qriqor Qamarniki (Rusiya) də məğlubiyyətə uğradıb.

İbrahimpaşa Dadaşov parlaq idman nailiyyətlərinə görə SSRİ-nin Əməkdar idman ustasısı və Əməkdar məşqçisi fəxri adlarına layiq görülüb. Bir çox məşhur güləşçi onun yetirməsi olub. Məsələn, dünya və Avropa çempionu, 1964-cü ildə Tokioda keçirilən olimpiadanın bürünc mükafatçısı Aydın İbrahimovu da o yetişdirib.

*Ə.NƏCƏFXANLI*
*XQ*

# Artemis II missiyası uğurla tamamlanır



**İnsanlığın yarım əsrdən sonra Aya dönüş proqramı real nəticə ilə yadda qalır. NASA-nın həyata keçirdiyi Artemis II missiyası çərçivəsində astronavtlar Ay ətrafında uçuşu uğurla başa vuraraq Yerə qayıdış mərhələsinə daxil olublar.**

NASA-nın yaydığı rəsmi məlumata görə, ekipaj Ayın uzaq tərəfindən dövrə vurduqdan sonra artıq Yerə doğru hərəkət edir və 2026-cı il aprelin 10-da Sakit okeana eniş edəcək. Missiyada iştirak edən ekipaj – Reid Wiseman (komandir), Victor Glover (pilot), Christina Koch və Jeremy Hansen – Orion spacecraft ilə 10 gün davam edən uçuş həyata keçiriblər. Bu müddət ərzində kosmik gəmi Ayın cazibə sahəsinə daxil olub, onun uzaq tərəfi boyunca trayektoriya üzrə hərəkət edərək yenidən Yer istiqamətinə yönəlib.

Artemis II missiyasının əsas xüsusiyyəti ondan ibarətdir ki, astronavtlar Ay səthinə enməyiblər. Bu uçuş insanlı sistemlərin dərin kosmosda sınağı, ekipajın uzunmüddətli uçuş şəraitinə uyğunlaşması və gələcək enişlər üçün texniki hazırlıq məqsədi daşıyıb. Başqa sözlə, bu missiya Ay səthinə ilk addım deyil, o addımın etibarlı şəkildə atılması üçün zəruri mərhələdir.

NASA-nın məlumatına əsasən, Yerə dönüş zamanı kapsul yüksək sürətlə atmosferə daxil olacaq, qısamüddətli rabitə kəsilməsi baş verəcək və paraşüt sistemləri vasitəsilə təhlükəsiz eniş həyata keçiriləcək. Ekipaj daha sonra ABŞ Hərbi Dəniz Qüvvələrinin gəmisinə qaldırılacaq.

Beləliklə, artıq fakt ortadadır: insan Aya hələ enməsə də, Aya qayıdış prosesi başlayıb və real nəticə verib. Unutmayaq ki, Artemis II – tarixə, sadəcə, uçuş kimi yox, insanın kosmosda yeni mərhələyə keçidinin başlanğıcı kimi düşür.

*XQ*

## HAVA

# Yazın oğlan çağında yağış, dolu və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz mülayim cənub-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 8-10° isti, gündüz 14-17° isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunundan 760 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 6-9°, gündüz 17-22° isti, dağlarda gecə 1-6°, gündüz 10-15° isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*



DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3116
SİFARİŞ 462
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00